Ş. Quliyev, T. Abbasov, F. Quliyev



# CƏBRAYIL



Şəhriyar Quliyev, Tariyel Abbasov, Fazil Quliyev

# CƏBRAYIL

[Tarixi oçerk]

B a k ı — 1993



Rəyçi - Azərbaycan respublikası EA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Mahmud İsmayılov
Xüsusi redaktor - filologiya elmləri doktoru, professor Kamil Vəliyev Fotolar - Seyfəddin Məmmədvəliyevindir.
Redaktoru - Qəşəm İsabəyli
Latın əlifbasına çevirən – Qorxmaz Şirinov

Ş. Quliyev, T. Abbasov. F. Quliyev,
c 58 CƏBRAYIL. Tarixi oçerk. B., İşıq, 112 s.

Kitab Azərbaycan torpağının qədim bir parçası-ulu Cəbrayıl atanın adını daşıyan Cəbrayıl rayonu haqqında tarixi-bədii hekayətdir. Müəlliflər rayonun ilk məskunlaşma dövründən başlamış ta bu gününəcən onu mərhələ-mərhələ açıb oxucunun gözləri qarşısında canlandırır. Qarabağ xanlığının siyasi tarixi həyatında özünəməxsus rolu olan cəbrayıllı tayfasının təşəkkülü də unudulmamalıdır. Eyni zamanda rayonun bu günü də kitabda öz əksini tapmışdır.

Kitab Cəbrayıl RİK-nin sifarişi ilə nəşr olunur.

© Cəbrayıl RİK, 1993.

Dünya bir tarladır, diqqətlə baxsaq,
Hamı bir-birinə cütcüdür ancaq.
Nizami

# BİR NECƏ SÖZ

Cəbrayıl rayonu Azərbaycan respublikasının İran İslam Respublikası ilə sərhəddində — Araz çayının sol sahilində, Qarabağın səfalı, ürəkaçan guşələrinin birində yerləşir.

Cəbrayılın zəngin tarixi keçmişi var. İran tarixçisi Həmdullah Qəzvininin [XIII-XIV əsrlər], Azərbaycan tarixçiləri A. Bakıxanov, Əhməd bəy Cavanşir, Mirzə Camal Cavanşir Qarabaği, Mirzə Adıgözəlbəy, Məhəmmədhəsən bəy Baharlı və Mirzə Həsən Əfəndinin əsərlərində Cəbrayıl haqqında qiymətli tarixi məlumatlara rast gəlirik. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Qasım bəy Zakir və Cəlil Məmmədquluzadə Cəbrayıl qəzasında əhalinin güzəranı, adət-ənənələri, mədəniyyəti ilə əlaqədar maraqlı fikirlər söyləmişlər. Rus müəlliflərindən İ.Seqal, Q.Urazov, N.Y.Sokcayev, A.Dekonski və A.Nazarovic Cəbrayıl qəzasının təsərrüfat və mədəni həyatından bəhs edən oçerk və məqalələr yazmışlar. Rus qafqazşünasları N.Dubrovin, A.V.Fon Qrebner, P.Zubov, K.Qan və b. Rus-İran müharibələrində [1806-1812 və 1826-1828-ci illər] Cəbrayıl ellərindən təşkil edilmiş silahlı dəstələrin iştirakı, Rusiya və Şimali Azərbaycanla Yaxın və Orta Şərq ölkələri arasında karvan yolları, məşhur Xudafərin körpüləri vasitəsilə ticarət əlaqələri haqqında geniş məlumatlar vermişlər.

XIX əsr və XX əsrin əvvəllərində Qafqaz canişinliyinin nəşr etdirdiyi toplu, icmal və hərbi raportlarda Rus-İran müharibələri dövründə Cəbrayıl ərazilərinin əsas döyüş meydanlarından biri olması, burada baş vermiş hərbi əməliyyatlar, bu döyüşlərdə cəbrayıllıların iştirakı, torpaq münasibətləri, əhalinin vəziyyəti, çarizmin müstəmləkəçilik siyasətinə qarşı yerlilərin mübarizəsi, ticarət və sənətkarlıq haqqında çoxlu məlumatlar vardır.

Azərbaycan tarixçilərinin tədqiqatlarında Cəbrayılın keçmişinə dair maraqlı məlumatlar var indiyəcən Cəbrayılın tarixi üzə çıxarılıb oxuculara təqdim edilməmişdir. Həmin kitab-albom bu yolda ilk addımdır. Bir cəhətdən nəzərə almaq lazımdır ki, Cəbrayıl qəzasından danışarkən bu qəzaya daxil olmuş indiki Zəngilan, Füzuli və Hadrut rayonlarının hamısının tarixindən deyil, ancaq indiki Cəbrayıl rayonu ərazilərinin tarixi keçmişindən, bu günündən bəhs olunur.

Kitab-albom ilk təşəbbüs olduğundan yəqin ki, burada mübahisə törədən məsələlər və çatışmayan cəhətlər yox deyildir. Kitabın hazırlanmasında dəyərli

məsləhətlər verən və nöqsanları göstərən bütün yoldaşlara irəlicədən minnətdarlığımızı bildiririk.

Kitab üzərində işlərkən, yazılı mənbələr, arxiv sənədləri, tədqiqat əsərləri, dövri mətbuat və rayon tarixdiyarşünaslıq muzeyində toplanmış materiallardan, habelə etnoqrafik məlumatlardan istifadə edilmişdir.



# TARİXİ KEÇMİŞƏ NƏZƏR

## Rayonun adı haqqında

Cəbrayıl rayonunun adı hazırda rayonun mərkəzi olan Cəbrayıl kəndinin adından götürülmüşdür.

1873-cü ildə Cəbrayıl kəndində olmuş «Qafqaz» qəzetinin [Tiflis] əməkdaşı N. Kokcayev yazır ki, Cəbrayıl tatar [azərb.—red] sözüdür və ona rusca Qavril deyilir. Rus qafqazşünası K. Qan da [XIX əsr] eyni fikri söyləyir və əlavə edir ki, İslam dinində olan mələklərdən də birinin adı Cəbrayıldır. Əlbəttə, bunlar Cəbrayıl kəndinin tarixinə dair heç bir məlumat verməyən dolaşıq izahlardır. Çünki əvvəla, Qavril rus yox, sami dillərinə aid sözdür, digər tərəfdən də ümumiyyətlə adları başqa dillərə tərcümə etmək düz deyil.

Cəbrayıl sözü ərəbcə «Allahın qulu» və ərəbcə — ibranicə "bir işi az- çox zorla görmək" mənalarını verən «Cabri» sözündən yaranmışdır. Cabri sözü- Qurana Allahın buyruqlarını Məhəmməd peyğəmbərə çatdıran mələyin adını bildirən Cibril [Cəbrəil] şəklində daxil edilmişdir. Cibril [Cəbrəil] Quran vasitəsi ilə Azərbaycana keçərək, danışıq dilində Cəbrayıl şəklinə düşmüş və əfsanəvi addan şəxs adına çevrilmişdir. Ona görə də Cəbrayıl kəndinin adını dini-mifik mələyin adı ilə bağlamaq olmaz. Cəbrayıl tarixi şəxsiyyət olmuşdur.

N. Kokcayev ikinci dəfə — 1876-cı ildə Cəbrayıl kəndinə gələn zaman topladığı etnoqrafik məlumatlara əsaslanaraq yazmışdır ki, Mirzəcanlı və Cəbrayıl kənd ağsaqqallarının deməsinə görə Cəbrayıl ağa keçmiş zamanlarda yaşamış Sultan Əhməd adlı bir hökmdarın yaxın adamlarından olub, Ziyarət dağından Araz çayına qədər torpaqlar da Cəbrayıla və onun övladlarına məxsus imiş, bu müqəddəs şəxs «Cəbrayıl — ata» deyilən yerdə dəfn edilmişdir. Müəllif bu deyilənləri geniş şərh etmir və Sultan Əhməd haqqında da məlumat vermir. Amma Cəbrayılın övladları haqqında müxtəlif fikirlər söylənilir. Birində Cəbrayılın Mirzəcan və Yarəhməd, ikincisində onlardan əlavə Şahvələd, Bünyad və Qurban adlı oğlanları olduğu göstərilir. Üçüncü variantda isə Cəbrayılın Mirzəcan, Yarəhməd, Hasan, Maşan, Alıköyxa və Xubyar adlı oğlanları olduğu, onların da Mirzəcanlı, Yarəhmədli və s. kəndlər saldıqları göstərilir. Bir rəvayət də var ki, Cəbrayıl Gordubaba adlı bir kişinin oğlu imiş, Gordubaba dağı da həmin şəxsin adını daşıyır, məzarı da bu dağdadır. Cəbrayılın guya öz ata yurdu olan Gordubaba dağında da evi olmuş, yay vaxtları burada, qalan vaxtlar isə Cəbrayıl kəndində yaşamışdır. Qumlaq, Veysəlli, Alıkeyxalı və Şahvəlli kəndlərinin camaatı da özlərini Cəbrayılın nəslindən hesab edir və göstərirlər ki, bizim ulu babalarımız

keçmiş zamanlarda indiki Cəbrayıl şəhər internat məktəbi olan yerdə, «Mədəd armudu» adı ilə tanınan armud ağacının ətraflarında yaşayırmışlar. Mədəd də Cəbrayılın törəmələrindən olmuşdur.

Doğrudan da, Cəbrayıl kəndinin şimalında Cəbrayıl — ata adlı məqbərə [uzunluğu 4, 5 metr, eni 2, 4 metr, hündürlüyü 1, 8 metrdir], Gordubaba dağında məzar və qədim yaşayış yerinin izləri indiyə qədər qalır.

Azərbaycanda, o cümlədən Qarabağda mövcud olmuş Elxanilər [XIII əsr], Cəlayirilər [XIII—XIV əsrlər] və Ağqoyunlular [XV əsr] dövlətlərində Sultan Əhməd adlı hökmdarlar da olmuşdur və çox güman ki, Azərbaycanda, o cümlədən Cəbrayıl ərazisində keçmişdə məşhur olmuş Əhmədli tayfası da onlardan birinin adı ilə bağlıdır.

XIX əsrin 90-cı illərində Cəbrayıl kəndində olmuş erməni katalikosu M. Barxudaryan isə burada bir necə erməni ailəsinin yaşadığını əsas tutaraq özündən belə bir uydurma düzəltmişdir ki, Cəbrayıl sözü erməni knyazı Çrayelin adının dəyişdirilmiş formasıdır. Katalikos hətta ürək yanğısı ilə qeyd edir ki, Cəbrayılda hələlik kilsə yoxdur. Başdan-başa cəfəng fikirlərdir. Cəbrayıl sözü Çrayeldən yaranmış olsaydı qonşu erməni kəndlərinin əhalisi «Cəbrayıl — ata» məqbərəsinə yəqin ki, Çrayel — ata, yaxud da heç olmasa Cəbrayıl sözünün ermənicə oxşarı olan Qabriel — ata deyərdilər, və «ata» sözünü də ermənicə işlədərdilər. Halbuki qonşu erməni kəndlərinin camaatı da bu qəbir abidəsinə azərbaycanlılar kimi öz ləhcələrinə uyğun olaraq məhz Cabrel — ata [Cibril — ata, Cəbrayıl — ata] deyirlər. XIX əsrdə Cəbrayılda yaşayan ermənilərə gəlincə onlar qonşu erməni kəndlərindən ancaq xidmət işlərində [çəkməçi, dərzi, dəllək və s.] işləyib çörək pulu qazanmağa gələn adamlar idi.

Coğrafiyaşünas — toponimçi S. Kərimov rayonun keçmiş Diri kəndindən olan Aşıq Qurbaninin [XVI əsr] «Yetmiş il bənd etdi Cəbrayıl, pərim» misrasına əsaslanaraq güman edir ki, Cəbrayıl Qurbaninin müasiri olmuş, özü də yetmiş il ömür sürmüşdür. Bu mülahizə də inandırıcı deyil. Çünki yuxarıdakı misrada adı çəkilən Cəbrail Qurbaninin öz sözləri ilə desək «Göydə gəzən Cəbraildir». Aşığın şe’rlərində İslam dinində olan mələklərdən Mikail, İsrafil ilə yanaşı Cəbrailin də adına təxminən səkkiz yerdə rast gəlinir. Qurbaninin dediyi 70 il aşıqın öz yaşıdır. Tədqiqatçılar Ə. Behbudov və N. Nəbiyev Cəbrayıl kəndinin keçmişdə yaşamış Cəbrayıl bəyin adını daşıdığını, onun Cəbrayıl — ata məqbərəsində dəfn edildiyini göstərir, lakin konkret olaraq hansı dövrdə yaşaması və şəxsiyyəti haqqında məlumat vermirlər.

Cəbrayıl VIII—XII əsrlərdə—Elxanilər, Cəlayirilər, yaxud da Ağqoyunlular

zamanında, Sultan Əhməd adlı üç hökmdardan birinin [hansının? — hələlik dəqiq demək çətindir] hakimiyyəti illərində yaşamış, Cəbrayıl kəndinin bünövrəsini qoymuş, buradakı kəhrizi də o vurdurmuş [ona görə də ona Cəbrayıl kəhrizi, yaxud da Orta kəhriz deyilir], çinarı da o əkdirmişdir. Bunu Cəbrayılın Sultan Əhmədin yaxın adamlarından olması haqqında XIX əsrin 70-ci illərində yazıya alınmış rəvayət təsdiq edir. Çünki görkəmli şərqşünas Mirzə Kazımbəyin dediyi kimi rəvayətlər formasını dəyişsə də məzmunu olduğu kimi qalır. Cəbrayıl ata məqbərəsi- nin tikinti texnikasının və kəhrizin vurulma üsulunun o dövrlərə aid olması da bu fikri bir daha təsdiq edir. Cəbrayılın özünün və övladları- nın adlarının [Mirzəcan, Yarəhməd, Şahvələd və b.] türk — ərəb — fars mənşəli sözlər olması göstərir ki, Cəbrayıl bu yerlərin ən qədim sakinləri olan türk [Azərbaycan] tayfalarından olmuşdur. Mənbələrdə Cəbrayılın «ağa», «Müqəddəs şəxs», nəhayət «ata» adlandırılması sübut edir ki, o, həqiqətdə də bu ərazilərin çox nüfuzlu adamı, doğma elini sevən, övladlarına, təbələrinə doğru yol göstərən xeyirxah bir el ağsaqqalı, bəlkə də hakimi olmuşdur] ( *Eradan əvvəlki dövrlərdə İranda əyalət başçılarına da Ata deyilirdi. Lakin Ata türk sözüdür. Heç də hər qocaya, ağsaqqala ata deyilməmişdir. Ata adlandırılan şəxsləri barmaqla saymaq olar. [Bax İslam Ensiklopediyası cild I. səh. 722].*). Bu səbəblərə görə də Cəbrayıl ata ümumi qəbirstanlıqda deyil, o dövrün adətinə uyğun olaraq ona məxsus torpaqların tam yuxarı başında, Alıpaşa dağının hündür və tamaşalı bir yerində ayrıca dəfn edilmişdir. Maraqlıdır ki, XIX əsrdə Cəbrayıl kəndinə gəlmiş və Cəbrayıl ata məqbərəsini də görmüş, milliyyətcə də erməni olan N. Kokcayev və M. Barxudaryan bu abidədə xaç işarəsinə rast gəlmədikləri halda [xaç işarəsini görsəydilər, yəqin ki, fürsəti əldən verməyib bunu tutarlı bir dəlil kimi mütləq yazardılar—müəl.] sonralar onda xaç işarəsi peyda olmuşdur. Bu heç də təəccüb doğurmamalıdır. Çünki erməni «tədqiqatçılarının» qədim Azərbaycan abidələrini özününküləşdirmək məqsədi ilə onların üstündə erməni əlifbası ilə müəyyən sözlər yazmaları, xaç işarələri qoymaları, buna imkan olmadıqda abidələri uçurub dağıtmalarına çox rast gəlinmişdir. (*Bir misal. Çox uzağa getməyək. 1978-ci ildə DQMV-in Mardakert rayonunda ermənilərin bura köçürülməsinin 150 illiyinə ucaldılan abidənin üstündəki yazılar sonralar pozuldu. [«Qarabağ» qəzeti, 25 avqust*). Cəbrayıl — ata məqbərəsi Qarabağın dağlıq hissəsində, erməni kəndlərinin yaxınlığında olduğundan erməni «tədqiqatçıları» bu abidəni də öz ibadətgahlarına çevirmək məqsədi ilə onun üzərində sonralar xaç işarəsi həkk etdilər. Yerli əhalinin deməsinə görə onlar qədim azərbaycanlı qəbirstanlığındakı qəbirüstü qoç [qoyun] fiqurlarının bəzilərini götürüb aparmış, bəzilərini də sındırmışlar.

Cəbrayılın ata adlandırılmağa layiq nüfuzlu bir şəxs olmasını təsdiq edən faktlardan ən mühümü onun adını daşıyan Cəbrayıllı tayfasının olmasıdır.

Cəbrayıllı tayfası haqqında məlumatlara A. Bakıxanovun, Mirzə Həsən Əfəndinin əsərlərində, XIX əsrdə yazılmış bir çox kitab və rəsmi dövlət sənədlərində, habelə akademik Ə. Sumbatzadənin və tarix elmləri doktoru S. Onullahinin tədqiqatlarında dəfələrlə rast gəlinir. Belə görünür ki, Cəbrayıl hələ öz sağlığında «ata» kimi tanınan el ağsaqqalı olduğu kimi, onun övladları da öz dövrlərinin sayılan adamları olmuş, zaman keçdikcə onların törəmələri artıb çoxalmış və nəhayət bir tayfa kimi təşəkkül tapmışlar. Cəbrayılın nəslinin sonralar böyük bir tayfaya çevrilməsində keçmiş zamanlarda bu ərazilərə köçüb gəlmiş Cakar [Çaxırlı], indiki Nüsüs, Niftalılar, Əlhəsənli, Teymurxanlı kəndlərini təşkil edən Sirak [Sirik], Cul-Cöl [Çullu], Tatarlar [Tatar], Əhmədli [Şahvəlli, Qalacıq, hacı Ismayıllı, Dəmşalaq, İsaxlı, Kürdlər və s], Sədli [Sədi], Qazan [Qazancı, Qazanzəmi], Qum [Qumlaq], Məzrəlilər [Məzrə], Paplı [Papı], hacılılar [Hacılı], Qaracallılar [Qaracallı], Qalacıqlılar [Qalacıq], Şıxlılar [Şıxlı], Hovus [Hovuslu], Heydərxanlılar, Bəyişlilər, Həsənlilər və Hüseynlilər nəsillərindən ibarət olan Tin [Tinli], İmirli [Əmirvarlı], Tolos [Tulus], Mahmudi [Mahmudlu], Kuşan [Quşçular] və s. türk tayfa və tirələrindən bəzilərinin də müəyyən rolu olmuşdur] (*Mötərizədəkilər həmin tayfaların saldıqları kəndlərin adlarıdır.*). Aralarındakı siyasi mənafe birliyi, təsərrüfat, qohumluq və s. əlaqələr onların bir-biri ilə və bu ərazilərin əsl sakinləri ilə yaxınlaşmasına şərait yaratmış, onlar- dan bəzilərinin Cəbrayıllı tayfası ilə birləşməsi nəticəsində bu tayfa daha da böyümüşdür. Ona görə də S. Onullahi XV—XVII əsrlərdə Qarabağ əhalisini təşkil edən məşhur Şahsevən, Cavanşir, Əfşar və s. tayfalarla yanaşı Cəbrayıllı tayfasının da adını çəkmişdir. XIX əsr mənbələrində göstərilən «Dərzililər və Cəbrayıllılar», «Cəbrayıllılar və Siriklilər», «Cəbrayıllılar və Maralyanlılar» və s. bu kimi ifadələrdən, eləcə də Daşkəsən [30 ev], Balyand [18 ev], Sarıcallı [20 ev], Harovlu [64 ev], Soltanlı [60 ev], Şükürbəyli [35 ev] və s. kəndlərin ad- larının ayrıca yazılmasından belə görünür ki, həmin kəndlər və eləcə də Çərəkan, Əfəndilər, Papı, Hacılı, Mərcanlı, Mehdili, Maralyan, Çaxırlı, Dərzili, Çələbilər və s. kəndlərin camaatından başqa qalan kəndlərin çoxu Cəbrayıllı tayfa birləşməsinə daxil olmuşlar.

1823-cü ilə aid siyahıyaalma sənədlərindən görünür ki, Cəbrayıllı tayfası o dövrdə 17 tirədən [443 ev, təxminən 2200 nəfər] ibarət idi. XIX əsrin əvvəllərində bu tayfanın başçısı Qarabağ hakimi İbrahimxəlil xanın cəbrayıllı qızından olan nəvəsi Cəfərqulu ağa, [Məhəmmədhəsən ağanın oğlu], ağsaqqalları isə Mahmud ağa, Lütfəli ağa və başqa hörmətli şəxslər idi. Cəbrayıl, Maralyan, Horadiz, Qarğabazar və o dövrlərdə «Xırdapara» adı ilə tanınan Quycaq, Horovlu, Nüzgar, Şəybəy, Safarşa, Çapand, Cəfərabad kəndləri Cəfərqulu ağaya vergi verirdi.

(*Xırdapara — xırda [kiçik] kəndlər mənasında işlənirdi.*) Tayfanın tirələrinin başında Cəfərbəy, Fətəli bəy, Yaqub ağa, Əbdürəhman bəy, Feyzulla bəy, Mehralı bəy, Əli bəy. Nəbi ağa, Əhməd ağa, Abdulla bəy, Qasım bəy və b. adlı-sanlı adamlar dururdular. Ona görə də 1823-cü il siyahıyaalma sənədlərində tirələrin adları Cəfər bəyin cəbrayıllıları, Fətəlibəyin cəbrayıllıları və s. kimi göstərilmişdir. Tirə başçıları əhalidən vergi toplayır, mükəlləfiyyətləri yerinə yetirməyə cəlb edir, lazım gəldikdə silahlı dəstələr təşkil edirdilər. Qarabağ xanlığı dövründə cəbrayıllı tayfası- nın nüfuzu elə artmışdı ki, hətta İbrahimxəlil xan Cəbrayıl bəylərindən birinin qızı ilə evlənib, bu tayfa ilə qohum da olmuşdu. Rus generalları və İran şahzadəsi Abbas Mirzə də Cəbrayıllı tayfasını həmişə öz tərəflərinə çəkməyə çalışırdılar.

Cəbrayıllı tayfası və bu tayfaya daxil olmayan kəndlərin əhalisi Azərbaycanda yaranmış siyasi vəziyyətlə əlaqədar olaraq XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu, X^1-X^N əslərdə qızılbaşlar və şahsevənlər, XVIII əsrdə əfşar, nəhayət Cavanşir tayfa ittifaqlarının tərkibinə daxil idilər. Ona görə də XIX əsr müəllifi D.Zubarev və ona əsaslanan bəzi tədqiqatçılar cəbrayıllıları gah Cavanşir, gah da Əfşar tayfasının bir tirəsi, 1878-ci ildə Londonda türkcə nəşr edilmiş bir topluda isə Şahsevənlərin bir qolu kimi göstərmişlər. Bu səbəbdən də Mirzəcanlı kənd camaatı özlərini Cəbrayılın törəmələri hesab etməklə yanaşı indiki Ağcabədi rayonunda yaşayan Əfşar tayfası ilə də qohum olduqlarını deyirlər. Cəbrayıllı tayfası siyasi mülahizəyə görə yuxarıda göstərilən tayfa ittifaqlarına daxil olsa da həmişə öz daxili bütövlüyünü qoruyub saxlayırdı. Sonralar ayrı-ayrı kəndlərin böyüməsi ilə əlaqədar olaraq tayfalar öz əhəmiyyətini itirdiyindən və «tayfa» sözü «kənd» sözü ilə əvəz edildiyindən XIX əsrin 30-cu illərindən sonrakı yazılı mənbələrdə və rəsmi dövlət sənədlərində Cəbrayıllı tayfasının adına rast gəlinmir.

XIX əsrdə və XX əsrin əvvəllərində xalq arasında Cəbrayıl kəndinə bəzən Qıraxdın da deyilmişdir. Bu da İrandan Şimali Azərbaycana yoluxucu mal-qara xəstəliklərinin keçməsinin qarşısını almaq məqsədi ilə XIX əsrin əvvəllərində Cəbrayıl kəndidə təşkil edilmiş Karantin [italyanca «40 gün» deməkdir] məntəqəsi ilə əlaqədar idi. Belə ki, Cəbrayıl kəndində o dövrlərdə yerləşən rus hərbi qarnizonunda xidmət edən əsgərlər və ətraf kəndlərin əhalisi Cəbrayıl kəndinə bəzən sadəcə olaraq «Karantin» də deyirdilər ki, bu söz də zaman keçdikcə azərbaycanlıların danışıq dilində Qarantin, Q. İrantin, nəhayət Qıraxdın şəklinə düşərək Cəbrayıl kəndinin ikinci bir adı kimi işlənirdi. Buna baxmayaraq K.Ağayev «Qıraxdının» «Karantin» sözündən yaranmasını rədd edərək bu sözü «Qıraqtun», «Qıraxdin» şəkillərində verir və iddia edir ki, bu ərazilərdə islam

dininə inam başqa yerlərdəkinə nisbətən az olduğundan və ya heç olmadığından Cəbrayıla «dindən qıraq», «dindən kənar» yer mənasında Qıraxdin deyilmişdir. Müəllifin fikri səhvdir. Ə.Behbudovun qeyd etdiyi kimi nəinki Cəbrayılda, hətta bütün Azərbaycanda islam dininə inamsızlıq olmamışdır. Digər tərəfdən islam dininə etiqad etməyənlərə, dinsizlərə «qıraxdin», yaxud da «qıraqdin» deyil, islam dinində məşhur ifadələr kimi işlənən «Kafər», yaxud da «babı» deyilmişdir. Ə.Behbudov və İ.Kazımov Qıraxdını «Qıraxdan» kimi yazıb göstərirlər ki, Cəbrayıla Şuşadan, İrandan və başqa yerlərdən gələnlər üstünlük təşkil etdiklərindən «Qıraxdan», yəni kənardan gələnlər mənasında Qıraxdan-Qıraxdın sözləri formalaşmış və bu səbəbdən də Cəbrayıla Qıraxdın deyilmişdir. Bu fikir də düz deyil. Müəlliflər nəzərə almırlar ki, müəyyən bir yerə kənardan gələnlərə xalq arasında və bədii ədəbiyyatda sadəcə olaraq «gəlmə» deyilir. Zərdab rayonundakı Gəlmə kəndinin adı da bu mülahizə ilə əlaqədar yaranmışdır. Ona görə də «Qıraxdın» sözünü «Qıraxdin», «Qıraxdan» kimi yazıb onların guya dindən qıraq olanlar, kənardan [qıraqdan, başqa yerdən] gələnlər mənalarını verməsi haqda fikirlər uydurmadır. Qıraxdın «Karantin» sözünün danışıq dilində dəyişilmiş formasıdır. Azərbaycan EA-nın müxbir üzvü professor Ə. Mirəhmədov C. Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları hekayəsindəki «Kərbəlayilər üz tutdu Qıraxdın yoluna» cümləsində göstərilən Qıraxdın sözünü də Culfa kimi şərh etmişdir, Çünki Culfada da karantin məntəqəsi olmuşdur. Tədqiqatçılar X.Xəlilov, S.Kərimov və N.Nəbiyev də «Qıraxdın» sözünün «Karantin»dən yaranmasını göstərir və qeyd edirlər ki, Bakı şəhəri Əzizbəyov rayonundakı Qoşa Qışlaq kəndində və Laçın rayonunun Bozlu kəndi yaxınlığında karantin məntəqələri olduğundan bu yerlərə də xalq arasında «Kiraxdun yeri» və «Qıraxdın qayası» deyilir. Təkcə XIX əsrə aid yüzlərlə ədəbiyyatda Cəbrayıl kəndinin adına azı iki yüz dəfə rast gəlindiyi halda Cəbrayılın ikinci adı kimi «Qıraxdın» sözünü ancaq XIX əsr rus qafqazşünası İ.Seqal bir dəfə işlətmişdir. Hazırda Qıraxdın sözünü tək-tək qocalar və Cəbrayılın keçmişindən yazan bəzi müəlliflər işlədirlər.

# UZAQ KEÇMİŞLƏRDƏ

Cəbrayıl əraziləri Kür-Araz mədəniyyətinin təşəkkül tapdığı və qədim Şərq mədəniyyətinin Qafqaza təsirində keçid məntəqələrindən və beləliklə də qədim mədəniyyətlərin qovuşduğu mərkəzlərdən biridir. Bunu Cəbrayıl ərazisində olan təbii mağaralar, siklop tikintiləri, daş üzərində müxtəlif naxışlar, qədim yaşayış yerləri, istehkam və qəbiristanlıq qalıqları, habelə rayon tarix — diyarşünaslıq muzeyində toplanmış çoxlu miqdarda maddi-mədəniyyət nümunələri təsdiq edir. Elə götürək Dağtumas kəndi yaxınlığında İncəçayın Nəfəsli dərə vadisində yerləşən «Divlər sarayı» adlı mağaranı. Burada bir necə mağara vardır. Lakin Divlər sarayının nəzəri cəlb edən cəhətləri odur ki, onun ortasında ocaq yerinin nişanələri və qədim qara damlarda olduğu kimi yuxarı tərəfindən tüstü çıxmaq üçün bacası da vardır. Mağara hər cür təbii fəlakətdən və yırtıcı heyvanlardan qorunmaq üçün ən əlverişli ərazidə yerləşmişdir. Onun ətraflarında yaşayış üçün hər cür şərait [su, bol meyvə və s.] vardır. Məşhur Azıx mağarasında olduğu kimi təqribən milyon il əvvəlki zamanlarda bu mağarada da ibtidai insanlar yaşamışlar. Onların 50-60km. uzaqlıqda olan Azıx və Tağlar mağaralarında, qonşu Qubadlı və Füzuli rayonları ərazilərində olan mağaralarda yaşayan ibtidai insanlarla əlaqələri olmamış deyildi. Divlər sarayı mağarasının adını təşkil edən «div» və «saray» sözlərindən görünür ki, bu mağaranın yerləşdiyi ərazilərin ən qədim sakinləri türkdilli etnoslar olmuşlar.

Rayonun Diri dağı zonası, Ziyarət və Gordubaba dağ əraziləri də yaşayış üçün əlverişli olmuşdur. Bunların bitki örtüyü daha zəngindir. Dağın cənub ətəklərində, Arazboyu zolaqlarda, Qız qalası yaxınlığında hətta əsrimizin əvvəllərinə qədər də keçilməz meşəliklər olmuşdur. Diri dağının mərkəzi hissələri və quzey yamacları indi də bol əncir, saqqız ağacları, nar kolları, cır üzüm tənəkləri ilə doludur. İbtidai insanlar bu meyvələri toplamış, vəhşi heyvanları ovlamış, Araz çayından balıq tutub güzəran keçirmiş, dağın qayaları altında da yaşamışlar. Diri dağı zonasında Aşağı Xudayarlı, Yuxarı Xudayarlı, Xudafərin və s. kəndlərin ətraflarında torpaq örtüyündə qalın mədəni təbəqənin mövcudluğu buralarda ibtidai insanların yaşadığını və ətraf sahələrin landşaftından uzun müddət istifadə etdiyini göstərir. Ziyarət və Gordubaba dağlarının cənub yamaclarında tala-tala, tək-tək dağdağan və iynəyarpaqlı ağaclar ən uzaq dövrlərin nadir bitkilərdir və bunlar vaxtı ilə buralarda geniş əraziləri tutan qədim meşəliklərin qalıqlarıdır. Akademiklər İ.Mustafayev və H.Əliyev müəyyən etmişlər ki, Cəbrayıl ərazilərində yabanı buğda, çovdar və püstəyə indi də rast gəlinir.

Cəbrayıl əraziləri ibtidai alət hazırlamaq üçün çaxmaqdaşı, əhəng daşı, vulkanik şüşə [dəvəgözü] və s. xammal ilə zəngindir. Əlverişli şərait bu ərazinin təqribən eramızdan əvvəl III minilliklərdə məskunlaşmasına imkan vermişdir. Qədim yaşayış yerlərinin qalıqlarına Diri dağın ətəklərində, Araz Maşanlı, Şıxlar, Qışlaq və s. kəndlərin yaxınlıqlarında təsadüf edilir. Qışlaq kəndi yaxınlığında Nəbi yolu, Sulu dərə və Abbashaləngi adlanan yerlər arasında e.ə. I minilliyə aid yaşayış məskənlərinin qalıqları, Çələbilər kəndində qara damın xarabalıqları indiyəcən durur. Rayonun ərazilərindən tapılan enli, yaxud silindirik boğazlı yastı oturacaqlı, yarımşar formada kobud düzəldilmiş qırmızı və boz rəngli rəsmlərlə bəzədilmiş çoxlu gil qab parçaları qonşu Köndələnçayda [Füzuli rayonu] tapılan və arxeoloqlar tərəfindən eramızdan əvvəl III-VI minilliklərə aid edilən qab hissələrinin eynidir. Bu oxşarlığın özü göstərir ki, o dövrlərdə indiki Cəbrayıl və Füzuli rayonları ərazilərinin sakinləri arasında müəyyən təsərrüfat əlaqələri olmuşdur. Diri dağının mərkəzi hissəsində qədim insanların üzüm və s. meyvələri sıxıb şirəsini çıxarmaq üçün iri qayalar üzərində yonub düzəltdikləri nov və ovdanlar indiyə kimi qalır. Xalq arasında bunlara şirəvic, yaxud da şirə daşı deyilir. Buxarlanma az olsun deyə həmin vannalar dağın şimal və qərb hissələrində düzəldilmişdir ki, bu da onlarda uzun müddət su ehtiyatı da saxlamağa imkan vermişdir. Bu daş vannalar əsasən indiyə qədər xarabalıqları qalan Mazannənə kəndinin sakinləri tərəfindən düzəldilmişdir. Diri dağından tapılmış dəvəgözü daşından düzəldilmiş ox ucluqları göstərir ki, bu ərazilər bəşəriyyət tarixində ilk dəfə olaraq ən mühüm ixtiralardan biri olan ox və kamanın meydana çıxdığı və bununla da ovçuluğun müstəqil təsərrüfat sahəsinə çevrildiyi zonalardan biridir.

Şıxlar kəndi yaxınlığında «Şəhərcik» və «Qışlaq yeri» deyilən qədim kənd və qala xarabalıqları arxeoloqların eramızdan əvvəl II minilliyə aid etdikləri Qızılvəng [Naxçıvan MR] və Üzərliktəpə [Ağdam] yaşayış yeri kompleksləri ilə müqayisə edilə bilər. Bu yaşayış yerlərinin ətrafları düşmən hücumlarından müdafiə məqsədi ilə çiy kərpic və palçıqdan hörülmüş hasarla möhkəmləndirilmişdir. Yerli əhalinin deməsinə görə qədim zamanlarda Qışlaq yerində 700-ə qədər ev olmuşdur. Buradan tapılan çaxmaq daşından düzəldilmiş armudvari formalı yaxşı cilalanmış və ortası səliqə ilə deşilmiş toppuz başını, tuncdan hazırlanmış ox və nizə ucluqlarını, kildən düzəldilmiş muncuqvari əşyaları eramızdan əvvəl II minilliyə aid etmək olar. Qışlaq yerində müşahidə olunan külçə halında dəmir ərintiləri olan sahə metalişləmə emalatxanasının qalıqlarıdır. Oradan tapılan qədim rəsmlərlə bəzədilmiş xeyli miqdarda müxtəlif boyalı saxsı qab parçaları burada xüsusi dulusxana olduğunu göstərir. Şıxlar kəndinin sakinləri bu yeri indi də «Dulusxana»

adlandırırlar. Həmin kənddən tapılan və eramızdan əvvəl IV-III minilliklərə aid edilən çiriş küpə toxuma keramikanın ən gözəl nümunələrindən biridir. XIX əsrdə Şıxlar kəndində etnoqrafik müşahidələr aparan poleobotanik V.Petrov bu cür qabların hazırlanma texnikasını belə təsvir etmişdir: hazırlanacaq qab boyda parçadan torba tikilir, içərisi qumla möhkəm doldurulur, üzərinə qurumuş çiriş bitkisinin kökündən yoğrulub hazırlanmış xəmirpalçıq çəkilir, qabı günəşin altında qurudandan sonra torbadakı qum boşaldılır, içərisinə suvaq çəkilir, qab kürədə bişirilir, beləliklə də çiriş-küpə hazır olur. ( *V. Petrov Şıxlar kəndini Dağlıq Qarabağın kəndi kimi göstərmişdir, doğrudur, bu kənd Qarabağın dağlıq hissəsində yerləşir, amma o, Cəbrayıl qəzasının kəndi kimi verilməli idi. Görünür, o inzibati ərazi bölgüsünə əhəmiyyət verməmişdir— [M üəlliflər].*) Bu qabın içərisində yağ və s. məhsulları uzun müddət saxlamaq mümkündür. Çiriş-küpə üçün parçadan kisə tikilməsi prosesi və həmin kənddən tapılan daşdan düzəldilmiş əliyinin tağalağı toxuculuğun dulusçuluq sənətindən əvvəl meydana çıxması haqqında alimlərin fikrini bir daha təsdiq edir. Nəhayət, Şıxlar kəndindəki qədim mədəniyyət izləri göstərir ki, bu kəndin XVIII əsrin ikinci yarısında Qazax elindən gələn əhali tərəfindən salınması haqqında filologiya elmləri doktoru Ş.Cəmşidovun və başqa müəlliflərin irəli sürdükləri fikirlər yanlışdır. Doğrudur, o dövrdə Qazax elindən Qarabağa köçənlər olmuşdur. Lakin Şıxlar kəndinin tarixi daha qədimdir. Çünki Şıxlar tayfası Xəzərlərin nəslindən olan qazax tayfasının bir tirəsidir və onlar Azərbaycana VIII əsrdə qıpçaqların tərkibində gəlmişlər. Azərbaycanda 10-dan çox Şıxlar kəndinin olması da bununla əlaqədardır.

Arxeoloqlar müəyyən etmişlər ki, son neolit və eneolit dövrlərində və tunc dövrünün əvvəllərində ölənlərin qəbri üzərində torpaq, ağac və daşdan düzəldilmiş süni təpələr — kurqanlar yaratmaq adəti var idi. Cəbrayıl ərazilərində belə kurqanlara çox rast gəlinir. Bunlardan ən məşhurları Məscid təpəsi [Qalacıq kəndi], Canqulu və Qumtəpə kurqanları [Mahmudlu kəndi], habelə Şıxlar kəndi yaxınlığındakı kurqanlardır. Karxulu kəndi yaxınlığında on beş, Çaxmaq çayı sahillərində əllidən çox kurqan var. Kurqanların düzəldilməsinə əsas etibari ilə türkdilli xalqlarda təsadüf edilməsi göstərir ki, hələ eramızdan əvvəl III-II minilliklərdə Cəbrayıl ərazilərinin sakinləri türkdilli etnoslar idi. Araz Maşanlı kəndində Xələfli stansiyasına gedən yolun kənarında xalq arasında «Sirli təpə» adlanan yaşayış məntəqəsindən tapılan uzunluğu 64sm, diametri 25sm. olan səliqə ilə hazırlanmış və ucları da bir-birinə geydirilmiş saxsı tünglər Qafqaz Albaniyasının baş şəhəri Qəbələdə aşkar edilmiş tünglərin tam eynidir. Bunlar Azərbaycanda, o cümlədən Cəbrayıl ərazilərində hələ eramızdan əvvəl I əsrdə kəhriz sistemindən istifadə edilməsi haqqında alimlərin fikirlərini bir daha təsdiq edir. Sirli təpənin yaxınlığında sınıq bir küpün içindən tapılmış diametri 18 sm,

hündürlüyü 8 sm., dərinliyi 5 sm. olan ölçü qabı [çanaq] və küpün ətraflarındakı çoxlu qab hissələri buranın bir-biri ilə qohumluq əlaqələri olan nəsil icmasına məxsus yaşayış yeri olduğunu göstərir. Qalacıq, Tatar, Sirik və s. kəndlərin yaxınlıqlarında müdafiə məqsədi ilə, yaxud da mal-qara saxlamaq üçün palçıqdan istifadə etmədən sal daşları nizamla düzərək ucaldılan siklop tikintiləri [bunlara Təpəgöz qalaları deyilir] bütün Azərbaycanda olduğu kimi Cəbrayıl ərazilərində də eradan əvvəl II minilliyin sonu və I minilliyin əvvəllərində ibtidai icma qurluşunun dağılması və sinifli cəmiyyətə keçilməsini göstərir. Horovlu kəndi yaxınlığında aşkar edilmiş qədim yaşayış məskənindən tapılmış qara gildən düzəldilmiş diametri 30 sm. və 13 sm. olan naxışlı kuzələr, dolça, zoomorf [inək, keçi] rəsmli qablar eradan əvvəl III-II minilliklərə aiddir. Bütün bunlar və eləcə də rayonun başqa qədim yerlərindən tapılan tuncdan düzəldilmiş müxtəlif bəzək əşyaları, zınqırovlar, hərbi yaba, tunc toppuz, zoomorf [keçi] bıçaq, ox ucluqları, daş sırğa, müxtəlif formalı tayqulplu küplər, bəstilər süzgəcli kuzələr, iri təsərrüfat küpləri həndəsi insan və heyvan rəsmləri ilə bəzədilmiş boyalı qablar, bəzəkli xəncərlər, dəmir təbərzin, qılınclar, nizələr, dən daşları, kirkirələr, daş həvəngdəstələr ağac və saxsı nehrələr bu ərazilərin sakinlərinin hələ eramızdan əvvəl III-II minilliklərdə yüksək mədəniyyətə malik olmalarının canlı şahidləridir. Bunların qonşu Dolanlar kəndində qəbirdən tapılan tunc bəzək şeyləri, ox ucluqları, xəncərlər və s. əşyalara bənzəmələri göstərir ki, tunc dövrünün sonları və dəmir dövrünün əvvəllərində bu ərazilərin sakinləri arasında təsərrüfat və mədəni əlaqələr var idi.

Cəbrayıl əraziləri e. ə. VII əsrdə Mil düzündən başlayaraq Urmiya gölünün şimalınadək ərazilərdə mövcud olmuş çarlığın, e. ə. VII—IV əsrlərdə Midiya dövlətinin və Əhəməni imperiyasının, e. ə. IV—III əsrlərdən isə Qafqaz Albaniyasının tərkibində olmuşdur. O dövrlərdə Cəbrayıl əraziləri Pazkank, sonralar Əhristan və nəhayət Dizaq adlanan mahalın tərkibinə daxil idi. Əhristan mahalı Qarabağın, o cümlədən Cəbrayılın Dağətəyi ərazilərini və Mil düzünün bir hissəsini, Dizaq mahalı isə Quruçay [Füzuli] Araz və Həkəri [Zəngilan] çayları arasındakı zonanı və Cəbrayılın Arazboyu hissəsini əhatə edirdi.

Erməni katalikosu M. Barxudaryan [XIX əsr] Dizaq mahalının XIX əsrdə Cəbrayıl adlandırılmasını qeyd etsə də heç bir sübut gətirmədən boş yerə iddia edir ki, Cəbrayıldan Araz çayına qədər torpaqlarda, habelə Arazın sol sahillərində keçmişdə erməni kəndləri, qəbristanlıqları və kilsələri olmuş, onlar müsəlmanlar [azərbaycanlılar—red.] tərəfindən xarabalığa çevrilmiş, bəzilərində də özləri məskunlaşmışlar. Katalikos daha sonra yazır ki, Xudafərin körpülərindən Diri dağının ətəklərinə qədər olan ərazilərdə də guya erməni kəndlərinin,

qəbirstanlığının xarabalıqları vardır və müsəlmanlar buradakı erməni kilsəsini də öz ibadətgahlarına çevirib adını da Mazannənə qoymuşlar. Müəllifin fikrincə, Çələbilər kəndi də keçmiş zamanlarda erməni məskəni olmuşdur. O, Hacı Qaramanın adını erməniləşdirib «Karam» [əslinə baxılsa Kərəmdir—red] şəklində yazaraq iddia edir ki, onun məzarı olan yerdə keçmişdə guya kilsə olmuş, müsəlmanlar onu söküb yerini pirə çevirmişlər. M. Barxudaryanın fikrincə Şahvələdli və Əfəndilər kəndindən cəmisi 3 kilometr aralı olan Ağoğlan piri də qabaqlarda ermənilərin ibadətgahı olub, ermənicə də Spitak tığa [Ağ oğlan] adlanmışdır. Guya müsəlmanlar onun adını dəyişib Ağoğlan qoyaraq öz ibadətgahına çevirmişlər. Nəhayət, katalikos iddia edir ki, Dağtumas kəndi yaxınlığındakı Tumas dağının başında olan istehkam da ermənilər tərəfindən inşa edilmişdir və guya burada kiçik bir kilsə də olmuşdur, müsəlmanlar onu da uçurmuşlar. Göründüyü kimi M. Barxudaryan Cəbrayıl ərazilərinin çox hissəsini qədim erməni məskənləri hesab etmiş, üstəlik də azərbaycanlıları qəsbkar və talançı kimi qələmə vermişdir. Katalikos istifadə etdiyi mənbələri göstərməsə də məlumdur ki, irəli sürdüyü bu başdan-başa cəfəng fikirlər onun «Arsax» adlı kitabını yazdığı 1895-ci il üçün təzə deyildi. Bunlar hələ VII əsr erməni müəllifi A. Şirakatsi tərəfindən uydurulmuşdu.

Görkəmli albanşünas Fəridə Məmmədova çox yerində qeyd edir ki, qədim erməni müəllifləri Əhristanın, o cümlədən Dizaq mahalının Ermənistanın tərkib hissəsi olduğunu söyləyərkən öz fikirlərini əsaslandırmaq üçün sübut gətirmir Çünki sübut yoxdur, ancaq iddia edirlər. M. Barxudaryan da məhz bu yol ilə getmişdir. Onun fikirlərinin tamamilə əsassız olmasını ondan görmək olar ki, hələ VII—VIII əsrlərdə yaşamış alban tarixçisi Musa Kalanqatlı Əhristanda ermənilərin yaşaması haqqında heç bir məlumat verməmişdir. Əhristanın, o cümlədən Cəbrayılın da daxil olduğu Dizaq mahalının ən qədim zamanlardan etibarən əsasən türk dilli tayfaların məskənləri olmasını hər şeydən əvvəl tarixin şahidləri olan toponim və etnonimlər təsdiq edir. Belə ki, Əhristanın erməni mənbələrində göstərilən adı Pazkank türkdilli peceneq (paçana) tayfasının adının dəyişilmiş formasıdır. Peceneq sözünə XI əsrin görkəmli türk filoloqu Mahmud Qaşqarinin «Divani lüğət-it-türk» adlı məşhur əsərində «beceneq» şəklində rast gəlinir. Əhristanın qədim adı Arsaq da türk mənşəli söz olub saklar ölkəsi, alınmaz yer mənalarını verir. Cəbrayıldan tutmuş Hadruta, oradan Ağcabədiyə qədər ərazilərin keçmiş adı olan Vərəndə mahalının adı da qədim zamanlarda Quruçay və Qarqarçay [Füzuli] ətraflarında və Xankəndi şəhəri ərazisində yaşamış türkdilli Vərənd tayfasının adından götürülmüşdür. Dağlıq Qarabağda olan bütün

erməni kəndlərini hələ demirik, təkcə Cəbrayıl ilə qonşu olan Hadrut rayonuna məxsus Cilan, Quşçular, Dolanlar, Bünyadlı, Daşbaşı, Mülkədərə və Ağcakənd adlı erməni kəndlərinin adları da türk - azərbaycan sözləridir. Dolanlar kəndinin əsasını qoyan dolan tayfası erməni yox, tatar-monqol mənşəli olmuşdur. Dolanlar kəndinə orta əsrlərdə Ərgünəş də deyilmişdir. Bünyadlı kəndinin adı farsca— Azərbaycanca özül, kök, bina mənalarını verən «bünyad» sözündəndir. Xubyarlı kəndinin şimalında Bünyadlı kəndinin üç yüz metrliyində olan XIV—XV əsrlərə aid azərbaycanlı qəbirstanlığı [xalq arasında türk qəbirstanlığı adlanır] təsdiq edir ki, bu yerlərin ən qədim sakinləri azərbaycanlılar olmuşdur. Cəbrayıldan cəmisi 4 km aralı olan Arakel kəndinin adı da «ara» və «kül» sözlərindən yaranaraq əvvəlcə Arakül olmuş, sonralar Arakel, nəhayət Hərəkül şəkillərinə düşmüşdür. M. Barxudaryanın özünün etiraf etdiyi kimi Bünyadlı və Hərəkül kəndlərinin camaatı 1840-cı ildə Cənubi Azərbaycanın Qaradağ əyalətindən və Qafan rayonunun Savakar kəndindən köçüb gəlmədilər. Bünyadlı və Hərəkül kəndlərinin ərazilərində olan Qaracallılar bağı, Eynalı yeri, Mollalı bağı və s. qədim yer adları indiyəcən qalır və ermənilər də bu sözləri işlədirlər. Hazırda Əfəndilər kəndi yaxınlığında ermənilərin yaşadığı Quşçular kəndinin əsasını da Quşan adlı türk tayfası qoymuş, onlar köçüb başqa ərazilərə getdikdən sonra İranın Qaradağ əyalətindən gələn ermənilər həmin kənddə məskunlaşmışlar. Hadrut kəndinin özünün adı da farsca ha-du-rut sözlərindən olub «iki çay arası» deməkdir.

M. Barxudaryanın Arazboyu əraziləri qədim erməni yurdları hesab etməsi də sərsəmlikdən başqa bir şey deyil. Bu yerlərdə erməni mədəniyyəti ilə bağlı kiçik də olsa bir nişanəyə belə rast gəlinmir. Əksinə burada olan Xudayarlı, Keçəlməmmədli, Usublu, Alıkeyxalı, Maşanlı, Soltanlı, Sarıcallı, Əmirvarlı, Hüseynbəyli, Şükürbəyli, Şıxalıağalı, Mehdili, Mərcanlı, Maralyan və s. kəndlərin adları sübut edir ki, bu torpaqlar qədim zamanlardan onların öz dədə-baba yurdları olmuşdur. Keçəlməmmədli kəndi əvvəllər bir neçə oymaqdan ibarət olmuş, sonralar həmin kənddə birləşmişlər. Mehdili Çaxırlı, Cocuq Mərcanlı və Usublu kəndləri keçmiş zamanlarda Araz çayına çox yaxın olublar. Çayın daşması və İran tərəfdən basqınlara məruz qalmaları onları indiki yerlərinə köçməyə məcbur etmişdir. Sonralar Usublu kəndi [15—20 ev] Cocuq Mərcanlı kəndi ilə, Hüseynbəyli və Yuxarı Əmirvarlı kəndləri isə Əmirvarlı kəndi ilə birləşmişlər. Katalikosun Tumas və Çələbilər kəndlərindən tutmuş Xudafərin körpülərinə qədər ərazilərin ermənilərə məxsus olması və Mazannənə məqbərəsini erməni abidəsi hesab etməsi də tamamilə boş söhbətdir. Diri dağının adı Şumer-türk sözü olan və

diri, dirilik, həyat mənalarını verən tir, tar, tiri sözlərindən yaranmışdır. Diri sözünü Qafqaz Albaniyasının bir əyalətinin adı kimi Alban tarixçisi Musa Kalanqatlı da [VII—VIII əsrlər] işlətmişdir. Diri dağı səmtində olan Tiri kəndinin [Zəngilan] adı da diri, tiri sözlərindən əmələ gəlmişdir. Mazannənə abidəsinin adının azərbaycanlılar tərəfindən dəyişdirilib bu şəkilə salınması haqqında fikir də uydurmadır. Professor M. Seyidovun verdiyi məlumata görə nənə [nanə] qədim türkdilli tayfalarda allahlar anasının adı olmuşdur. Professor Z. İ. Yampolski Mazannanə abidəsinin keçmiş xristian abidəsi olması haqqında əfsanəni qəti rədd edərək göstərir ki, o sinfi cəmiyyətə keçid dövründə qadınların ictimai istehsalda birinci dərəcəli rol oynadığı Madərşahlıq zamanının yadigarıdır və sonralar İslam dininə uyğunlaşdırılaraq «ocaq» hesab edilmişdir. həmin abidənin yaxınlığında indiyə qədər nişanələri qalan köhnə yaşayış məskəni Mazannanə kəndi adlanmışdır. Bu kəndin ətrafında qədim qəbirstanlıqda Əziz bin Seyyid Əl-Məhəmməd sözləri olan qəbrin sinə daşında və başqa qəbirlərin üstündə yazılan hicri 750, 760 və 809-cu illər təsdiq edir ki, bu yerlərin ən qədim sakinləri azərbaycanlılar olmuşlar. Yerli əhali Hasanlı kəndi yaxınlığındakı Mərmərnənə abidəsində dəfn olunan qadını Mazannanənin anası hesab edir. Professor İ. Petruşevskinin fikrincə Cəbrayılın yaxınlığında Ağoğlan deyilən və M. Barxudaryanın ermənicə «Spitak tığa» [Ağ oğlan] adlandırdığı kiçik qəbirstanlıq da xaçpərəstlik deyil, bütpərəstlik dövründən qalma abidədir. Mənbələrdə göstərilir ki, burada qeyri-bərabər döyüşdə öldürülən gözəl bir oğlan [ağ oğlan sözü də gözəl oğlan mənasında işlənmişdir] dəfn edilmişdir. İslam dini meydana gəldikdən sonra Ağoğlan abidəsi də müsəlman ziyarətgahına çevrilmişdir. Ağoğlan piri Şahvələdli, Əfəndilər və Çərəkən kəndlərindən təxminən 3 km məsafədə olduğu halda M. Barxudaryan onu erməni abidəsi kimi vermək məqsədi ilə yazır ki, bu abidə ermənilərin yaşadığı Banazur kəndinin yaxınlığındadır. Halbuki, həmin pir bu kənddən təxminən 8 km aralıdır. Ağoğlan kimi sonralardan pirə çevrilmiş yerlərə Cəbrayıl ərazilərində çox rast gəlinir. Məsələn, Cəbrayılın cənubunda Qurbantəpə adlanan pir Qafqaz Albaniyası əhalisinin hələ Günəşə, Aya sitayiş etdikləri ilk tunc dövrünün sonlarının nişanəsidir. Yerli əhali təzə il yaxşı gəlsin və məhsul bolluğu olsun deyə bu təpədə qurban kəsir, bişirdikləri xörəyin suyundan gündoğan tərəfə səpir, sonra xörəyi yeyir və Günəşə sitayiş etməklə kütləvi şadlıq edirdilər. Sonralar bu köhnə inam saxlanıldı, hətta XIX əsrin ortalarından başlayaraq Cəbrayıl qəzasının başqa yerlərindən köçüb gələn hacılı tayfasının bir hissəsi bu pirin yaxınlığında məskunlaşdı, onların saldıqları kənd Qurbantəpə kəndi adlandırıldı. Cəbrayıldan təqribən 25 km şimalda Ziyarat dağında olan pir də belə

yaranmışdır. Rəvayətə görə orada bir sərkərdənin evlənmək təklifini rədd etdiyinə görə öldürülən bir qız dəfn edilmişdir. Professor Z. Yampolski həmin qəbir-abidəni xaçpərəstlikdən qabaqkı dövrlərə aid edir. Professor Z. Göyüşovun fikrincə bu abidə əvvəlcə alban kahinlərinin ibadətgahı olmuş, sonralar müsəlmanların ziyarətgahına — pirə çevrilmişdir. Ziyarat dağı ətraflarında yaşayan ermənilər də həmin pirin yerləşdiyi dağın adına azərbaycanlılar kimi Ziyarat dağı deyir, oradakı piri də müsəlman Ziyarətgahı hesab edirlər.

M. Barxudaryanın Dağtumas kəndi yaxınlığındakı dağda olan Tumas- ata abidəsini erməni abidəsi hesab etməsi də əsassızdır. O da bütpərəstlik dövrünün yadigarıdır və Dağtumas kəndinin sakinləri Tumas-atanı öz əcdadları hesab edirlər. Çələbilər kəndinin, oradakı məscidin və hacı Qaramanın məzarının erməniləşdirilməsi də cəfəngiyyatdan başqa bir şey deyil. Cələbilərin [Cələbi— Cələb sözü dini və dünyəvi termin olub hakimlərin, şahzadələrin ləqəbi kimi işlənib, Allahı sevən, yazıcı, şair, bilici mənalarını verir] sünnü təriqətinin nümayəndələri kimi XIII əsrin birinci yarısında — Monqol yürüşləri dövründə Kiçik Asiyadan [əsasən Türkiyə ərazilərindən] məşhur Qaraman tayfasının [Qaraqoyunlu hökmdarı Qara Yusifin sərkərdəsi Qaraman, Qarabağ hakimi Əmir Yarəhməd, I Şah Abbasın Şamaxıya hakim təyin etdiyi Zülfüqar xan da Qaraman tayfasından idilər] tərkibində Azərbaycana kəlmələri tarixdən məlumdur. Çələbilərin adlı-sanlı başçılarından olan hacı Qaraman XIII—XIV əsrlərdə Cəbrayıl ərazisinə gəlmiş, əvvəlcə Niftalılar və Nüsus kəndləri arasındakı yerdə özünə məskən salmış, sonralar Çələbilər kəndinə köçmüşdür. Ona görə də hacı Qaramanın dəfn edildiyi məzar sonralar «ocaq» kimi müqəddəsləşdirilmişdir. Çələbilər kəndindəki məscid isə Məhəmməd ibn hacı Qaraman Əhmədli tərəfindən hicri 1088-ci ildə [Miladi 1678] inşa edilmişdir. Xalq yazıcısı Əli Vəliyev hacı Qaramanın adını nədənsə Qaraiman [Qara İman], qəbri isə Qaraimanlı piri formasında göstərmişdir ki, bu da səhvdir. Hacı Qaramanın adı məşhur oğuz türk tayfasından olan Qaraman tayfasının adından götürülmüşdür. 1883-cü ilə aid siyahıyaalma sənədlərində Çələbilər kəndində qeydə alınmış 25 yaşlı Qaraman adlı bir gənc də olmuşdur ki, onun da hacı Qaramanın addısı olması şübhəsizdir. Görkəmli şərqşünas akademik V. Bartold «İslam ensiklopediyası»na yazdığı «Çələbi» adlı məqaləsində nədənsə Çələbilər kəndinin Ermənistan ərazisində olmasını göstərmişdir ki, bunun ya yanlış olması tədqiqatçı Ə. Məmmədov tərəfindən nəzərə çatdırılmışdır. M. Barxudaryan fikirləri XIX əsrin axırlarında erməni burjuaziyasının uydurduğu «Böyük Ermənistan» dövləti yaratmaq ideyasına xidmət edirdi.

Barxudaryan hələ «insaflı» imiş. O, Cəbrayılın ancaq bir hissəsini erməni ərazisi hesab edirdisə, «Ermənistanın tarixi» kitabına [Yerevan, 1986] tərtib edilən xəritələrdə və 1988-ci ildə Yerevanda buraxılan xəritədə Cəbrayıl rayonunun bütün ərazisi Ermənistanın tərkibinə salınmışdır. Əlbəttə, iştah yaxşı şeydir, amma yeyəndə biləsən ki, nəyi yeyirsən.

III əsrin ortalarında Qafqaz Albaniyası, o cümlədən Cəbrayıl ərazilərinin daxil olduğu Əhristan vilayətinin Dizaq mahalı sasanilər tərəfindən istila edildi. V əsrdə ardı-arası kəsilməyən xalq həyəcanlarından qorxuya düşən sasanilər nəhayət, Albaniyaya müstəqillik verdilər. Bundan sonra ölkənin təsərrüfat həyatında dirçəliş başladı. Süni suvarma əkinçiliyi, heyvandarlıq, ipəkçilik inkişaf etdi. Bu dövrdə Abşeron yarımadasında olduğu kimi Maralyan kəndi yaxınlığında da əl üsulu ilə dayaz quyular qazmaqla neft çıxarılırdı. Bunu rayonun ərazilərindən tapılmış içərisində neft yandırılan müxtəlif formalı çoxlu gil çıraqlar təsdiq edir. Yazılı mənbələrdə XIX əsrin sonlarına qədər bu quyulardan neft çıxarılması haqqında məlumatlar var. 1925-ci ildə həmin quyularda yenidən kəşfiyyat işləri aparılmış və nədənsə quyuların ağzı bağlanmışdır.

VII əsrin ortalarında Azərbaycan, o cümlədən Qarabağ Əməvilər xilafətinin tərkibinə qatıldı. Cəbrayıl əraziləri inzibati cəhətdən xilafətin üçüncü əmirliyinin Aran vilayətinə [Mərkəzi Bərdə şəhəri] daxil idi. Akademik Z. Bünyadovun fikrincə Azərbaycan xalqının qəhrəman oğlu Babəkin özünə mərkəz seçdiyi Bəzz qalası Ərdəbilin 145 kilometr şimal-qərbində Xudafərin körpüsünün və Diri dağının yaxınlığında olmuşdur. Ona görə də Babəkin dövründə Qarabağ ərəb istilaçılarına qarşı mübarizənin dayaq məntəqələrindən birinə çevrilmişdi. Bərdə yaxınlığındakı döyüşdə üsyançılar ərəb qoşunlarını əzib bütün Aran vilayətini istilaçılardan azad etdikdən sonra Babək bu vilayətin idarə edilməsini silahdaşı Rüstəmə tapşırmışdı. Babək erməni feodallarının xəyanəti nəticəsində öldürülsə də onun başçılıq etdiyi Xürrəmilər hərəkatı xilafətin dağılmasını və Azərbaycan xalqının ərəb zülmündən xilas olmasını sürətləndirdi. Babəkin tərəfdarları Azərbaycanın hər tərəfinə yayılmışdı. Horovlu [Cəbrayıl], Xurama və Sobu kəndləri [Zəngilan] sakinlərinin ulu əcdadları da xürrəmilərdən olmuşlar. Bu kəndlərin camaatının bəzi keçmiş adət-ənənələri xürrəmilərdə olduğu kimi idi. Keçmişdə onlar da xəlifə Öməri [Azərbaycan onun vaxtında — 639-cu ildə istila edilmişdi] ikrahla yad edir, təmbəkini «Ömərin təzəyi» adlandıraraq papiros çəkmir, kişilər uzun bığ saxlayır və ucunu vurmur, ildə bir gün göy rəngli keçi kəsir, ətindən xörək bişirib yeyir, şərab içir, zurna çalmaqla şənlik edirdilər. Sobu kəndinin adının farsca «bığlı» mənasını verən «Sebilu» sözündən yaranması,

Horovlu və Xurama sözlərindəki «hor» və «Xur» [Xür — farsca Günəş, atəş, xürrəm — aydın, işıqlı, şad] ünsürlərinin Xürrəmi [şad] sözündəki «xür» ilə eyni olması deyilən fikirləri bir daha təsdiq edir.

971 — 1086-cı illərdə Qarabağ Şəddadilər dövlətinin [Gəncə] tərkibində idi. XI əsrin ortalarında Orta Asiyadan çıxmış türk köçəri tayfaları Səlcuqlar Qarabağı Şəddadilərdən alıb öz hakimiyyəti altına keçirdilər. Bütün torpaqlar Səlcuq əyanları arasında bölündü, vergilər artırıldı. XII əsrin əvvəllərində Səlcuq dövləti parcalandıqdan sonra Qarabağ Azərbaycan Atabəylər dövlətinin tərkibinə daxil edildi. Səlcuqlar zamanında tənəzzülə uğramış təsərrüfat həyatında canlanma başladı. Taxılçılıq, bağçılıq, sənətkarlıq, xalçaçılıq, Arazboyu torpaqlarda çəltikçilik inkişaf etdi, qoyun və qaramal sürüləri, at ilxıları meydana çıxdı.

XIII əsrin 30-cu illərində Azərbaycan, o cümlədən Qarabağ monqollar tərəfindən tutuldu. Monqol əyanları heyvandarlıq üçün hər cür şəraiti olan Qarabağdan qışlaq yeri kimi istifadə edirdilər. Bu ərazilərdən monqolların xəzinəsinə Azərbaycanın başqa əyalətlərindən çox gəlir daxil olurdu. Cəbrayılda tapılmış tatar-monqol hakimləri Abaqa xan [1264— 1282], Şeyx Üveys [1358—1374] və Əbu Səid Bahadırın [1316—1335] adlarına Təbrizdə və Urmiyədə kəsilmiş sikkələr göstərir ki, Azərbaycanın, o cümlədən Qarabağın Yaxın və Orta Şərq ölkələri ilə ticarət əlaqələri Cəbrayıl ərazilərini də əhatə edirdi. Bu ərazilərdə olan Tatar kəndinin, İncəçay və İncəçölünçayın adları tatar-monqol mənşəli sözlərdir.

XIV əsrin sonlarında eyni vaxtda iki istilaçı — Qızıl Orda xanı Toxtamış, Orta Asiya hakimi Teymurləng böyük qüvvə ilə Azərbaycana basqın etdilər. Teymurləngin oğlu Miranşah öz qoşununda xidmət edən on minlərlə türkdilli köçəriləri Qarabağda yerləşdirdi. Teymurləngin ölümündən [1401] sonra onun dövləti dağıldı. 1412-ci ildə Qarabağ Qaraqoyunlu, XV əsrin ikinci yarısında Ağqoyunlu dövlətlərinin hakimiyyəti altına keçdi.

IV—VII və XI—XII əsrlərdə Azərbaycana gələn çoxlu türk tayfalarının əksəriyyəti əsasən Aran əyalətində, Kür-Araz ovalığında yerləşmişdilər. Onlar yerli türk tayfaları ilə qaynayıb qarışdı. Professor T. Hacıyevin verdiyi məlumata görə Cəbrayıl şivələrində süzmə, tuşax, dağar, surquşlamaq və s. sözlər o dövrdə gəlmə türk tayfalarından qalma sözlərdir. Bu sözlərdən bəziləri Azərbaycanın başqa regionlarında da işlənir.

1502-ci ildə görkəmli sərkərdə və siyasi xadim I Şah İsmayılın başçılığı altında Azərbaycanda Səfəvilər dövləti yarandı. Cəbrayıl ərazilərinin daxil olduğu Dizaq mahalı Mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyinə daxil edildi. XVI əsrin 40-cı

illərindən I Şah İsmayılın oğlu I Şah Təhmasib əsli Qacar tayfasından olan Şahverdi Ziyad oğlunu Qarabağın ilk bəylərbəyisi təyin etdi və bundan sonra bəylərbəyi vəzifəsi Ziyadoğullarının əlində oldu. Xudafərin körpülərinə qədər bütün torpaqlar Ziyad oğullarına məxsus idi. Azərbaycan Səfəvi dövləti yarandıqdan sonra məhsuldar qüvvələr inkişaf etməyə başladı. XVI əsrin 30—50-ci illərindən etibarən Qarabağ İranla Türkiyə arasında döyüş meydanına çevrildi. Səfəvi hökmdarı I Şah Abbas Türkiyənin hücumları üçün şərait olmasın deyə Arazboyunda yaşayan əhalinin çox hissəsini İranın mərkəzi əyalətlərinə köçürdü. Qarabağda, o cümlədən Cəbrayılda Əhmədli tayfasına daxil olan Şahvəlli, Qalacıq, Dəmşalaq, Hacı İsmayıllı, Gödəklər, Quşçular və s. kəndlərin camaatı və Çaxarlı tayfası doğma yurdlarını tərk etməkdən boyun qaçırıb inadlı müqavimət göstərdilər. Şahın əmri ilə onların çoxu məhv edildi, qalanları isə I Şah Abbası müdafiə edən şahsevənlərin tərəfinə keçməyə məcbur oldular.

XVIII əsrin 30-cu illərində Əfşar tayfasından məşhur sərkərdə Nadir İran taxt-tacına sahib olmaq uğrunda mübarizəyə başladı. Qarabağ bəylərbəyliyi Nadiri müdafiə etmək əvəzinə ona qarşı çıxdı. Ona görə də Nadir hakimiyyəti ələ keçirdikdən sonra Ziyadoğullarını Qarabağın hakimliyindən uzaqlaşdırdı, qarabağlılarla çox sərt rəftar etdi. Bir çox tayfalar, o cümlədən Cəbrayıl əhalisinin bir hissəsi Xorasan əyalətinə köçürüldü. 1736—1738-ci illərdə dəhşətli aclıq nəticəsində Qarabağ, Şəki və Şirvanda başlanan üsyanlar amansızcasına yatırıldı.

# ORTA ƏSRLƏRDƏ MƏDƏNİYYƏT

## Memarlıq abidələri.

Cəbrayıl ərazisində Azərbaycan memarlıq sənəti tarixini bəzəyən bir çox monumental abidələr, körpülər, qalalar, türbələr, kümbəzlər və məscidlər var.

Araz çayı üzərində ucalan iki möhtəşəm Xudafərin körpüsü Azərbaycan memarlığı tarixinə qızıl hərflərlə yazılan sənət əsərləridir. Körpülərdən on bir aşırımlının [xalq arasında ona «Baş Xudafərin körpüsü» deyilir] uzunluğu 130 metr, eni 6 metr, hündürlüyü 12 metr, on beş aşırımlının isə uzunluğu 200 metr, eni 4,5 metr, hündürlüyü 10 metrdir. Körpülər bir-birindən 800 metr aralıdır. Bu əzəmətli abidələrin memarlıq sənətində yeri haqqında dünyanın görkəmli alimləri, Azərbaycan sənətşünasları Ə. Salamzadə, K. Məmmədzadə və başqaları qiymətli fikirlər söyləmişlər. Lakin körpülərin nə vaxt inşa edilməsi haqqında yekdil fikir yoxdur. On bir aşırımlı körpünün daha qədim olması, onun Əhəməni imperiyası zamanında [e. ə. VI—III əsrlər] ağacdan tikilməsi, Eldəgizlər dövləti zamanında [XII əsr] daş və kərpiclə üzlənməsi güman edilir. On beş aşırımlı körpünün isə İran şahı Böyük Kirin dövründə [e. ə. 558— 529] ağacdan müvəqqəti qurğu kimi inşa edilməsi, Elxanilər dövləti zamanında [XIII əsr] daş və kərpiclə üzlənməsi haqqında mülahizə yürüdülür. Onun XI əsrdə tikilməsi barədə fikir söyləyənlər də var. İran tarixçisi Həmdullah Qəzvini [XIII—XIV əsrlər] isə yazır ki, Xudafərin körpüsü Həzrət Rəsul Allahın [Məhəmməd Peyğəmbərin-red.] yaxın adamlarından Bəkr İbn Abdulla hicri 15-ci ildə [Miladi 636-cı il] inşa etdirmişdir. Bəzilərinin fikrincə həmin şəxs körpünü tikdirməmiş, ancaq təmir etdirmişdir. Ərəb tarixçisi İbn Əl-Əsirin [XIII əsr] fikrincə körpü VII əsrdən qabaqkı dövrlərdə tikilmişdir. Bəzi müəlliflər isə körpülərin konkret olaraq hansından danışdıqlarını demir, ancaq göstərirlər ki, Xudafərin körpüsünü Makedoniyalı İsgəndər, yaxud da Roma sərkərdəsi Pompey tikdirmişdir. Körpünün 1027-ci ildə Şəddadi hökmdarı I Fəzi və İran hökmdarı I Şah Abbas tərəfindən inşa edilməsini iddia edənlər də vardır. Bəzi müəlliflər körpülərin səmtini də dolaşıq salmışlar. XIX əsrdə yaşamış rus şairi N. A. Nefedyev Roma şairi Vergilinin [e. ə, 70— 19-cu illər] «Ah, körpüsü təhqir edilən Araz» və «Araz belində körpünü saxlamaq istəmir» deyə tərənnüm etdiyi körpünü Culfa körpüsü hesab etmişdir. Tədqiqatçı N. Kərimov isə Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvinin [XIV—XV əsrlər] Naxçıvanın yaxınlığında «Diyamülk» adlandırdığı körpünü Xudafərin körpüsü kimi yazıb onu Culfa yaxınlığındakı abidə kimi göstərmişdir.

Körpülərin nə vaxt inşa edilməsi yəqin ki, gec-tez dəqiq müəyyən ediləcəkdir.

Lakin bəzi mülahizələr söyləmək yerinə düşər. Əvvəla, üstündən saysız-hesabsız qoşun və karvanların keçəcəyini bilən memar coşqun bir çay üzərində tikəcəyi körpünü heç də ağacdan müvəqqəti qurğu kimi inşa etməzdi. Odur ki, körpülərin əvvəlcə ağacdan tikilmələri, təqribən 1300 il keçdikdən sonra onların daş və kərpiclə üzlənmələri fikri inandırıcı görünmür. On bir aşırımlı körpünün eramızdan əvvəlki zamanlarda inşa edilməsi haqqında gümanlar diqqəti daha çox cəlb edir. Çünki alimlərin qeyd etdikləri kimi həmin körpünün tikinti texnikasında Roma memarlığının təsiri duyulur. Ona görə də Vergilinin dedayi körpünün məhz Xudafərin körpüsü olması inandırıcıdır. Çünki Vergilinin zamanında Culfa körpüsü yox idi və o, XII—XIII əsrlərdə tikilmişdar. Belə görünür ki, böyük şair Vergili Roma qoşunlarının Qafqaz yürüşləri zamanı bu ərazilərdə olmuş, ticarət, gediş-gəliş və s. bu kimi xeyirxah məqsədlər üçün tikilmiş Xudafərin körpüsündən ölkələri, xalqları talan etmək üçün saysız-hesabsız qoşunların keçməsini bir şair gözü ilə görmüş, şahidi olduğu bu acı mənzərəni bədai tərzdə «körpünün təhqir edilməsi» və «Arazın belində körpünü saxlamaq istəməməsi» kimi tərənnüm etmişdar. Bakuvinin adını çəkdiyi körpü isə Xudafərin deyil, Culfa körpüsüdür. Çünki görkəmli səyyah Naxçıvan və Culfadan çox uzaqda yerləşən Xudafərin körpülərinin heç də bu şəhərlərin yaxınlığında olmasını göstərməzdi. Bakuvinin yaşadığı dövrdə Xudafərin körpüləri «Diya-mülk» deyil, məhz Xudafərin adı ilə məşhur idilər. Tarix elmlər namizədi Ə. Behbudov güman edir ki, Xudafərin həmin körpüləri inşa etdirən şəxsin adıdır. Bu barədə tarixi mənbələrdə heç bir məlumat yoxdur. Həmdullah Qəzvini körpülərin adını «Xuda-Afərin» şəklində yazmışdır ki, bu da farsca «allah tərəfindən yaradılmış», «allaha mərhəba» mənalarını verir. Tədqiqatçıların fikrincə hər iki körpünün dayaqları insan əli ilə salınmış bünövrə üzərində deyil, çayın ortasında olan təbii sal daşlar üzərində möhkəmləndirildiyini onlara «allah tərəfindən yaradılan» mənasında Xuda-Afərin [Xudafərin] adı verilmişdar. Bu fikir daha inandırıcıdır. Böyük Azərbaycan şairi S. Vurğun da Xudafərin körpülərinə həsr etdayi «Körpünün həsrəti» şerində

Xilqətdən yaranmış onun təməli,
Dayanmış qayalar, dağlar üstündə

misraları ilə bu mətləbə işarə etmişdir. Xudafərin körpüləri Azərbaycan inşaatçılarının müstəsna mühəndislik qabiliyyətlərinin ən gözəl nümunələrindən biridir. Bu körpülər Hindistandan tutmuş Yaxın və Orta Şərq ölkələri ilə Şimali Azərbaycan, bütün Zaqafqaziya və Dərbənd vasitəsilə Rusiya və Qərbi Avropa ölkələri arasında ticarət əlaqələrinin inkişafı, Azərbaycanın cənubu ilə şimalının iqtisadi və mədəni əlaqələri üçün olduqca böyük əhəmiyyəti olmuşdur. Xudafərin

körpüləri əsrlər boyu yadellilərin Şimali Azərbaycana basqınları üçün də şərait yaratmışdır. İndi hər dəfə həmin körpülərə baxanda istər-istəməz S. Vurğunun «Fəqət nə gedən var, nə də bir gələn»: misrasında tərənnüm edilən həsrət — vahid bir xalqın iki yerə bölünməsi dərdi yada düşür...



*Rayon tarixi-mədəniyyət abidələrinin xəritəsi.*

Diri dağında yerli əhalinin «Qız qalası» adlandırdığı və tədqiqatçıların XII—XIV əsrlərə aid etdikləri abidə orta əsr memarlığının gözəl nümunələrindəndir. Qaladan baxarkən Diri dağından Naxçıvan istiqamətinə qədər ərazilər və İranın Arazboyu hissəsi tam aydın görünür. Qaladan müşahidə və müdafiə məntəqəsi kimi istifadə olunmuşdur. Tey dağının [Sirik kəndi] zirvəsində V—VI əsrlərin yadigarı olan Qala bürcü [sahəsi 500 kv. m] inşa texnikasına görə Çıraqtala qalası [Dəvəçi] ilə müqayisə edilə bilər. Qala çaxmaq ovuntusunun əhənglə qarışıq məhlulundan istifadə edilərək daşla tikilmiş, bürcü palıd ağacının özəyi üzərində qurulmuşdur. Qalaya ancaq bir tərəfdən sıldırım qayalıqlarla çıxmaq olar. Qaladan müşahidə və həm də düşmən hücumlarından uzun müddət müdafiə olunmaq üçün istifadə edilmişdir. Qalanın yaxınlığında «Orta yeri» deyilən qədim yaşayış məntəqəsindən Şuşaya və Xocahan kəndinə [Qubadlı] yol olmuşdur. Şıxlar və Xubyarlı kəndlərindəki Səlap ibn Qiyasəddin [XIV əsr] və Əbdül Əli [1787-ci il]

türbələri Azərbaycan memarlığında səkkiz guşəli və dairəvi türbələrin ən gözəl nümunələrindəndir. Dağtumas kəndi yaxınlığında təpə [Kurqan] üzərində ucaldılan XIII—XIV əsrlərə aid dairəvi kümbəzin [üstü açıq olduğundan başı kəsik kümbəz adlanır] maraqlı görkəmi var. Cəbrayıl kəndindəki Sultan Məcid hamamı da orta əsr Azərbaycan memarlığının gözəl abidələrindən biridir. Forma və tikinti üsuluna görə Cəbrayıl ərazilərindəki türbələrlə qonşu Füzuli, Zəngilan və Qubadlı rayonları ərazilərindəki abidələr arasında çox oxşarlıqlar var. Ona görə də tarix elmləri doktoru M. Nemətova güman edir ki, Araz və Həkəri çayları hövzəsindəki türbələr Məmmədbəyli kəndindəki [Zəngilan] türbənin memarı Əli Məcdəddin və onun şagirdləri tərəfindən tikilmişdir. Laçın, Kəlbəcər və Ağdam rayonlarında olduğu kimi Cəbrayıl ərazilərindəki bəzi qədim qəbirstanlıqlarda da gözəl heykəltəraşlıq nümunələri olan çoxlu qoç, qoyun və at fiqurlarına rast gəlinir. Məlumdur ki, eramızdan əvvəl I minilliyin sonlarında türkdilli tayfalar qoyun fiqurlarını bolluq rəmzi hesab edirdilər. İslam dini bütlərə qarşı mübarizə apardığından onların bəziləri sındırılsa da keçmiş inamın kökü kəsilməmişdi Ölən şəxslərin məzarı üstünə belə fiqurları qoymaq adəti Qaraqoyunlu və Ağqoyunlu dövlətləri zamanında daha da geniş yayılmışdı. Azərbaycan Dövlət Tarix muzeyində saxlanılan XVI əsrə aid süvari rəsmi olan qəbirüstü abidəyə tam oxşar at fiquru rayonun Şükürbəyli kəndinin qəbirstanlığında aşkar edilmişdir. Tuf daşından yonulmuş və hər iki tərəfində həkk edilən süvarinin əlində quş, yanında ov tulasının rəsmi vardır. Burada əks edilən ov səhnəsi həmin məzarda dəfn edilən şəxsin mahir ovcu kimi tanınmasını göstərir. Çünki orta əsrlərdə əhalinin həyatında ovçuluq mühüm rol oynayırdı. Qədim qəbirstanlıqlarda üzərində çörək, hana, ox-yay, beşik, Ay, Günəş və s. rəsmlər həkk edilən çoxlu miqdarda qəbir daşlarına rast gəlinir. Bunlar yerli əhalinin dini, fəlsəfi baxışları, adət-ənənələrini öyrənmək baxımından əhəmiyyətlidir. Rayonun Çələbilər, Papı, Süleymanlı, Quycaq və s. kəndlərdə olan məscidlər də xalq memarlığının gözəl nümunə-ləridir.

**QURBANİ:** Cəbrayıl Azərbaycan xalq ədəbiyyatına Qurbani kimi ustad sənətkar vermişdir. Bəzi müəlliflər Qurbaninin Cənubi Azərbaycanın Dirili [yaxud da Diri] kəndində doğulduğunu göstərmişlər ki, bu da həmin Dirili kəndini Cəbrayılın Diri kəndi ilə dolaşıq salmaqdan irəli gəlmişdir. Dirili kəndinin camaatının ulu babaları Diri kəndindən gedənlər olmuşdur.

Qurbani XV əsrin 70-ci illərində Cəbrayıl ərazisində olan Diri dağının ətəklərində hazırda xarabalıqları qalan Diri kəndində Mirzalı xanın ailəsində dünyaya gəlmiş, XVI əsrin 30-cu illərində bu kənddə də vəfat etmiş, sevgilisi Pəri ilə birlikdə Diri dağının zirvəsində dəfn edilmişdir. Aşığa bəzən Dirili Qurbani da

deyilir ki, bu da onun Diri kəndindən olmasını göstərir. Diri dağına yaxın olan Hacallı kənd [Zəngilan] sakinləri 96 yaşlı Allahverdi, 76 yaşlı Abdulla və başqaları qətiyyətlə deyirlər ki, Qurbani Diri dağında olan Diri kəndindəndir, bizim babalarımız da həmin kənddən gəlmədir və özləri də Qurbaninin nəsli ilə qohum olmuşlar.

Qurbani Səfəvilər dövlətinin banisi I Şah İsmayıl və onun oğlu I Təhmasibin - hakimiyyəti illərində yaşayıb yaratmışdır. Məlumdur ki, istedadlı şair olan Şah İsmayıl Xətai və I Təhmasib elmə, sənətə, şerə yüksək qiymət verən dövlət xadimləri idilər. Şah İsmayılın sarayında görkəmli şair həbibinin başçılığı ilə şairlər məclisi fəaliyyət göstərirdi. Qurbani Şah İsmayıl ilə dostluq etmiş, hətta bir müddət onun sarayında oynaq gəraylı, qoşma və təcnisləri ilə məclisləri bəzəmişdi. Şah İsmayıla yazdığı şerlərində «Gözü yaşlı keçdim Xudafərindən», «Bir ərzim var qulluğuna şah mənim», «Diri dağlarından, uzaq yollardan», «Əlbəttə ki, bir murada gəlmişəm» və s. misralar göstərir ki, Qurbani bəy və xanların xalqa zülm etmələri haqqında mənzum məktublar yazıb cəsarətlə Şah İsmayıla şəxsən təqdim edirdi. Şah İsmayılın Qurbanini etibarlı dost bilməsinin səbəbi bir də o idi ki, Qurbani o dövrlərdə Qarabağda geniş yayılmış qızılbaş hərəkatına qoşulmuşdu. O, Şah İsmayılın yürüşlərində iştirak edir,. öz şerlərini ucadan deməklə, özü qoşduğu havaları sazda məharətlə ifa etməklə döyüşçüləri ruhlandırırdı. Qurbani Şah İsmayılı «mürşidi-kamil» «şeyx oğlu şah», «şəfa qılan», «dərman yetirən»: ədalətli hökmdar hesab edir, onun yolunda «canını niyaz», «sərini sadağa» və «üzünü payandaz» etməyə hazır olduğunu bildirirdi.

Qurbani şerlərində vətəni, doğma torpağı, məhəbbəti, təbiəti xüsusi bir məftunluqla tərənnüm etmişdir. Böyük el sənətkarı haqqın, ədalətin təntənəsinə inanırdı. Qurbani aşıq şerinin əksər formalarında yazmış, özü də novator sənətkar kimi ədəbi formaya yenilik gətirmiş, «divani» aşıq şeri formasını yaratmışdır. Bunlardan ən məşhuru Şah İsmayılın ölümünə yazdığı mərsiyədir. Qurbaninin «Bənövşə» rədifli şeri xüsusilə maraqlıdır:

Qurbani der: könül bundan sayrudur,
Nə etmişəm yarım məndən ayrıdır,
Ayrılıqmı çəkib boynu əyridir,
Heç yerdə görmədim düz bənövşəni.

Görkəmli Azərbaycan ədəbiyyatşünası Salman Mümtaz 1923-cü ildə «Qızıl Şərq» qəzetində dərc etdirdiyi «El şairi Qurbani» adlı məqaləsində yazır: «Bu şeri

[«Bənövşə» şerini— red.] özgə dillərə tərcümə edən olsa əcnəbi məmləkətlərdə də o sözləri əzbərləyib yeri gəldikcə oxuyarlar».

Qurbaninin şerlərindəki «Üzüm gülməz vətəndən ayrı», «Qan tökürsən qürbət eldə, gözlərim», «Ayrı düşdüm vətənimdən, elimdən», «Nə müddətdir çalay — vətən olmuşam», «Biz də qonaq olduq qarslı Osmana» və s. misralar göstərir ki, böyük sənətkar bir müddət Türkiyədə və digər qürbət ölkələrdə yaşamışdır. Folklorşünas S. Paşayev güman edir ki, Qurbani Çaldıran döyüşündə əsir düşmüş, Türkiyəyə aparılmış, bu şerlərini də orada yazmışdır.

Qurbaninin Azərbaycan ədəbi dilinin inkişafında da böyük rolu olmuşdur. Professorlar T.Hacıyev və K.Vəliyev yazırlar: Azərbaycan ədəbi dilinin inkişafında, irəliləyişində, üslubi zənginləşməsində, formaca cilalanmasında Xətai və Füzuli kimi böyük sənətkarlarla yanaşı Qurbani də böyük rol oynamışdır. Professor K.Vəliyev göstərir ki, XVI yüzillikdə Azərbaycan ədəbi dili tarixində folklor nümunələri ilə birlikdə Qurbani bir qütbdə, Füzuli o biri qütbdə dayanır və bu iki qütbün bağlılığı, bütövlüyü Azərbaycan ədəbi dili üçün nisbi bitkinlik təsəvvürü yaradır. S.Paşayev yazır ki, Azərbaycan dili milli heca vəznli poeziyanın şifahi və yazılı ədəbiyyatda inkişafında və möhkəmləndirilməsində Şah İsmayıl Xətai ilə Qurbaninin tarixi dostluğu və qarşılıqlı yaradıcılıq əlaqələrinin böyük əhəmiyyəti olmuşdur.

Qurbani xalq arasında sevilən sənətkar olduğuna görə də hələ sağ ikən qoşulan «Qurbani» dastanının aşığın vəfatından sonra bir neçə versiyası, bu versiyaların da neçə-neçə variantları yaradıldı. Dastanın Diri versiyasından və aşığın başqa şerlərindən aydın görünür ki, o, sazını çiyninə salaraq Qarabağ ellərini, Arazboyu kəndləri qarış-qarış əzib dolaşmış xalqın həyat və məşğuliyyəti ilə yaxından tanış olmuşdur. Ona görə də aşığın şerləri və «Qurbani» dastanı Qarabağın və Cəbrayıl ellərinin tarixi etnoqrafiyasını öyrənmək baxımından çox əhəmiyyətlidir. Onun əsərlərində hələ XVI əsrdə Cəbrayıl ərazilərinin bağlı-bağatlı bir diyar olması, qadınların səliqə ilə geyinmələri, qızların özlərinə sığal verib çiyinlərində sənək dəstə-dəstə bulaq başına getmələri və s. haqda maraqlı məlumatlara rast gəlinir.

**LƏLƏ.** Cəbrayıl və Füzuli rayonlarında şair Lələ adı ilə tanınan bu sənətkar istedadlı söz ustalarından biridir. Doğulduğu yer və il dəqiq bilinmir. Bayatılarında XVII əsr Azərbaycan şairi Məsihinin «Vərqa və Külşa» dastanının qəhrəmanlarının adlarının çəkilməsindən görünür ki, şair Lələ XVII—XVIII əsrlərdə yaşamışdır. Şairin məzarının Nüzgar və Horadiz kəndləri arasında «Lələ» təpəsi deyilən yerdə, yaxud da Arcalı qəbirstanlığında olması güman edilir, hətta Əhmədalılar kənd [Füzuli] sakinləri 80 yaşlı Əli Əliyev və 67 yaşlı Tehran

Sərkarovun şəxsi vəsaitləri hesabına usta Əjdər Balayev və qaynaqçı Famil Abbasov tərəfindən Arcalı qəbirstanlığında Şair Lələnin məzarı hesab edilən qəbirin üstündə günbəz də ucaldılmışdır. Tanınmış tədqiqatcı S.Paşayev də həmin məzarı şair Lələnin qəbri hesab edir. Ə. Behbudov şair Lələnin yazıya alınmayan iki bayatısını əldə etmişdir. Şairin bayatılarındakı ifadələrdən belə görünür ki, Lələnin bir bacısı olmuş, özü isə kasıb güzəran keçirmiş, dərviş kimi kəndləri gəzib bayatılar demiş, sevgilisinə də qovuşmayıb tənha həyat sürmüşdür. Bayatılarından onun savadlı olması, Türkiyə və Şam tərəflərə səyahət etməsinə də işarə edilmişdir. «Nur tökülür tacından», «Lələnin qəbri üstə şah gələr», «Ləl追əm başda mən, yemədim hər aşdan mən» deyən şair kasıbçılıqla dolansa da məğrur olmuş, heç kəsin qabağında əyilməmişdir. Dünyanı vəfasız hesab edən şair «Nə qonşuya söz apar, nə qonşudan söz gətir» deyib insanları mehriban dolanmağa çağıran və şerlərinin əbədi qalacağına ümid bəsləyən bir sənətkar olmuşdur.

**AŞIQ PƏRİ**. XIX əsrdə Cəbrayıl ellərinin Azərbaycan poeziyasına verdiyi istedadlı şairlərdən biri də aşıq Pəridir. O, Maralyan kəndində anadan olmuşdur. Firudin bəy Köçərli yazır ki, Aşıq Pəri ibtidai təlimini öz qəryəsində almış, özü də əhli-hal, sahib-camal, xoşməqam, işvəli bir nazənin olmuşdur. Şərqşünas A. Berjeyə görə Aşıq Pəri təxminən 1810—1811-ci illərdə doğulmuşdur. Başqa müəlliflərin deməsinə görə Aşıq Pəri cavan yaşlarında Şuşaya köçüb orada yaşamış, gənc yaşlarında da vəfat etmişdir. Onun qoçalana qədər yaşadığını, nəvə-nəticələrinin olduğunu söyləyənlər də var. Aşıq Pərinin ögey qızı Maralyan kəndində yaşamış və 1945-ci ildə 120 yaşında vəfat etmiş Şəkər Məmməd qızı isə deyirdi: «Aşıq Pərinin atasının adı Fərzalı, anasının adı Zəhra idi. Onun Kərbalayi Mirzalı və Mahmud adlı iki qardaşı var idi. Şuşadan tez-tez faytonla gəlib Pərini şer Məclislərinə aparardılar. Hər dəfə də Pəri kiçik qardaşı Mahmudla gedər, yenə də Maralyana qayıdardı. Pəri 25 yaşında ikən atam Molla Məmmədə ərə getmiş, 34—35 yaşlarında vəfat etmiş, Maralyan kəndinin qədim qəbirstanlığında da dəfn olunmuşdur. Pərinin özünü azad bir qadın kimi aparması, şerlər yazması, kişi şairləri ilə deyişməsi dindar bir adam olan ərinin [mənim atamın] və bəzi başqalarının xoşuna gəlmədiyindən onun həyatı çox sıxıntılı və acınacaqlı keçmişdir».

Ərinin Pərini şer yazmağa qoymaması onun aşağıdakı misralarından da aydın görünür:

Molla qoymur qələm alım dəstimə,
Ərzi-halım bəyan edim, neyləyim?

Şəkər nənənin dediklərindən görünür ki, Aşıq Pəri 1813-cü ildə anadan olmuş, 1848-ci ildə vəfat etmişdir.

Aşıq Pərinin yaradıcılığı haqqında ilk məlumatı M. Y. Nersesov 1856-ci ildə Teymurxanşurada [Buynaksk] çap etdirdiyi «Məcmueyi Vaqif və müasirani—dikər» adlı məcmuədə vermişdir. «Aşıq Pəri və müasirləri» məcmuəsində də onun yaradıcılığı haqqında məlumatlar vardır. A. Berjinin 1867-ci ildə Leypsiqdə çap etdirdiyi məcmuədə göstərildiyi kimi eşidilməmiş gözəlliyə malik olan Aşıq Pərinin deyişmələri, hazırcavablıqla dediyi şerlər hamının diqqətini cəlb edirdi. Aşıq Pəri dövrünün tanınmış aşıq və şairləri içərisində böyük nüfuz qazanmış Məmməd bəy Aşıq Zəngilani, Cəfərqulu ağa Nəva, Mirzəcan Mədətov, Mirzə Həsən Mirzə və başqaları ilə dəfələrlə deyişmiş və onları hağlamışdır. Məmmədbəy Aşıq Pərini «Dizaq mahalının Fərhadı», «Dizaq mahalının misilsiz gözəli», Cəfərqulu ağa Nəva, «Tovus quşu», «Murği tuti» adlandırmış, Mirzə Həsən isə onu «Yoxdur yer üzündə misalın sənin» deyərək təriflэmişdir. Aşıq Pəri çox cəsarətli, yeri gəldikcə kəskin dil ilə danışmağı bacaran bir sənətkar idi. O dövrlərdə Cəbrayıl torpaqlarının bir hissəsinin sahibi olan Cəfərqulu ağa Nəva ilə onun şerləşməsi daha çox məşhurdur. Aşıq Pəri Nəvanınadan, qanmaz, zülmkar bir adam kimi tənqid edərək

Adam bildik biz də gəldik adına,
Adamlığı qanmayıbsan hələ sən

deyib onu yerində oturdurdu. Aşıq Pəriyə səmimi şerlər yazan Məmmədbəy Aşiqi isə əksinə yumşaq bir yumorla susdururdu.

Aşıq Pərinin şerlərində saf məhəbbət, təmiz və ülvi insani hisslər heyranlıqla tərənnüm edilmişdir.

**AŞIQ MAHMUD**. Əhmədli-Quşçular kəndində yaşamışdır. Adı «Azərbaycan ədəbiyyatı tarixi [c. 2] və F. Qasımzadənin «XIX əsr Azərbaycan ədəbiyyatı tarixi» kitablarında çəkilmş, bir bənd şeri verilmişdir. Şerlərinin bir hissəsini dostu Yəhya Çələbi toplamışdır. Aşığın şöhrəti mahalın hər tərəfinə yayılmış, hətta Arazın sağ sahilindəki ellərə də gedib çatmışdı. Gözəl saz çalması, məclis aparması, xalqın ürəyindən xəbər verən şerləri onu camaata sevdirmişdi. Əsərlərinin əsas hissəsini ictimai motivli şerlər təşkil edir. Aşıq Mahmud

El yolundan azanları,
Toy-düyünü pozanları,
Töycüləri yazanları,
El içindən uzaq olsun

deyərək xalqa zülm edənləri cəsarətlə tənqid edirdi. Əldə olan məlumata görə mahalın şəriət hakimi Çələbi Əfəndi Aşıq Mahmuda şer yazmağı qadağan etmiş, bunun guya günah olduğunu göstərmişdir. Buna görə də Aşıq Mahmud dostu qarabağlı .Mirzə Həmzə Nikariyə müraciət etmiş, ondan kömək istəmişdir. Şair Nikari onu yaradıcılığa daha da ruhlandırmışdır. Maddi çətinliklər, mənəvi sıxıntılar yüzlərlə adamı öz doğma yurdlarından baş götürüb Türkiyə, İran və başqa ölkələrə qaçmağa məcbur etdiyi bir zamanda çar çinovnikləri Aşıq Mahmudu da bu işi təşkil etməkdə taqsırlandırır, onu incidir, hədə-qorxu gəlirdilər. Bu cür ağır sıxıntılara məruz qalan Aşıq Mahmud özü də gecənin birində həmkəndliləri ilə birlikdə Türkiyəyə getmiş, 1892-ci ildə orada 80—90 yaşlarında vəfat etmişdir.

**MÜCRÜM KƏRİM**. Ehtimala görə XVIII əsrin sonlarında ailəsi ilə Girmanşah mahalından Qarabağa gəlmiş, bir müddət Horadiz kəndində yaşamışdır. Sonralar bu yerlərin hakimi Cəfərqulu ağaya müraciət edib torpaq istəmiş, o da indiki Cəfərabad kəndini ona bağışlamışdır. Bu işdə Aşıq Pərinin də köməyi olmuş, o da qərib şairə torpaq verilməsini Cəfərqulu ağadan xahiş etmişdir. Şair ömrünün sonunadək həmin kənddə yaşamış, məzarı da Horovlu kəndi yaxınlığında «Şıx kəhrizi» deyilən qəbirstanlıqdadır. Müçrüm Kərimin yaradıcılığında aşıq şeri üslu- bunda * yazılmış qoşma, kəraylı, təcnis və divanilər əsas yer tutur. Onlar daha çox məhəbbət mövzusunda yazılsa da ictimai motivlərdən də xali deyildir:

Fələyin əlindən qılan ahü zar
Biri mənəm, biri yarəb, kim ola.
Güli-rüxsarına çəkən intizar,
Biri mənəm, biri yarəb, kim ola.

Müçrüm Kərimin şerləri sənətkarlıq baxımından da çox dəyərlidir:

Bayqu üçün məskən oldu o diyar,
Qəmzən ilə bağrım başın odduyar.
Evdən çıxdı yalın qılınc odu yar,
Bilirəm qanıma ha bular, bular.

**MƏDRƏSƏ - MƏKTƏB**. Çələbilər kəndindəki məsciddə orta əsrlərdə mollaxana tipli mədrəsə fəaliyyət göstərmişdir. Məscidin həyətindəki hüçrələrdən sinif otaqları kimi istifadə edilirdi. Görkəmli Azərbaycan şairi M. V. Vidadi də bu

mədrəsədə dərs demişdir. Vidadinin bir müddət Çələbilər və Dağtumas kəndlərində yaşamasını və işləməsini Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi M. P. Vaqifin ona yazdığı aşağıdakı mənzum məktub təsdiq edir:

Sən deyirdin gücü gedib bazumun,
Bəs nə yavuz arvad oldu lazumun?
- Ardına tumaslı dəli Kazımın
Xuo düşübsən, xub şücaət eylərsən.
Düşmüsən bir çələbinin cəbrinə,
Söz yox idi o iyidin səbrinə,
Kişi olsan gedib onun qəbrinə
Hər həftədə bir ziyarət eylərsən.
Ey Vidadi, yenə xan qulluğunda
Qaim olub nə qiyamət eylərsən.
Yaman kündən allah özü saxlasın,
İxlas ilə yaxşı xidmət eylərsən.

Bu sətirlərdən görünür ki, XVIII əsrin ikinci yarısında Gürcüstan hakimlərinin zülmündən təngə gəlmiş Qazax elinin bir hissəsi köçüb Qarabağa gələn zaman Vidadi də onlarla gəlmiş, Çələbilər və Dağtumas kəndlərində yaşamış, qoça yaşlarında ikinci, yaxud da üçüncü dəfə evlənmiş, bu yerlərin mərd kişilərindən Dəli Kazımla da dostluq etmişdir. Söyüddü kənd sakini 110 yaşlı Məmiş Əhmədovun öz ata-babasından eşitdiyinə görə Vidadinin yuxarıdakı şerdə deyildiyi kimi xidmət göstərdiyi igid adam bu yerlərin ağası Teymur bəy idi və şair mollaxanada dərs deməklə ona xidmət etmişdir. Yerli əhalidən yaşlı adamların deməsinə görə görkəmli Azərbaycan şairi M. P. Vaqif İran şahı Qacar tərəfindən Şuşada həbs edilərkən, Çələbilər kəndində Vidadiyə məktub yazıb ondan kömək istəmişdir. Vidadinin xahişi ilə Teymur bəy Ziyarət dağından gizli yol ilə Şuşaya gedib Qacarın qətlə yetirilməsində iştirak etmişdir.

# QARABAĞ XANLIĞININ TƏRKİBİNDƏ

1747-ci ildə Nadir şah xaincəsinə öldürüldükdən sonra Azərbaycanda ayrı-ayrı feodal dövlətlər — Qarabağ, Naxçıvan, Şəki, Şirvan, Quba və s. xanlıqlar yarandı.

Qarabağ xanlığı Naxçıvandan Araz və Kür çaylarının qovuşduğu yerə, Kürəkçaydan [Gəncə] Tərtər çayına, oradan da Göycə gölünə qədər əraziləri, Zəngəzur və Sisiyan mahallarının bir hissəsini əhatə edirdi. Cəbrayıl ərazisi də Qarabağ xanlığına daxil idi. Xanlığın banisi Pənah xan Cavanşir [1693—1760] Azərbaycanın igid oğullarından biri idi.

Tədqiqatçılar Pənah xanın Qarabağın Cavanşir elinin Bəhmənli qolunun Sarıcalı boyundan olmasını göstərir, amma həmin boyun [kəndin] hazırda Azərbaycan respublikasında Sarıcalı adında olan səkkiz kənddən məhz hansı olduğunu demirlər. Təkcə B. Məmmədov göstərir ki, Pənah xan Ağdam yaxınlığındakı Sarıcalı kəndindəndir. Məşhur «Qarabağnamə»lərdə və başqa ədəbiyyatlarda Pənah xanın «Dizaqın Sarıcalı oymağından olması», «Nadir şahın yanından qacandan sonra Araz kənarında doğma Sarıcalıya qayıtması», «Arazboyu əhalidən dəstə düzəltməsi», «Pənah xanın oğlu İbrahimxəlil xanın Cəbrayıllı bəylərindən birinin qızı ilə evlənməsi» və s. kimi məlumatlardan belə güman etmək olar ki, Pənah xanın ulu babaları ilk dəfə Cəbrayılın Sarıcalı kəndində məskən salmışlar. Çünki başqa Sarıcalı kəndlərinə nisbətən Cəbrayıl Sarıcalısı Araz çayına daha yaxındır. Tədqiqatçı C. Kazımov Sarıcalı sözündəki «Sarı» sözünü qorxmaz, igid kimi mənalandıraraq yazır ki, Sarıcalı sözü əvvəlcə Qorxmaz hacı şəklində olmuş, sonralar danışıq dilində Sarıcalı şəklinə düşmüşdür. Bizcə Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəyin bu barədəki fikri həqiqətə daha yaxındır. O yazır ki, Pənah xanın babası Gəncə tərəfləri gəzib dolaşdıqdan sonra Sarıcalı kəndi olan yerə gəlir, Özünə yurd salır, evlənir, bir oğlu olur, adını Əli qoyurlar. Uşaq çox gözəl olduğundan onun aləmi işıqlandıran sarı bənizi ata-anasının ürəyini kəhraba samanı çəkən kimi özünə çəkir. Buna görə də uşağı Sarıca Əli deyə çağırırlar və Sarıcalı sözü də buradan yaranmışdır. Belə görünür ki, Azərbaycan ərazisində olan başqa Sarıcalı kəndləri Cəbrayılın Sarıcalı kəndindən sonra yaranmışdır. Daha Doğrusu Sarıca Əlinin nəslindən olanlar sonralar bu kəndləri salmışlar.

Pənah xan hələ cavan yaşlarından at minmək, ox atmaq və qılınc oynatmaqla yoldaşlarından fərqlənirdi. O, qardaşı Behbudəli ilə birlikdə Nadir şahın Ordusunda xidmət etmiş, müharibələrdə ad-san qazanmış, sonralar sarayda eşik ağası mənsəbinə yüksəlmişdir. Saray intiriqaları nəticəsində Behbudəli

öldürüldükdən sonra Pənah belə bir faciənin onun da başına kələ biləcəyindən ehtiyat edərək qaçıb vətəni Qarabağa gəlir, bir müddət Zəngəzur və Dağıstan mahallarında gəzib dolaşır, özünə silahlı dəstə düzəldir, Nadir şah öldürüldükdən sonra Cavanşir, Otuzikilər, Cəbrayıllı və s. tayfaların köməyi ilə Qarabağ xanlığını yaradır. Bundan sonra Nadir şahın vaxtı ilə özgə ölkələrə sürgün etdiyi qarabağlılar doğma yurdlarına qayıdıb dinc həyat sürməyə başladılar. Pənah xan İran feodallarına qarşı müvəffəqiyyətlə mübarizə aparara1 Qarabağ xanlığının müstəqilliyini qoruyub saxladı. Təəssüf ki, belə bir bacarıqlı dövlət xadiminin həyatı faciə ilə sona çatdı. Şiraz hakimi Kərim xan Zənd Pənah xanın gücünü görərək onunla yaxınlaşdı, Urmiyə hakimi Fətəli xanla mübarizədə onunla birləşib düşmənini məğlubiyyətə uğratdı. Lakin Kərim xanın alçaq niyyəti varmış. O, hiylə işlədərək qələbə münasibətilə düzəltdiyi şənliklərdə iştirak etmək bəhanəsi ilə Pənah xanı da dəvət etdi və onun bir daha Qarabağa qayıtmasına icazə vermədi. Vətənə dönmək imkanından məhrum olan Pənah xan özünü həlak etdi, cənazəsi gətirilib Ağdamda dəfn edildi. Bəziləri ona zəhər verildiyini deyir. Tarixçi Mirzə Adıgözəl bəy isə yazır ki, Pənah xan Qarabağa qayıtmaq üçün tiryək atıb özünü ölülüyə vurur. Qarabağa aparıb dəfn edilməsini «vəsiyyət» edir. Bu yol ilə Qarabağa qayıtmaq istəyir. Hadisə yayda olduğundan iylənməsin deyə «meyidin» qarnını yarırlar və o da həqiqətən ölür. Bu fikir Pənah xanın şəxsiyyətini idealizə etmək kimi görünsə də [bəlkə də bir həqiqətdir] hər halda bu əhvalat Pənah xanın vətənə qayıtmaq üçün hər cür vasitəyə əl atmasını göstərən maraqlı hekayətdir. Pənah xanın xəyanətlə öldürülməsinə baxmayaraq İranlılar yenə də Qarabağı ələ keçirə bilmədilər.

Pənah xanın oğlu İbrahimxəlil xanın dövründə Qarabağ xanlığı daha da qüvvətləndi. Onun Cəbrayıllı qızından Məhəmmədhəsən və Cavad adlı iki oğlu var idi. Cavad uşaqkən vəfat etdi. Məhəmmədhəsən isə oğlu Cəfərqulu ilə birlikdə Qarabağın siyasi həyatında çox mühüm rol oynadılar.

Qarabağ xanlığının ərazisi 22 inzibati vahidə — mahala bölünmüşdü. Cəbrayıl əraziləri Xırdapara — Dizaq, Dizaq — Cavanşir, Xudafərin və Covundur [İranda Oxçu çayına Covundur çayı deyilir] mahallarına daxil idi. Xırdapara(Xırdapara-Quycaq Horovlu, Nüzyar, Şəybəy, Safarşa, Çapand, Cəfərabad kəndlərinin ümumi adıdır və xırda kəndlər mənasında işlənmişdir.)— Dizaq Mahalı hadrut kəndindən Şəybəy, Nüzgar kəndlərinə qədər əraziləri əhatə edirdi[1]. Dizaq — Cavanşir mahalına Horadiz-Maralyan-Soltanlı kəndləri istiqamətində olan ərazilər, Xudafərin mahalına Dağtumas-Sirik kəndləri və Diri dağı zonası, Çovundur mahalına isə Diri dağından Oxçu çaya qədər ərazilər daxil idi. Mahalları xanın təyin etdiyi naiblər idarə edirdi. XIX əsrin əvvəllərində Dizaq—Cavanşir mahalının naibi Qasımbəy, Covundur mahalının naibi

Məhəmmədhəsən bəy idi. Onların ixtiyarında darğalar, yüzbaşılar, kəndxudalar və başqa vəzifəli şəxslər olurdu. Darğalar polis vəzifəsini icra edir və vergi toplayırdılar. Yüzbaşılar və kəndxudalar isə kənd ağsaqqalları hesab olunurdular. Ən mühüm məhkəmə işlərinə xan özü mülki və cinayət işlərinə ruhani hakimlər — qazılar baxırdı. Bəylər xana silahlı atlı dəstə toplayır, onları ərzaqla təchiz edirdilər. Xan hər bəyə öz xidmətinə görə məvacib, yaxud da kənd verirdi. Bəylər və s. vəzifəli şəxslər təsərrüfatla az məşğul olurdular. Onların malikənələrinə, mal-qaralarına, bağ-baxçalarına rəncbərlər baxırdılar. Vahid vergi sistemi olmadığından bəylər və darğalar camaatdan istədiyi miqdarda vergi toplayırdılar. XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Daşkəsən kəndində 46 evdən 16-sı, Horovlu kəndində 64 evdən 13-ü, Şükürbəyli kəndində 55 evdən 15-i vergi vermirdi. Onlar əsasən kəndxuda, yüzbaşı və darğaların qohumları, mollalar və seyidlər idi. Vergilərin ağırlığına dözməyən bəzi kəndlilər qaçıb başqa yerə gedir, tapıldıqda öz yurdlarına qaytarılırdı.

Xanlığın İran, Hindistan və s. ölkələrlə ticarət əlaqələrində Xudafərin körpüləri mühüm rol oynayırdı. Xan buradakı gömrükxanadan çoxlu gəlir götürürdü. Daxili ticarət inkişaf edirdi. Cəbrayıl bazarında mübadilə əsas yer tuturdu. Qarabağ xanlığı yarandıqdan sonra Şuşa tacirlərinin Cəbrayıla daha çox axışıb gəlmələri burada bazarın böyüməsinə və ticarətin canlanmasına səbəb oldu. Şuşa tacirləri İran və dikər şərq ölkələrinə də gedib-gələrkən Cəbrayılda qalıb alverlə məşğul olur, bəziləri burada xırda dükanlar açıb məskunlaşırdılar ki, bu da Cəbrayılın daha da böyüməsinə təsir etdi.

Təəssüf ki, Azərbaycan xanlıqları arasında birlik yox idi, bəziləri arasında hətta düşmənçilik də var idi. Bundan istifadə edən Rusiya Şimali Azərbaycanı öz hakimiyyəti altına almağa çalışırdı. Bu zaman İran hökmdarı Ağa Məhəmməd şah Qacar Rusiyanın bu niyyətinə qarşı çıxdı. Onun məqsədi Şimali Azərbaycan xanlıqlarını yenə də İran dövlətində birləşdirmək idi. Lakin xanlıqların hakim dairələri Qacarı müdafiə etmədilər. Onun Şimali Azərbaycana yürüşündən [1795] bir neçə gün əvvəl İbrahimxəlil xanın adamları; əsasən Şıxlar kəndinin sakinləri Xudafərin körpüsünü dağıtdılar və İran qoşunlarının Arazın sağ sahilində cəmləşməsini İbrahimxəlil xana xəbər verdilər. Ona görə də Qacar Arazı keçən kimi Şıxlar kəndi onun əmri ilə yandırıldı, adamlarının çoxu məhv edildi. Əhməd bəy Cavanşir yazır ki, görənlərin deməsinə görə Qacar Şuşanı ala bilmədikdə yüz nəfər qarabağlının əl-qolunu bağlatdırıb xırmanda dərz kimi düzdürmüş və tərsinə nallanmış atları onların üstünə sürdürüb hamısını xurd-xaşıl etdirmişdi. Əvəzində qarabağlılar ertəsi gün iki İranlı dəstəni məhv etmişdilər. Əhməd bəy Cavanşir

daha sonra yazır ki, o dövrlərdə bu yerlərin əhalisi dözülməz vəziyyətdə yaşayırdı. Uzaq ölkələrdən, alınmaz kahalardan, keçilməz meşələrdən yenicə qayıtmış qaçqın əhali öz gəlişindən peşiman idi. Burada taxıl əkilmədiyi üçün ərzaq çatışmırdı, adamlar ağac kötüyü və palıd qozası yeyirdilər. Yüzlərlə adam acından və vəba xəstəliyindən ölürdü. Bacaran başını götürüb hara gəldi qaçırdı. Cəbrayıl elləri də eyni ilə belə idi. Qacar öz adamları tərəfindən öldürüldükdən sonra Şimali Azərbaycanı ələ keçirmək üstündə Rusiya ilə İran arasında mübarizə daha qızışdı. Rusiya Gürcüstanı tutduqdan sonra Azərbaycana qoşun yeritdi. Qarabağ hakimi İbrahimxəlil xan 1805-ci ildə zor gücünə Rusiyanın himayəsini qəbul etməyə məcbur oldu. Bir tərəfdən o, əhalini qırğına vermək istəmirdi, digər tərəfdən də ümumiyyətlə Qarabağın hakim dairələri ümid edirdilər ki, Rusiya Şimali Azərbaycanı aldıqdan sonra buradakı mövcud üsul-idarəni saxlayacaq. Əksinə, ümidlər boşa çıxdı. İbrahimxəlil xan rus zabiti Lisanoviç tərəfindən qəddarcasına öldürüldü, xanlıq ləğv edildi, mənfur çar üsul idarəsi yaradıldı. Mayor Lisanoviç 80 yaşlı İbrahimxəlil xanı ailəsi və qohumları ilə birlikdə xaincəsinə qətlə yetirməsinin səbəbini özü də sonralar izah edə bilmirdi, yaxud da özü bunu qəsdən gizlədirdi. Əslində xanın köhnə düşməni erməni məliyi Cəmşid İbrahimxəlil xanın guya İranpərəst olması haqqında Lisnoviçə cuğulluq etmişdi. Cəmşidin məqsədi rus zabitinin əli ilə xanı aradan götürüb özü Qarabağın qubernatoru olmaq idi. Rus—İran müharibələri İranın məğlubiyyəti ilə qurtardı. Türkmənçay sazişinə [1828] əsasən Azərbaycan iki yerə bölündü. Şimali Azərbaycan heç bir varislik və hüquqi əsas olmadan yarımfeodal Rusiyanın işğalı altına düşdü. Bu tarixi faciənin ancaq Cəbrayıl ilə əlaqədar bəzi səhifləri ilə qısaca tanış olaq.

Hələ 1802-ci ildə Rusiyanın Qarabağa yeritdiyi qoşunun bir hissəsinin qərargahı Çərəkənçayın [Füzuli rayonu] sahilində, ön dəstələri Qarğabazar — Daşkəsən — Cəbrayıl — Soltanlı — Xudafərin istiqamətində yerləşdirilmişdi. Diri dağında müşahidə məntəqəsi yaradılmış, Cəbrayıl və Yarəhmədli kəndləri arasındakı təpəlikdə hərbi şəhərcik salınmışdı. Bu zaman bütün Qarabağda olduğu kimi Cəbrayılda da bəziləri İrana, bəziləri də Rusiyaya meyl edirdilər. İrana meyl edən Şıxalı ağa, Məmibəy, Həmid bəy və başqa nüfuzlu şəxslər öz yaxın adamları ilə birlikdə Arazın o tayına keçdilər. Cəbrayıl hakimi Cəfərqulu xan [İbrahimxəlil xanın nəvəsi] və onun ətrafında olanlar qalıb yerli əhalidən silahlı dəstələr düzəldərək Rus hərbçilərinə xidmət etməyə başladılar. «Qafqaz» qəzetinin [Tiflis, 1858 № 12] verdiyi məlumata görə Rus-İran müharibəsinin ilk günlərində Cəbrayılın bütün kəndlərindən əli silah tutan adamlar siyahıya alınmış, atlı və piyada dəstələri yaradılmışdı. Onlar çağırılan vaxt təyin olunan yerdə hazır olmalı

idilər.

Rusiya — İran müharibələrinin gedişi dövründə İran ordusu kiçik həmlələr istisna olmaqla doqquz dəfə Xudafərin körpüləri, üç dəfə Soltanlı — Maşanlı — Alıkeyxalı, üç dəfə də Maralyan istiqamətində Arazı keçib Cəbrayıl ərazilərindən Qarabağa soxularaq iri miqyaslı hərbi əməliyyatlar aparmışdılar. Ona görə də Cəbrayıl əraziləri əsas qanlı döyüş meydanlarından birinə çevrilmişdi. Xudafərin-Alıkeyxalı—Soltanlı kəndlərinin ətraflarında, Diri dağının ətəklərində, Topçaq düzündə, Cəbrayıl bağlarında [bu ifadəyə mənbələrdə çox rast gəlinir. indiki kolxoz bazarından aşağı tərəflər o zaman sıx bağlı olmuşdur] Maralyan kəndindən Araz çayına qədər ərazilərdə xüsusi ilə şiddətli toqquşmalar baş vermişdi. Alıkeyxalı — Soltanlı istiqamətindəki döyüş müharibənin ilk günündə İran ordularının Xudafərin tərəfindən hücumu ilə başladı. Lakin sayca üstün olan İranlılar Daşkəsən kəndi istiqamətində irəliləyə bildilər. Onlar kiçik döyüşlərə cəlb edilərək rusların əsas qüvvəsi cəmləşdirilən Qozlu çay dərəsinə aparıldı və burada qəfil hücumla əzişdirildi. İranlıların Şuşa istiqamətində hərəkət planı pozuldu. Bu qələbə münasibəti ilə general Sisianov İbrahimxəlil xanı təbrik edib eyni zamanda xəbərdarlıq etdi ki, İranlıların yeni hücumu gözlənilir. Ona görə də mayor Lisanoviçin dəstəsi Arazboyu kəndlərin ətraflarına yeridildi. 1805-ci il mayın 22-də İran Şahzadəsi Abbas Mirzə Xudafərin istiqamətində göründü. A. Bakıxanovun və Mirzə Camalın yazdıqlarına görə Məhəmmədhəsən ağa bu xəbəri eşidib öz dəstəsini təcili olaraq, Xudafərin tərəfə apardı. Lakin artıq gec idi. İran ordusunun ön hissələri Cəbrayıl ərazilərinə soxulmuşdu. Belə olduqda Məhəmmədhəsən ağa qayıdıb Cəbrayıl bağlarında mövqe tutdu. Burada baş verən döyüşdə İran tərəfi üstünlük təşkil edərək Xonaşen [Martuni] kəndinə tərəf irəliləmyə başladı. Məhəmmədhəsən ağanın dəstəsi onları təqib edirdi. Xonaşen yaxınlığındakı şiddətli döyüşdə İranlılar tab gətirməyib Araza doğru çəkilməyə məcbur oldular. Bundan az sonra İran şahzadəsi Abbas Mirzə böyük qüvvə ilə Arazı keçib Diri dağında möhkəm mövqe tutdu. Gəncədən göndərilən polkovnik Qaryakinin dəstəsi gəldikdən sonra Diri dağının ətəklərində şiddətli döyüş baş verdi. İranlılar dağın zirvəsindən atəş açırdılar. Bir günlük şiddətli vuruşmadan sonra İranlılar Diri dağı zonasından sıxışdırılıb çıxarıldı. Bundan bir həftə sonra— 1806-cı ilin yazında Əliqulu xan və İsmayıl bəyin komandası altında İran qoşunu Araz çayını bir necə yerdən keçib Cəbrayıl bağlarına doğru hərəkətə başladı. Knyaz Abxazovun və Məhəmmədhəsən ağanın dəstələri onları Sacayaq təpəsinə [Daşveysəlli kəndi] tərəf sıxışdırdı. İranlılar təpədən tüfəng atəşinə başladılar. Ruslar isə top atəşi ilə cavab verdilər. Bir necə saat davam edən bu döyüşdə İran dəstələri tab gətirməyib

Araz çayına doğru geri çəkildilər. Rus tarixçisi N. Dubrovin bu döyüşü belə təsvir edir: «İranlıların hücumu zamanı Xudafərin körpüsü bir neçə yerdən söküldüyündən düşmən Arazı müxtəlif yerlərdən keçib Cəbrayıl bağlarına tərəf gəldilər, ruslar və yerli silahlı dəstələr onların qabağına yeridilər. İranlılar Sacayaq təpəsinə çəkildilər. Hər iki tərəf tüfəngdən şiddətli atəş yağdırırdı. Nəticədə düşmən hücuma tab gətirməyib qaçmağa üz qoydu. Məhəmmədhəsən ağanın yüz nəfərlik süvari dəstəsi İranlıları təqib etdi. Düşməndən 84, ruslardan və yerli əhalidən 2 nəfər öldürüldü, 18 nəfər yaralandı. Vuruşmada cəmisi 61 top, 6637 tüfəng atəşi açılmışdı».

Bu döyüşdən az sonra Məhəmmədhəsən ağa vəfat etdi. Bu, cəbrayıllıları xeyli kədərləndirdi. Çünki Məhəmmədhəsən ağa xasiyyətcə çox mülayim və xeyirxah adam idi. O, hər döyüşdən sonra həlak olanların ailələrinə maddi köməklik göstərir, kəndlərə məktublar yazıb onları sakit güzəran keçirməyə çağırırdı.

Məhəmmədhəsən ağa vəfat etdikdən sonra Abbas Mirzə Qarabağa — Cavanşir və Cəbrayıl ellərinə intibahnamələr göndərərək onları öz tərəfinə çəkməyə çalışdı. həmin intibahnamələrə cavab almayan Abbas Mirzə Cəfərqulu ağaya bu məzmunda məktub göndərdi. «Bil ki, biz qabaqlarda da sizə etibar edirdik və əminəm ki, siz bizə xidmət edəcəksiniz. Cəbrayıllı tayfasına iki əmr göndərirəm. Bu əmrlərdə sizə etibarlı olan Mahmud ağa və Lütfəli ağadan başqa heç kəsin adını göstərmirəm. Siz kimi lazım bilsəniz adını bu əmrə daxil edin sən bizi müdafiə etsən yüksək rütbə və hər şey alarsan Allaha və padşahımızın başına and içirəm». Abbas Mirzənin məktuba əlavə etdiyi əmrdə deyilir: «Mahmud ağaya, Lütfəli ağaya və cəbrayıllı tayfasının digər ağsaqqallarına və fəxri şəxslərinə ali əmr verilir ki, sizin bizə sadiq olmağınızı bilərək sizə rəhm edirik həm də etibar edirik. hörmətli Şəfi bəyi və Firudin bəyi sizin yanınıza göndərirəm. Onlara qəti əmr verilmişdir ki, sizə hörmətlə yanaşsınlar. Cəbrayıllı tayfasını biz özümüzünkü hesab edirik. Cəfərqulu ağaya da xüsusi ehtiramımızı bildiririk. İnanırıq ki, o, bizə sadiqdir. Biz heç vaxt yol verməriк ki, bizə uzaq-yaxın, aşağı və yuxarı təbəqədən olanlar əziyyət çəksinlər. Allahın mərhəməti ilə biz güclə də olsa imkan verməriк ki, tayfalarımız gavurların [rusların—red.] əlinin altında qalsınlar. Siz hamınız Cəfərqulu ağa ilə birləşin və bizə sadiq olun». Cavanşir tayfasına da bu məzmunda məktub göndərilmişdi. Lakin məktubu Cəbrayıla gətirən şəxslər yolda rus hərbi dəstəsi tərəfindən yaxalandılar. Bu zaman Cəfərqulu ağa mal-qarasını Soltanbud meşəsinin 15 kilometrliyində saxlayan Cəbrayıllı köçərilərin yanında idi və onun Abbas Mirzə tərəfindən məktub göndəriləcəyindən xəbəri yox idi. Buna baxmayaraq o, Ali baş komandan Pauliccinin əmri ilə 1812-ci il yanvarın 12-də

həbs olundu. Köçərilər onu həbs edən rus dəstəsinə müqavimət göstərmək istədikdə Cəfərqulu ağa onları sakitləşdirib dedi: «Mən rus geherallarının etibarını bilirdim. Keçib, sakit olun, bir necə gündən, bəlkə də bir necə saatdan sonra sizin yanınızdayam, sonrasını fikirləşərik. «Köçərilərin yolda basqın edəcəklərindən qorxuya düşən ruslar Cəfərqulu ağanı Tiflisə göndərmək üçün 178 nəfərlik süvari dəstə ayırdılar. Cəfərqulu ağanın mindiyi atın tərkində cəsarətli sayılan bir əsgər oturdulmuşdu. Dəstə Tərtərçayı keçərkən Cəfərquluağa tərkində oturan əsgəri aşırıb çaya saldı, atını çay aşağı sürətlə sürüb gözdən itdi. Onu müşayiət edən dəstəni dəhşət bürüdü. Bir neçə əsgər Cəfərqulu ağanın arxasınca düşdüsə də onu tuta bilməyib geri qayıtdılar. Bu hadisə dəstə komandirini çox əsəbləşdirdi. O, əsgərləri ağır cəza verəcəyi ilə hədələdikdən sonra sanki bir qədər sakitləşib dedi: «Belə işlər olar. Onların igidləri [bu sözü «jiqidı» formasında işlətmişdir] belə olur. Bilmirəm, komandanlığa nə cavab verəcəm?». Cəfərqulu ağa atını birbaşa yenə də Soltanbudda olan Cəbrayıllı köçərilərin yanına gəlir və general Paulicciyə aşağıdakı məzmunda məktub yazır:

«Bilin ki, mən təmiz adamam. Abbas Mirzənin göndərdiyi məktublardan mənim xəbərim yoxdur. Məktubu gətirən şəxs yolda tutulub. Mən yolda qaçdım, başqa yerə getmədim. Yenə də qayıdıb Cəbrayıllıların yanına gəldim. Xain adamların sözünə baxıb məni həbs etdiniz, məni rüsvay etməyin». N. Dubrovin Cəfərqulu ağanın nahaq yerdən həbs edilməsindən danışaraq yazıb ki, Cəfərqulu ağanın himayəsində olan cəbrayıllı tayfası onun həbs olunmasından çox narazı qalmışdı və istər-istəməz onların diqqəti Arazın o tayına [İrana] cəlb edilmişdi». Bu hadisədən sonra Cəfərqulu ağa rus hərbçilərinin ona qarşı haqsızlığına dözməyib Arazın o tayına getməyə məcbur oldu. Sonrakı hadisələr göstərdi ki, Cəfərqulu ağanın Abbas Mirzənin göndərdiyi məktublardan xəbəri yox idi, o, nahaq yerdən həbs edilmişdi. Abbas Mirzə Cəfərqulu ağanı Qaradağ əyalətinin hakimi təyin etdisə də o, bundan imtina etdi və az sonra yenə də Qarabağa qayıtdı.

Maralyan-Aslandüz döyüşü daha dəhşətli oldu. Abbas Mirzə Arazın sağ sahilindəki Aslandüz kəndinin ətraflarına 30 minlik qoşun toplamış, özü isə Arazı keçərək Soltanlı kəndinin əhalisini qovub burada yerləşmişdi. Onun məqsədi rus komandanlığının diqqətini Aslandüzdən yayındırıb Aslandüz-Maralyan istiqamətində qəflətən zərbə endirmək idi. Bu zaman Abbas Mirzənin adamları Arazboyu kəndləri soyur, əhalinin və rus əsgərlərinin atlarını oğurlayıb öz qoşunlarına göndərir, mal-qaranı sürüb aparırdılar. Buna baxmayaraq Ağoğlan təpəsində düşərgə salan polkovnik P. Kotlyarevski İranla Rusiya arasında başlanan sülh danışıqlarını pozmaq üçün heç bir əməliyyata başlamayaraq Abbas Mirzəyə

belə bir məktub yazdı: «Siz şahzadəsiniz. Rusların azlığından istifadə edib böyük qüvvə ilə üstümüzə gəlmək istəyirsiniz, üstəlik atlarımızı da oğurlayıb aparırsınız. Siz böyük nəsildənsiniz, belə hərəkətlər sizə yaraşmaz». Abbas Mirzə məktubu aldıqdan sonra at oğurluğunu qadağan etdi və təcili olaraq Soltanlı kəndindən çıxıb Aslandüzə yollandı. P. Kotlyarevski düşməni qabaqlayıb özü hücuma keçməyi qərara aldı. Lakin 30 minlik İran ordusuna qarşı onun cəmisi 1525 piyada və 495 süvarisi var idi. Ona görə də P. Kotlyarevski qəfil hücum taktikasını seçdi. Bu işdə Maralyan kəndindən Muradxan bəy ona böyük köməklik göstərdi. Bu yerlərə yaxşı bələd olan Muradxan bəyin məsləhəti ilə rus qoşun dəstəsi Cərəkən-Horovlu-Daşkəsən- Quycaq-Maralyan kəndləri istiqamətində hərəkətə başladı və 1812-ci il oktyabrın 18-də dan yeri ağarmamış Arazı keçib Aslandüzə yaxınlaşdı. Bu vaxt Abbas Mirzənin qoşunu hərbi təlimlə məşğul idi. Rusların Arazın sağ sahilində qəflətən görünməsi hərbi məşqlər keçən İran əsgərlərini vahiməyə saldı. Bu çaxnaşmadan istifadə edən rus dəstələri İranlıların üzərinə atıldılar. Üç saat davam edən sünkü döyüşündə İran Ordusu pərakəndə vəziyyətə salındı. Abbas Mirzənin özü bir təsadüf nəticəsində əsir düşmək təhlükəsindən qurtarıb qaçdı. İran Ordusunda istifadə edilən iki ingilis topu ələ keçirildi. 1200-dən çox İran əskəri öldürüldü, 587 nəfər əsir alındı. İran qoşunlarının üç bayrağı rusların əlinə keçdi ki, onlardan biri də Abbas Mirzənin öz şəxsi bayrağı idi. Ruslardan isə ölən 26, yaralanan 99 nəfər oldu. Maraqlıdır ki, bir İran tarixçisi bu hadisəni «taleyin hökmü belə imiş» deyərək Abbas Mirzəyə təskinlik vermişdi. Tədqiqatçı D. Vateyşvili yazır ki, Aslandüz döyüşündə ruslara kömək edən maralyanlı Muradxan bəyə uzun müddət İran məscidlərində lənət oxuyurdular. Aslandüz kəndi İran ərazisində olsa da Brokhauz və Yefronun məşhur «Ensiklopedik lüğət»ində [cild 20, səh. 1893] Aslandüz döyüşü «Cəbrayıl qəzası» məqaləsində verilmiş və çox mühüm bir əməliyyat kimi göstərilmişdir.

Aslandüz qələbəsindən sonra rus hərbi komandanlığı əvvəllərdə Qarabağdan zorla aparılmış yerli əhalinin öz yurdlarına qayıtmaqları ilə məşğul olmağa başladı. Hələ Aslandüz döyüşündən əvvəl zorla İrana aparılmış Cəbrayıl yüzbaşısı Yaqub ağa ruslarla gizli məktub əlaqəsi yaratmışdı. Yaqub ağa bir məktubunda Kotlyarevskiyə yazır ki, «biz cəbrayıllılar böyük həvəslə geri qayıtmaq istəyirik. Bu işdə bizə kömək edin. «Kotlyarebski təcili tədbir görəcəyini vəd etdi. Yaqub ağa Arazın sağ sahilində müxtəlif ərazilərə səpələnmiş cəbrayıllılar və Qarabağın digər elatları ilə əlaqə yaradıb onları Xanbağı dərəsinə topladı. Kotlyarevskinin əmri ilə gürcü qranadyor polkunun komandiri mayor knyaz Abxazov 500 nəfərlik dəstə ilə Maralyan kəndi yaxınlığından Arazı keçərək İranın icərilərinə 15

kilometrə qədər irəliləyib topdan xəbərdarlıq atəşi açdı. Atəş səsini eşidən Yaqub ağa topladığı 811 ailə ilə birlikdə Arazı keçərək Qarabağa qayıtdı. General Rtişşevin 1813-cü il yanvarın 1-də general Qorçakova yazdığı məktubda deyilir: «Abxazovun bu şüçaətinə görə onu təltif etməyinizi və ona podpolkovnik rütbəsi verməyinizi xahiş edirəm. Eyni zamanda xahiş edirəm ki, Cəbrayıl yüzbaşısı Yaqub ağanın da xidmətlərini nəzərə alaraq ona kapitan rütbəsi verəsiniz və pul mükafatı ayırasınız. Akademik Ə. Sumbatzadə də qarabağlıların vətənə qayıtmasında Kotlyarevski və Yaqub ağanın xidmətlərini xüsusi ilə qeyd etmişdir. Keneral Rtişşevin göstərişi ilə İrandan qayıdıb gələn qarabağlılar xanın tabeçiliyinə deyil, hərbi rəisə tabe edilərək öz əvvəlki məskənlərində yerləşdirildilər. 1826-cı il əməliyyatında Cəbrayıldan Qasım bəy, Maralyandan kəndxuda Mövlud bəy, Kərim Məşədi Ağası oğlu və qardaşı Xanəhməd kəşfiyyatçı kimi fəaliyyət göstərirdilər. Kərim Məşədi Ağası oğlu və Xanəhməd Abbas Mirzənin qərargahında vəziyyəti öyrənmək məqsədilə 1826-cı il oktyabrın 1-də qorxu bilmədən Arazı keçib Abbas Mirzənin yanına getdilər və onu inandırdılar ki, maralyanlılar ruslara ərzaq verməkdən imtina etmişlər. Abbas Mirzə onlara inanaraq hətta mükafat da verib yola saldı. Xanəhməd göstərir ki, Abbas Mirzə onlara demişdi ki, şah məni vəliəhdlikdən [Şahlıq taxtının varisliyindən] məhrum etməklə hədələyir, ya gərək öləm, yaxud da səhvimi düzəldəm. Şah hətta istəyir ki, mənim gözlərimi çıxartdırsın. 1826-cı ilin oktyabrın 7-də Qasımbəyin göndərdiyi Mustafa isə Maralyan keçidində İran keşikçiləri tərəfindən tutulur və Xudafərindən 4 verst aralı Arazın sağ sahilində Mahruzlu dərəsində olan Abbas Mirzənin yanına aparılır . Mustafa özünü itirmədən yalandan Kolayboran kəndində Əliqulu adlı bir adama verdiyi borc pulu almağa gəldiyini deyir və Abbas Mirzənin əsgərlərindən olan köhnə tanışı Abdulla Soltan adlı birisini şahid çəkir. Mustafa azad buraxılır. O, gecənin qaranlığında oradan çıxıb Arazı keçir və xəbər gətirir ki, İranlılar Horadiz kəndi istiqamətində hücuma hazırlaşırlar. Ertəsi günü məlum olur ki, düşmən artıq Horadizi tutmuşdur. Mayor Polyakov gürcü Qranadyor polkundan bir batalyon və dörd topla Qarğabazar kəndindən hərəkətə başlayıb şiddətli döyüşdən sonra İran dəstələrini oradan çıxarır. Az sonra tez-tez Cəbrayıl ərazilərinə soxulub Çələbilər, Sirik, Dağtumas kəndlərinin camaatını İrana aparmaq istəyən Çələbilər tayfasının başçılarından Həsənxan Çələbinskinin dəstəsi də zərərsizləşdirildi. Maralyan kəndxudası Mövlud bəyin dəstəsi isə həmin kənd camaatına böyük təhlükə törədən qarabağlı Əlipənah bəyin dəstəsini darmadağın etdi.

1828-ci ildə Türkmənçay sülhünə əsasən sərhəd xəttini müəyyən etmək üçün Xudafərin körpülərinin yaxınlığında rus komandanlığının nümayəndələri ilə Abbas

Mirzə arasında görüş oldu. Bu zaman rus əsgərləri əvvəlcə qəflətən manevr etməyə başladılar. Onlar bu hərəkətləri olduqca cəld icra edirdilər.



Musiqi sədaları altında süvarilər sürətlə çapır, piyadalar çevik hərəkətlərlə addımlayırdı. Rusların bu hərəkəti Abbas Mirzəni, onun oğlanlarını və İran əsgərlərini heyrətə gətirdi. Görüşdə müəyyən edildi ki, Qarabağla İran arasından keçid ancaq Xudafərin körpüsü olacaqdır. Abbas Mirzə sonralar yazırdı ki, mən indi Arazın sağ sahilində ov edərkən 1828-ci ildə Rus əsgərlərinin Arazın o

tayındakı manevrlərini xatırlayıram. Arzu edirəm ki, belə görüşlər yenə də olsun.

Çar hökuməti ölkənin ayrı-ayrı əyalətləri arasında əlaqələr yaratmaq pərdəsi altında 1822-ci ildə Qarabağ xanlığını ləğv edib əyalətə çevirdi. Qarabağ əyaləti Şəki, Şirvan və Talış əyalətləri ilə birlikdə mərkəzi Şuşada yerləşən Müsəlman əyalətləri rəisinə tabe edildi. Əyaləti Qafqaz baş komandanı tərəfindən təyin olunan rus zabiti-komendantı idarə edirdi. Qarabağ əyalətinin keçmişdəki kimi mahallara bölünməsi saxlanıldı. Mahalları hərbi dairə komendantının bəylərdən təyin etdiyi naiblər, kəndləri isə naiblərin təyin etdiyi kəndxudalar və yüzbaşılar idarə edirdilər. Kəndxudaların yanında bir necə onbaşı və yasavul olurdu.

Rusiya—İran müharibələri Cəbrayıl ərazilərinə böyük ziyan vurmuşdu. Taxıl əkilmirdi. Mal-qaranın sayı azalmışdı. Müharibənin gedişi zamanı və sonralar İrandan qayıdıb gələnlər hesabına əhalinin sayı müharibədən sonra artdığından təsərrüfat həyatı bir qədər canlanmışdı. Lakin 1822-ci ildə İran ərazilərindən başlayan çəyirtkə basqınları əkinlərə böyük ziyan vurdu. Onsuz da torpağı az olan kənddilər şiddətli aclıq çəkirdilər. Car hökuməti əhaliyə heç bir maddi yardım göstərmir, əksinə onları müxtəlif vergilər verməyə məcbur edirdi. Rus hərbçiləri də çox haqsızlıqlara yol verirdilər. Onlar 1804 - 1813-cü illərin hərbi əməliyyatlarında fəal iştirak etmiş Cəbrayıl tayfasının başçısı Cəfərqulu ağanı 1822-ci ildə ailəsi ilə birlikdə Simbirski şəhərinə sürgün etdilər ki, bu da yerli əhalinin böyük narazılığına səbəb oldu. 1824-cü ildə Cəfərqulu ağa, keçmiş xidmətləri nəzərə alınaraq Peterburqa göndərildi, ona general-mayor rütbəsi verildi. 1829-cu ildə isə onun Qarabağa qayıtmasına icazə verildi. Çar hökuməti gələcəkdə yerli bəylərdən özünə dayaq yaratmaq məqsədilə Cəfərqulu ağanın oğlanlarını hərbi qulluğa götürdü.

XIX əsrin 30—40-cı illərində Cəbrayıl ərazilərində dənli bitkilər əkini və heyvandarlıq inkişaf edirdi. Türkmənçay sülhünə baxmayaraq İranla sərhəd bağlanmamışdı. Ticarətdə canlanma nəzərə çarpırdı. İsfahandan pambıq, ipək, parça, cadra, istiot, sarıkök, İran qəndi, Təbrizdən bez, qanovuz, limon, portağal, parça, saqqız və s. gətirilirdi. Xudafərin körpüləri vasitəsilə İrana Şəkidən silah, Gəncədən meyvə, Cəbrayıldan xalça məmulatı aparılırdı. Xarici ticarətə nəzarət etmək üçün hələ əvvəllərdə Xudafərində fəaliyyət göstərən gömrükxana yenidən təşkil edilərək 1831-ci ildə Cəbrayıl Gömrük kontoruna çevrildi və o, sonralar İrandan mal-qara xəstəliyinin qarşısını alan karantin məntəqəsi ilə birləşdirilib Karantin - Gömrük zastavası adlandırıldı. 1861-ci ildə zastava daha da genişləndirilib Karantin - Gömrük kontoruna çevrildi. Əkər xanlıq dövründə gömrükxanalarda azərbaycanlılar işləyirdisə sonralar onlarda əsasən ruslar

işləməyə başladı. XIX əsrin 40—50-ci illərində təsərrüfat həyatında dirçəliş nəzərə çarpsa da əhali müstəmləkə zülmündən, yerli məmurların özbaşınalıqlarından və qaçaq-quldur əlindən təngə gəlmişdi. Cəbrayıl ərazilərinə yaxşı bələd olan görkəmli Azərbaycan şairi Qasımbəy Zakir dostu M. F. Axundova yazdığı mənzum məktubda Cəbrayıl hakimi Cəfərqulu ağanın zamanında əhaliyə edilən zülmü və Arazboyu kəndlərdə quldurların soyğunçuluq hərəkətlərini belə təsvir etmişdir:

Bidətin yandırıb qövmi-əshabı,
Müşküldü gətirmək bu zülmə tabı,
Düşüb Cəbrailli, Maralyan, Babı, Horadiz.
Qoyucaq dərbədər səndən.
Belə vilayəti dağıtsın tarı,
Ziyadə məğşuşdur Araz kənarı,
Xurdapara, Babı, Qarqabazarı,
Maralyan, Horadiz, Nəziyar, Qoyucaq.

[1] *Qoyucaq — Qoyucaq kəndi.*
[2] *Xurdapara — Xırdapara olmalıdır.*
[3] *Nəziyar — Nüzkar kəndi.*

# CƏBRAYIL QƏZASI

1841-ci ildə Qarabağ əyaləti, o cümlədən Cəbrayıl ərazisi mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətidən, 1846-cı ildə isə yeni yaradılan Şuşa qəzasının tabeliyinə verildi. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tabeliyindən çıxarılıb Yelizavetpol [Gəncə quberniyasının tərkibində müstəqil Cəbrayıl qəzası təşkil edildi. Qəzanın məhz Cəbrayılda yaradılması təsadüfi deyildi. Şuşa qəzasının ərazisi böyük olduğundan qəza idarələri yerlərlə, xüsusilə Cəbrayılın Arazboyu məntəqələri ilə əlaqə saxlaya bilmirdi. Cəbrayıl kəndi strateji cəhətdən çox mühüm yerdə olduğundan rus hərbi qarnizonu hələ 1802-ci ildə burada hərbi şəhərcik salmışdı, Xudafərin karvan yoluna nəzarət edən Karantin - Gömrük idarəsi, və çar hökumətinin müvəkkili bu kənddə yerləşirdi.

Cəbrayıl qəzasının sahəsi 66,3 min kv. km, əhalisi 66.360 min idi [1897-ci il] Qəza indiki Cəbrayıl, Füzuli, Hadrut rayonlarını, Qubadlı rayonunun Xanlıq kəndindən Araza və oradan da Zəngilan rayonunun Bartaz kəndinə qədər əraziləri əhatə edirdi. Qəzanı Yelizavetpol qubernatoru tərəfindən təyin edilmiş rəis - rus zabiti idarə edirdi. Onun müavini, xəzinədarı, polis idarəsi, poçt-teleqraf kontoru, meşəbəyiliyi, məhkəmə idarəsi və s. var idi. Bunlarda əsasən mürtəcə əhval-ruhiyyəli rus məmurları qulluq edirdilər. İnzibati idarələrdə az miqdarda yerli əhalidən də işləyənlər var idi.

Qəza Cəbrayıl, Horadiz və Bəhmənli polis məntəqələrinə bölünmüşdü. Sonralar Xanlıq və Bartaz kəndləri olan zonalarda da dairələr təşkil edildi. Polis məntəqələrini qəza rəisinin təyin etdiyi pristavlar kəndləri isə yüzbaşılar, kəndxudalar və bəylər idarə edirdilər. 1887-ci ildə Cəbrayıl-Ağdam poçt yolu salındı.

Çar hökumətinin 1861-ci ildə keçirdiyi torpaq islahatı kəndlilərə heç nə verməmişdi. Onlarla «öl, ancaq borcunu ver» prinsipi ilə rəftar edilirdi. 1870-ci ildə keçirilən torpaq islahatına görə kəndlilər bəylərin şəxsi asılılığından azad edilmiş, onlara torpaq sahələri verilmişdi. Lakin bəy və mülkədarlara yararlı torpaqların üçdə bir hissəsini öz ixtiyarlarında saxlamaq və 5 desyatindən çox olan kəndli torpaqlarının «artığını» kəsmək hüququ verilmişdi. Ona görə də kəndlilərin islahata qədər istifadə etdikləri pay torpaqlarının çox hissəsi onların əlindən alındı, torpaqsız kəndlilərin sayı artdı. Beləliklə kəndlilər bəylərin asılılığından əslində torpaqsız «azad» edilmişdilər. Çünki onların torpaq payları yenə də bəy və mülkədarların mülkiyyəti olaraq qalırdı. Kəndlilər əkinə yararlı torpaq sahəsini məhsulun iyirmidə bir, onda bir və beşdə bir hissəsini, bağ və bostan məhsulunun

dörddə bir, üçdə bir, bəzən də hətta altıda bir hissəsini torpaq sahibinə vermək şərti ilə icarəyə götürürdülər.

XIX əsrin 70 - 90-cı illərində qəzada kəndlilərin pay torpaqlarının xüsusi torpaq sahibləri tərəfindən zəbt edilməsi halları daha da çoxalmış, bunun nəticəsində də kəndlilərin istifadəsində olan pay torpaqları xeyli azalıb adambaşına 0,79 desyatinə enmişdi. Akademik Ə. Sumbatzadə göstərir ki, XIX əsrin ikinci yarısında Cəbrayıl qəzasında dörd kəndin camaatının torpağı tamamilə yox idi. Qəzada yeddi kəndin əhalisinin hər birinin 0>25 desyatin, 32 kəndin 0,15-0,25 desyatin, 9 kəndin 0,05-0,75 desyatin, 8 kəndin 1-2 desyatinə qədər torpağı var idi. Qəzada çoxtorpaqlı kəndlilər olsa da 58 kəndin camaatının minimum torpağı yox idi. XIX əsrin 80-90-cı illərində köçərilər də torpaqları özbaşına tuturdular. XIX əsr müəllifi İ. Seqal yazır ki, mənim şəxsən gördüyüm odur ki, Cəbrayıl qəzasında 1886-cı ildə yaylaqdan hamıdan tez qayıdan köçərilər istədikləri torpağı tutur, buranın əvvəlki sahibləri isə gedib başqa torpaqları ələ keçirirdilər. Bu kimi hallar çox vaxt toqquşma ilə nəticələnirdi. Torpağı zəbt edən şəxs onu əsas tuturdu ki torpaq allahındır, kim ilk dəfə oranı tutarsa, həmin sahə də onundur və bu, onun hüquqi əsasıdır. Kənd təsərrüfatında ümumi gerilik hökm sürdüyü bu dövrlərdə. qəzanı gəzmiş İ. Seqal daha sonra yazır ki, burada çox az adamın torpağı və pulu vardır, əhalinin vəziyyəti ağırdır. Bunun bir səbəbi də o idi ki, 1880-ci ildə İrandan çəyirtkə basqını, onun ardınca bərk dolu düşməsi nəticəsində əkin sahələri tamamilə məhv olmuşdu. 1897-ci ildə Araz çayının daşması ətraf kəndlərə daha çox ziyan vurdu. Məhsulsuzluğun digər səbəbi isə torpağın ibtidai üsulla - boyunduruqlu xışla şumlanması idi. 1899-cu ildə qəzada cəmisi bir kotan var idi.

Azərbaycanın hər yerində olduğu kimi Cəbrayıl qəzasında da maldarlıq əkinçilikdən sonra əsas təsərrüfat sahələrindən biri idi. Rus - İran müharibələri maldarlıq təsərrüfatına da ağır zərbə vurmuşdu. Bununla belə qoyunçuluq inkişaf edirdi. XIX əsrin 80-ci illərində Nuxa qəzasında əhalinin 2,8, Ərəşdə 3,8, Lənkəranda 9,8, Şuşada 36,1, Cavadda 36,1, faizi heyvandarlıqla məşğul olaraq yarımköçəri həyat sürürdüsə, Cəbrayıl qəzasında yarımköçərilərin sayı 42,4 faiz idi. Burada da maldarlıq təsərrüfatı tarixən oturaq və köçmə [köçəri yox, köçmə kursiv bizimdir] formalarında olmuşdur. Bu o deməkdir ki, köçərlik edən xalqlarının daimi yaşayış məskəni olmadığı halda Cəbrayıl köçəri elatlarının daimi yaşayış yerləri var idi. Cəbrayıllılar mal-qaranı yaylaq və qışlaq şəraitində saxlayırdılar. İsti vaxtlarda mal-qaranı Əsgəran qalasının aşırımlarında, Zəngəzur, Şuşa və Şərur-Dərələyəz qəzalarının yaylaqlarında, qışda isə öz daimi yaşayış yerlərinə yaxın olan örüşlərdə - Araz çayı sahillərində, Mil-Muğan düzündə, Ağ

oyuq və Haramı düzlərində saxlayırdılar. Tədqiqatçı X.Xəlilovun qeyd etdiyi kimi yaylağa və arana köçmə işi çətin olsa da şən bir hadisə idi. Köçməmişdən əvvəl ailələr bir-birinə kömək məqsədi ilə tirə, oymaq və məhəlli halında birləşib oba yaradır, ona nüfuzlu adamlardan obabaşı seçir, köçün vaxtını təyin edir, həmin gün də yola düşürdülər. Əvvəlcə dəvə karvanı, sonra yüklənmiş atlar və öküzlər yola düşür, uşaq və qadınlar dəvələrə və atlara minirlər. Sonra qoyun sürüləri gedir, müəyyən edilmiş yerlərdə yüklər açılır, adamlar istirahət edir, heyvanlar otlayır, tədricən iqlimə uyğunlaşaraq yenidən yola düşürlər. Arana köçmə də bu qaydada olurdu. Rus-İran müharibələri atçılıq təsərrüfatına da böyük ziyan vurmuşdu. «Qafqaz» qəzetinin [1879, 28 noyabr] verdiyi məlumata görə Əlibəy Cəbrayılskinin məşhur at ilxısı dağılmışdı. Buna baxmayaraq atçılıq inkişaf etdirilirdi. 1884-cü ildə qəzada 2020 baş at olduğu halda 90-cı illərin əvvəllərində onların sayı 3248-ə çatdırılmışdı. Bunlardan 2911-i kəndlilərin, 337-si mülkədarların idi. Bu dövrdə qəzada altı iri at ilxısı var idi. Cəbrayıllı Səlimbəy Rüstəmzadənin at ilxısı daha məşhur idi.

Rusiyada ipək sənayesinin artan tələbi ilə əlaqədar olaraq baramaçılıq da inkişaf etdirilirdi. 1850-ci ildə Cəbrayıl gömrükxanasının yaxınlığında, Çaylaq dərəsi ətraflarında geniş sahədə salınan tut bağları baramaçılığın inkişafına şərait yaratmışdı. XIX əsrin 80-ci illə- rində qəzanın 90 kəndində - bütün kəndlərin üçdə ikisində barama saxlanılırdı. Əfəndilər, Süleymanlı, Daşkəsən, Cəbrayıl, Çaxırlı və s. kəndlərdə yüksək keyfiyyətli barama əldə edilirdi. 1884-cü ildə qəzada 24.580 pud, 1885-ci ildə 24.280 pud, 1898-ci ildə 22.680 pud barama istehsal edilmişdi. XIX əsrin sonlarında ticarətdə sələmçilik kapitalı ipəkçiliyə də soxuldu. Tacirlər və onların agentləri kəndləri gəzir, pula ehtiyacı olan əhalidən aşağı qiymətə barama alırdılar. Kəndlilər sələmçilərdən borc pul da alır, sələmçilər isə barama yetişən kimi borcluların başının üstünü kəsib baramanı istədikləri qiymətə alırdılar. Bu zaman kəndlilər yenidən borc alır və beləliklə də sələmçilərdən tam asılı vəziyyətə düşürdülər.

XIX əsrdə Cəbrayılda xalçaçılıq sənəti də geniş yayılmışdı. Xalçaçıların

Əzizim xalı görüm,
İstərəm xalı görüm.
Oturaq bir yan-yana,
Toxuyaq xalı görüm.

— mahnısını oxuya-oxuya böyük ustalıqla toxuduqları xalçalar, naxışlı kilimlər,

cecimlər ən qiymətli sənət nümunələri idi. Cəbrayıl xalçaları Azərbaycan xalçaçılıq məktəbində ayrıca bir qrup təşkil edərək məşhur «Qarabağ» növünə daxil idi. Cəbrayılda yundan və ipəkdən müxtəlif xalçalar toxunurdu. Cəbrayıl xalça qrupu qız-gəlinlərin ilmə-ilmə, naxış-naxış, toxuduqları «Qasımuşağı», «Xanlıq», «Kürd», «Qara-qoyunlu», «Bəhmənli» adlı xovlu-xovsuz xalçaları, kilim, palaz, cecimləri ilə məşhur idi. XIX əsrdə Cəbrayılda toxunan həndəsi ornamentli cecimlər Azərbaycan xovsuz xalçalarının ən gözəl nümunələri sayılırdı. Görkəmli sənətşünas L. Kərimov yazır ki, Cəbrayılın Mirzəcanlı, Əfəndilər, Daşkəsən və Süleymanlı kəndlərində toxunan xalçalar ən gözəl xalçalar hesab edilir, dünya bazarlarına və yarmarkalarına göndərilirdi. Yazılı mənbələrdə Cəbrayıl qəzasında Yasəmən Aslan qızı, Nabat Abasqulu qızı, Səadət Yusif qızı, Xanım Əsəd qızı və başqa mahir gəbə ustalarının adları çəkilir. 1889-cu ildə Qafqaz sərgisində [Tiflisdə] Cəbrayıl qəzasından 15 ədəd müxtəlif xalça, 9 ədəd palaz, 2 çuval, 6 at çulu, 6 məfrəc, 6 vərni, 7 zili nümayiş etdirildi. Onlardan Cəbrayıllı Mehdi Mirkişi oğlunun nümayiş etdirdiyi at çulu, Fərcan İmanqulu qızının yüksək keyfiyyətli gəbəsi gümüş medal və həvəsləndirici fərmanlarla təltif olunmuşdu. Cəbrayıllılar İrandan müxtəlif boyaq maddələri gətirib keyfiyyətli boyaqlar hazırlayır, özləri də qırmızıya calan sarı rəng almaq üçün dəvəqulağının kökündən istifadə edirdilər. 1878-ci ildə cəbrayıllı hacı İskəndər Məhərrəm oğlunun ilk dəfə olaraq bütün şərqdə məşhur olan indiqo [tünd göy] boyasından iki çuval İrandan Cəbrayıla gətirməsilə gəbə toxumaq üçün tünd göy boya almaq dəb düşdü. Ona görə də alman şərqşünası Y. Q. Litteman 1969-cu ildə tərtib etdiyi «Dünyanın xalça xəritəsində» Cəbrayılı dünyada ən gözəl xalça toxunan mərkəzlərdən biri kimi qeyd etmişdir.

XIX əsrin ikinci yarısından başlayaraq əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq qəzada barama qurudan və ipək əyirən fabriklər, yağ-pendir hazırlayan sexlər, boyaqçılıq, çəkməçilik, dəmirçilik, nalbəndlik, dərzilik və s. peşələr üzrə sexlər meydana çıxdı. Onların sayı 1896-cı ildə 84-ə çatırdı. Həmin ildə bu müəssisələrdə 264, 1898-ci ildə isə 314 fəhlə işləyirdi. XIX əsrin 80-ci illərində qəzada 5 baramaqurudan sex işləyirdi. Onlardan biri Qarakollu, biri Pirəhmədli, biri Daşkəsən, ikisi Cəbrayılda yerləşirdi. 1895-ci ildə sexlərin sayı 12-yə çatmışdı. 1890-cı ildə Cəbrayılda buxarla işləyən ipəkəyirici və sarıyıcı fabrik quruldu. Burada 10 dəzgahda 13 fəhlə sutkada 14—15 saat işləyir, ancaq bir saat fasiləyə çıxırdılar. Kündəlik zəhmət haqqı 15—30 qəpik idi. 1893-cü ildə ipəkəyirici müəssisələrin sayı 2, onlarda işləyən fəhlələrin sayı 47 nəfər olduğu halda 1895-ci ildə müəssisələrin sayı 5-ə, fəhlələrin sayı 140-a çatmışdı.



Ticarət də inkişaf edirdi. 1897-ci ildə Cəbrayıl Karantin-Gömrük kontoru Bakı Karantin-Gömrük idarəsinin tabeliyinə verildi. Kontorun Maralyankəndində və Xudafərin körpüsündə postları var idi.

Həmin postlarda dövlət malı 18 gün, şəxsi mallar bir ay saxlanılırdı. Bu müddətdə gömrük idarəsi öz agentləri vasitəsilə hər yerə xəbər verib malların oğurluq, yaxud da mübahisəli olub-olmaması öyrənilir, sonra isə sahiblərindən gömrük haqqı alınıb silahlı dəstənin müşayiəti ilə İrana gedənlər Maralyan və Xudafərin postlarına, Qarabağa gələnlər isə Şuşa, Yevlax və s. yerlərə yola salınırdı. Gətirilən mal-qara da karantin məntəqəsində saxlanılıb yoxlamadan keçirilirdi. Karantin-Gömrük kontorunun bir kündə təxminən 140 manat gümüş pul gəliri olurdu. Ticarətdə əsasən karvan ticarəti mühüm yer tuturdu. Bir karvan boyunlarında zınqrov asılmış 30—40 dəvədən təşkil olunur və qatarlara bölünürdü. hər qatarda yeddi dəvə olurdu. Qatarları nökərlər, bütün karvanı isə karvanbaşı-sarvan idarə edirdi. Cəbrayıl əraziləri vasitəsilə karvan yolları hələ qədim zamanlardan var idi. XVIII əsrdə Şamaxı-Cavad-Xudafərin, İran-Böyük Maralyan-Cəbrayıl, Böyük Maralyan- Meşkin-Dori-Təbriz və Xudafərin-Böyük Maralyan-Cəbrayıl karvan yolları fəaliyyət göstərirdi. XIX əsrdə isə əsas karvan yolları Şuşa-Ağdam-Qarabulaq-Cəbrayıl yolu idi. Təbriz-Cəbrayıl karvan yolu daha işlək idi. İranla Qarabağ arasında digər bir karvan yolu da Böyük Maralyan kəndindən keçir və

Cəbrayıla yollanırdı. Karvanları qaçaq-quldurlardan mühafizə etmək üçün onlar xüsusi silahlı dəstələr tərəfindən müşayiət edilirdi. XIX əsrdə Kərbalayi Məhəmməd, Kərbalayi Mürsəl və başqaları öz süvari dəstələri ilə karvanları mühafizə etməkdən ötrü karvanbaşılardan xeyli pul almaqla çox varlanmışdılar. Təkcə 1851-ci ildə Cəbrayıl ərazilərindən 110-a qədər karvan keçib getmiş, 600000 manat gümüş pul dəyərində mal gətirilmişdi. XIX əsrdə İranla ticarətin vəziyyətini aşağıdakı cədvəldən görmək olar:

| İllər | İrandan Cəbrayıla gətirilən mallar [manatla] | Cəbrayıldan İrana göndərilən mallar [manatla] |
|---|---|---|
| XIX əsrin 30-cu illəri [bir ildə] | 140.000 | məlumat yoxdur |
| XIX əsrin 40-cı illəri [bir ildə] | 246.000 | məlumat yoxdur |
| 1850 | 102.118 | 20.880 |
| 1884 | məlumat yoxdur | 131.027 |
| 1891 | 668.400 | 204.237 |
| 1889 | 164.807 | 879.100 |
| 1899 | 164.804 | 37.910 |

İranla ticarətdə karvansaralar gəlir mənbəyinə çevrilmişdi. O zaman Xudafərində və Cəbrayılda xüsusi karvansaralar fəaliyyət göstərirdi. Cəbrayılda karvansara əvvəllər Veysəlli kəndinin yaxınlığında yerləşirdi. Sonralar Cəbrayıla köçürüldü. Karvansara sahibləri Məşədi Ədil, Məşədi Ələskər xeyli qazanc götürürdülər. Karvanlar və tacirlər karvansaralarda dayanıb istirahət edir və qaldıqları günlər üçün haqq ödəyirdilər. Karvansaralarda yatmaq və yemək üçün hər cür şərait var idi. Cəbrayıl Karantin-Gömrük idarəsi vasitəsilə 1886-cı ildə 380, 1887-ci ildə 457 tacir İranla ticarətdə iştirak etmişdi. Onların əksəriyyəti Şuşa tacirləri idi. 1850-60-cı illərdə Cəbrayıldan Məşədi Qurban, Kərbəlayi İbrahimxəlil, Kərbəlayi Hüseynalı XIX əsrin sonu XX əsrin əvvəllərində Ələskər Kərbəlayi Hüseynqulu oğlu Məşədi Məhəmmədhüseyn, Məşədi İsmayıl, Məşədi Allahverdi, Məşədi Abış, Maralyan kəndindən Sadıq Əbülhəsən oğlu, Daşkəsən

kəndindən Məşədi Mehdi, Məşədi Kəlbəli və b. İran və Yaxın Şərqin başqa ölkələri ilə ticarətdə daha mühüm rol oynayırdılar. Hər tacirin mal aparıb gətirməsi üçün müəyyən norma var idi. Məsələn, İsfahandan 10 yük parça, 200 ədəd çadra, 12 pud İran qəndi gətirilə bilərdi və s.

1876-cı ildə ticarətdə tacirlər təbəqəsi birliyindən şəhadətnamə [kildi] almaq qaydası tətbiq edildi. Birinci kildi tacirlər istədikləri mallarla Rusiyanın hər yerində, ikinci kildi tacirlər isə xırda alverçilər olub ancaq qəza daxilində alverlə məşğul ola bilərdilər. Cəbrayıldan Məşədi Məhəmmədhüseyn və Məşədi Abış birinci kildi olan tacirlər idi. Kapitalizmin inkişafı ilə əlaqədar olaraq XX əsrin əvvəllərində kildi qaydası ləğv edildi. 1895-ci ildə qəzada üç yerdə - Cəbrayıl, Qarabulaq və Qarğabazar kəndlərindəki həftəbazarlar daha məşhur idi. 1898-ci ildə Cəbrayılda mal bazarı da var idi. Bu bazarların hər birinə həftədə təxminən 196 min manatlıq mal çıxarılır, ondan 174 min manatlığı satılırdı. Ticarət əsasən mübadilə üsulu ilə aparılırdı. 1840-cı ildən etibarən bazarlarda rus pulları işlənməyə başladı.

Cəbrayıl kəndi qəza mərkəzi olduqdan sonra daha da böyüyürdü. XIX əsrin 70-ci illərində iki dəfə Cəbrayılda olmuş N. Kokcayevin verdiyi məlumata görə o dövrdə Cəbrayıl kəndi əsasən iki dərənin - Dəyirman və Çaylaq dərələrinin arasındakı təpəlikdə [Yarəhmədli kəndindən indiki avtovağzal binasına qədər olan təpəlikdə] yerləşirdi. Kəndin içərisi, ətrafları və hər iki dərə səliqə ilə salınmış nar, tut, qoz əncir, üzüm bağları ilə örtülü idi. Hələ XVIII əvvəllərindən başlayaraq Şuşa və İran tacirləri və sənətkarlarından bəzilərinin məskunlaşıb qalmaları ilə əlaqədar olaraq Cəbrayıl sonralar daha da böyüdü. O zamandan başlayaraq Cəbrayıl «Çökək» və «Yuxarı» adlı iki məhəllədən ibarət orta əsr şəhərciyini xatırladırdı. Çökək məhəllədə əsasən şuşalılar [onlara «qalalılar» deyilir], yuxarı məhəllədə isə İrandan gələn azərbaycanlılar yaşayırdılar. Cəbrayılın böyüməsi ilə əlaqədar olaraq burada əhalinin sayı artmış, tərkibi də dəyişmişdi. 1872-ci ildə Cəbrayılda 296 nəfər, Mirzəcanlı kəndində 259, Yarəhmədli kəndində isə 196 nəfər əhali yaşayırdı. 1874-cü ildə ermənilər Cəbrayılda ilk dəfə olaraq şərab dükanı [bufet] açdılar. Birinci kildi tacir Məşədi Abış Cəbrayılın XIX əsrin sonu və XX əsrin əvvəllərini belə xatırlayırdı: «Mən o dövrlərdə xırda alverlə məşğul olurdum. Sonralar birinci dərəcəli [kildi] tacir oldum. O zamanlar səhər açılan kimi hamı - alverçilər, sənətkarlar iş yerinə tələsir, gəlib dukanlarını, sexlərini açıb içərisini, həyət-bacasını səliqə ilə sulayıb süpürür, öz işlərinə başlayırdılar. hər alverçinin özünəməxsus ticarət mədəniyyəti var idi. Tək-tək alverçi kələkbazlıqla məşğul olur, müştəriləri aldadırdı. Belə alverçiləri hamı tanıyır, ancaq istədikləri

mal başqa dükanlarda olmadıqda onlardan mal alırdılar. Əksəriyyət alverçilər öz işlərində düzlüyü sevirdilər. Onlar öz mallarını istədikləri qiymətə satsalar da alıcıları ölçüdə-çəkidə aldatmağı «haram» bilib əliəyriliyə yol vermirdilər. Hər alverçinin öz müştərisi var idi. Onları özlərindən uzaqlaşdırmamaq üçün malı nisyə də verib adlarını dəftərlərində yazırdılar. Cəbrayılda xüsusi pitiçilər [piti bişirənlər], çörəkçilər və çayçılar var idi. Onların bişirdikləri xörəyin, çörəyin, dəmlədikləri çayın ətri adamı kənardan vururdu. Qocalar çayxanalarda oturub məxməri çay içə-içə keçmişdən, gələcəkdən şirin-şirin söhbət edirdilər. Həftəbazarı olan günlər Cəbrayıl daha haylı-küylü olurdu. Buraya İrandan və digər uzaq ölkələrdən, kəndlərdən bir gün əvvəl gəlib karvansaralarda qalır, ertəsi gün tezdən alver edib qayıdırdılar. İçki zəhrimarı ilk dəfə ermənilər bura gətirmişdilər. Onlar ayrıca dükan açıb şərab və araq satırdılar. Əsasən rus və qeyri millətlərdən olanlardan bəziləri burada içib sərxoş olur, camaatın dincliyini pozurdular. Küçədə sərxoş adam görünən kimi alverçilər və sənətkarlar öz dükanlarını tələsik bağlayıb evlərinə qaçırdılar. Hökumət qulluqçuları tərəfindən heç kəs sərxoş adamlara bir söz də olsun demirdi. Polislər özlərini istədikləri kimi aparırdılar. Onlar səhər tezdən atlı, yaxud da piyada küçələrə çıxır, adamlara, xüsusi ilə İrandan gedən alverçilərə göz qoyur, taqsırı olub-olmamasından asılı olmayaraq xoşları gəlməyənləri şallaqla döyə-döyə polis məntəqəsinə aparır, bir şeylərini qoparıb sonra buraxırdılar. Polisin özbaşınalığından şikayət edənlərin özlərini ölüncə döyüb yola salırdılar. Polis idarəsində kim nə istəyir onu da edirdi. Polis idarəsində özbaşınalıq hökm sürdüyünə görə, cinayətkarlıq artmışdı. Təkcə 1895-ci ildə müxtəlif cinayətlər üstündə 251 nəfər həbs edilmişdir ki, onların da 36-sı ölüm, 43-ü oğurluq, 62-si basqınçılıq üstündə tutulmuşdular. Əhali çarizmin müstəmləkəçilik siyasətinə, polis idarəsinin özbaşınalığına və süründürməçiliyinə qarşı mübarizə aparırdı 1895-ci ildə polisi özbaşınalığına qarşı müqavimət üstündə qəzada 16 nəfər həbs edilmişdi. Kəndlilər mülkədarların özbaşınalığına müqavimət göstərirdilər. XIX əsrin ortalarında Kavdar kəndindən Cəbrayıla gəlmiş Məmmədbəy Mirzəcanlı kəndinin camaatı ilə razılaşaraq onların köməyi ilə kəndin yuxarı tərəfində kəhriz vurdurmuşdu. Kəhrizin suyu bol olduğuna görə Məmmədbəy su dəyirmanı tikdirmək istədikdə Mirzəcanlılar onun bu fikrinə qarşı çıxaraq su dəyirmanı tikilməsinə razılıq vermədilər. Çünki su dəyirmanı tikilərdisə kəndin içərilərinə kəhrizin suyunu aparmaq çətinləşərdi. Məmmədbəy camaatın tələbi ilə razılaşmağa məcbur oldu və kəhrizin suyu ancaq camaatın istifadəsinə verildi.

Azərbaycan xalqının igid oğulları Qaçaq Nəbi [Qubadlı] və Qaçaq Süleyman

[Füzuli] Cəbrayıl kəndlərini də gəzir, camaatı polis məmurlarına və yerli hakimlərə qarşı mübarizədə cəsarətli olmağa çağırırdılar. Çar məmurları, bəylər və yüzbaşılar Qaçaq Nəbidən, Qaçaq Süleymandan bərk ehtiyat edirdilər. Qaçaq Nəbi bəzən kasıb kəndlilərə kağız yazıb verir və deyirdi ki, bu məktubu filan yüzbaşıya verərsən, səndən vergi almaz, səni incitməz. Məktub yüzbaşıya, yaxud da kəndxudaya çatdıqda onlar Qaçaq Nəbinin sifarişinə sözsüz əməl edirdilər. Çar məmurları həmişə çalışırdılar ki, Qaçaq Nəbi və Qaçaq Süleymanla yaxınlıq etsinlər. Bu cəhətdən Tinli kənd sakini Həmid Quliyevin danışdığı əhvalat maraqlıdır. Bir dəfə Tinli kəndinin hörmətli adamlarından olan Qaraş 10 baş qoyun kəsib Qaçaq Süleymanın dəstəsinə göndərir. Bunu eşidən pristav Qaraş kişini çağırıb soruşur:

— Sən Qaçaq Süleymanın əlahəzrət çarın düşməni olduğunu bilirsənmi?

Qaraş kişi cavab verir ki, bəli, bilirəm. Pristav daha da əsəbiləşərək soruşur:

— Bilirsənsə, nə cəsarət edib Qaçaq Süleymanın adamlarına 10 qoyun kəsib göndərmisən?

Qaraş kişi halını pozmadan deyir:

— Cənab pristav, onu da bilirəm ki, siz hər gecə Qaçaq Süleymanla nərd oynayırsınız.

Bu sözləri eşidən pristav Qaraş kişinin ayağına düşür:

— Qaraş kişi, səni and verirəm allaha, sənin Qaçaq Süleymana 10 qoyun göndərməyin də, mənim onunla nərd oynamağım da elə buradaca ikimizin arasında qalsın, get, işində ol .

1892-ci ildə Cəfərqulu ağanın nəvəsi Mirzə Hüseyn ağa Cavanşir çar hökumətinin Cəbrayıl nahiyəsi üzrə müvəkkili təyin edildi. O, Ziyarət dağının ətəklərindən Araz çayına qədər azərbaycanlılar və ermənilər yaşayan bütün kəndlərin mütləq hakimi idi. Hüseyn ağa Şahvələdli kəndinin cənub tərəfində kəhriz vurdurub suyunu saxsı borularla Cəbrayıla gətirdi, suyun bir hissəsi Dəyirman dərəsi ilə Yarəhmədli kəndinə aparılırdı.

Çar hökuməti ucqarlarda maarifin inkişafına fikir vermirdi. Buna baxmayaraq XIX əsrdə Azərbaycanın hər yerində olduğu kimi Cəbrayıl qəzasında da mütərəqqi adamlar dünyəvi elmləri öyrədən yeni tipli məktəblər açılmasını tələb edirdilər. Nəhayət, 1876-cı ildə avqustun 5-də Cəbrayıl kəndində bir sinifli normal rus məktəbi açıldı. Məktəbdə əsasən çar məmurlarının və yuxarı təbəqələrdən olanların uşaqları oxuyurdular. Məktəbdə Azərbaycan və rus dilləri, hesab, hüsnxət, eləcə də şəriət dərsləri tədris edilirdi. Uzaq yerlərdən gələn uşaqlar üçün yataqxana təşkil edilmişdi. Təhsil haqqı hər uşaq üçün ildə üç manat, yataqxana xərci altı manat idi.

Müəllimlərin zəhmət haqlarının bir hissəsini əhali ödəyirdi. 1884-cü ildə həmin məktəb ikisinifli məktəbə çevrildi. Məktəbi bitirən bəy uşaqlarına «məmur», kəndli uşaqlarına «mirzə» adı verilirdi. Məktəbdə şagirdlərin sayı getdikcə artırdı. 1876-cı ildə 34 şagird oxuduğu halda, 1895-ci ildə onların sayı 91-ə, 1886-ci ildə isə 117-ə çatmışdı. Lakin azərbaycanlı uşaqların sayı az idi. 1895-ci ildə 91 şagirddən ancaq dördü azərbaycanlı, qalanı isə rus, erməni, yəhudi və s. millətlərdən idi. XIX əsrin 90-cı illərində qəza müəllimlərinin qurultayı bu məktəbdə keçirilmişdi. Məktəbin ilk müəllimi və müdiri E. Q. Divanov, sonralar S. Rüstəmbəyov və başqalarının adları Cəbrayıl maarifinin tarixində fəxri yer tutur. 1880-cı illərdə qəzanın Qarğabazar, Qarabulaq, Horadiz, Bəhmənli və Hadrut kəndlərində də ümumtəhsil məktəbləri açıldı. 1893-94-cü tədris ilində qəzanın bütün məktəblərində 340 şagird təhsil alırdı ki, onlardan da 72 nəfəri qız idi. Məktəblər yararsız binalarda yerləşir, müəllim kadrları çatışmırdı. 1893-1894-cü illərdə qəzada 6 kənddə mollaxana tipli məktəb var idi. Onlarda əsasən şəriət dərsləri keçilsə də uşaqlar dini biliklərlə yanaşı Şərqin böyük şairi Sədi Şirazinin «Gülüstan» və «Bustan» poemaları və başqa əsərlərlə də tanış olurdular. Bütün bunlara baxmayaraq 1897-ci ildə qəzada 66.360 nəfər əhalinin yalnız 3,4 faizi az-çox savadlı idi. Əhalinin əksəriyyəti dindar idi. Məhəmmədhəsən bəy Baharlının verdiyi məlumata görə Daşkəsən, Horovlu, Cəfərabad, Karxulu, Nüzgar, Qaradərə kəndlərinin camaatı dördüncü xəlifə Əlini allah dərəcəsinə qaldıran Əli-allahilər təriqətinə mənsub idilər. Onlarda Əlinin adı ilə bağlı bütün rəvayətlərə möhkəm inam var idi. Bu cəhətdən aşağıdakı əhvalatlar maraqlıdır. 1887-ci ildə İrandan bir dərviş üzərində at ayağının təsviri olan bir daşı gətirib Daşkəsən kəndinə gedən yolun kənarında qoyub, camaata elan edir ki, bu daşı şiələrin birinci imamı Əli şəxsən özü ona vermişdir. Bir neçə gündən sonra həmin dərviş özü də o daşı oğurlayır. Camaatı dəhşət bürüyür, elə hesab edirlər ki, dərvişə lazımi hörmət edilmədiyinə görə Əlinin onlara qəzəbi tutub. Təsadüf elə gətirir ki, həmin il Daşkəsən kəndində vəba xəstəliyi yayılır. Camaat bu xəstəliyin allah tərəfindən «bəla» kimi göndərildiyini zənn edir, dərvişə xeyli mal-pul verib yola salırlır. 1889-cu ildə İrandan Horovlu kəndinə iki şəxs gəlib camaata xəbər verir ki, dünya dağılacaq, mal-dövlətinizi satın, pullarını bir əməli-saleh adama verin, özünüz isə hündür bir yerə toplaşıb yeyin-için, kef çəkin, dünya dağılanda siz salamat qalacaqsınız və yenə də qayıdıb pullarınızı alarsınız. Camaat da deyilən kimi edir. həmin iki şəxs camaatın pullarını saxlayan adamı dilə tutub pulları alıb qaçdıqları yerdə Cəbrayıl polisləri tərəfindən tutulub ifşa edilirlər. Yeri gəlmişkən qeyd edək ki, görkəmli yazıçımız C. Məmmədquluzadə «Ölülər» pyesini yazarkən bu əhvalatlardan istifadə etmişdi.

Orta əsrlərdə cəbrayıllılar arasında dədə-babadan qalma bir sıra xalq oyunları — at çapmaq, qoç döyüşü, buğa döyüşü, xoruz döyüşü, papaqaldıqaç, gizlənpaç, bənövşə-bənövşə və s. oyunlar geniş yayılmışdır. İrandan və Dağıstandan gələn pəhləvanların və kəndirbazların tamaşalarına əhali böyük maraq göstərirdi. Novruz bayramı xüsusi təntənə ilə keçirilirdi.

XIX əsrdə əhaliyə peşəkar səhiyyə xidməti göstərilmirdi. Xəstələr əsasən İrandan gələn ara həkimləri, baxıcılar, türkəçarəçilər, çöpçülər tərəfindən «müalicə» olunurdular. 1882-ci ildə qəzada ilk dəfə həkim vəzifəsi təsis edildi. həkim E. Şvemberq tibbi yardım və müalicə işləri ilə məşğul olmağa başladı. 1884-cü ildə Cəbrayılda xəstələrin qəbul otağı açıldı və o, az sonra xəstəxanaya çevrildi. Burada cəmisi iki həkim, iki mama işləyirdi. 1834—86-cı illərdə həmin xəstəxanaya 10086 xəstə müraciət etmişdi. 1835-ci ildə qəzanın Hadrut kəndində aptek açıldı. Burada cəmisi bir həkim, üç feldşer, bir mama və bir əczaçı işləyirdi. Aptek ancaq Cəbrayıl qəzasının əhalisinə xidmət edirdi. Aptekdə xəstələr qəbul edilir və dərman satılırdı. Sonralar aptek başqa qəzalardan gələnlərə də xidmət etməyə başladı. 1888-ci ildə həmin aptek xəstəxanaya çevrildi. Tibbi yardım işləri lazımi səviyyədə aparılmadığından bir çox xəstəliklərin müalicəsi lazımi nəticə vermirdi.

1880-90-cı illərdə qəzada qızdırma, mədə-bağırsaq, ekzema və s. xəstəliklər geniş yayılmışdı. 1884-89-cu illərdə Cəbrayıl qəzasında həkim işləmiş Q.V. Urazov kəndləri gəzib-dolaşır, əhalinin yaşayış şəraiti ilə yaxından tanış olur, onlara mümkün olan tibbi yardım göstərirdi. Q. V. Urazov topladığı məlumatlar əsasında «Yelizavetpol quberniyası Cəbrayıl qəzasının tibbi-topoqrafik oçerki» adlı əsər yazıb 1889-cu ildə Tiflisdə nəşr etdirmişdir.

1905-ci ildə Kürəkçay sazişinin 100 illiyi ilə əlaqədar olaraq çar fərmanı ilə Qarabulaq kəndinin adı dəyişdirilərək ona Rus-İran müharibəsinin fəal iştirakçısı rus polkovniki Qaryaginin adı verildi. Qəzanın mərkəzi Cəbrayıldan Qaryaginə köçürüldü, qəza Qaryagin qəzası addandırıldı. XX əsrin əvvələrində qəzanın təsərrüfat həyatında az da olsa canlanma nəzərə çarpırdı. Xüsusilə baramaçılıqda irəliləyiş var idi. 1904-cü ildə 27 min pud barama istehsal olunmuşdu. Mal-qaraya hər dəfə böyük ziyan vuran taun, dabaq və s. xəstəliklərə qarşı mübarizə üçün rus mütəxəssisləri dəvət edilmişdi. Onlardan 1903—1905-ci illərdə Cəbrayıl-İran sərhəddində baytar həkimi işləyən K. Skryabinin [o sonralar SSRI Elmlər Akademiyasının və SSRI Tibb Elmləri Akademiyasının akademiki, Sosialist Əməyə Qəhrəmanı oldu] zəhməti daha çox olmuşdur.

O, Arazboyu kəndlərdə, Cəbrayıl, Maralyan və Xudafərin karantin məntəqələrində

kiçik müalicə məntəqələri yaradaraq yerli əhalidən təcrübəli adamları da mal-qara xəstəliklərinə qarşı mübarizə işinə cəlb etmişdi. Cəbrayıl xarici ticarətdə yenə də mühüm rol oynayırdı. Təkcə 1901-ci ildə Cəbrayıl Gömrükxanası vasitəsilə İrandan Şimali Azərbaycana 9546 tacir gəlmiş, 465 pud parça, 545 pud neft və s., cəmisi 167.808 manatlıq mal gətirilmiş, 24 min manatlıq mal aparılmışdı. Maralyan gömrükxanasından isə İrana 10.450 manatlıq mal aparılmış 35.025 manatlıq mal gətirilmişdir. Malların bir hissəsi Cəbrayıl qəzasında satılır, qalanı Yevlax vasitəsilə Azərbaycanın başqa yerlərinə göndərilirdi. Daxili ticarət də inkişaf edirdi. Bununla belə kəndli kütlələrinin əksəriyyətinin vəziyyəti ağır idi. Bunun əsas səbəbi o idi ki, əkinə yararlı torpaqların ancaq 28 faizi kəndlilərin, qalanı mülkədarların ixtiyarında idi. Qəzada 111 mülkədar olduğu halda onlardan torpaq alan kəndlilərin sayı 4928-ə çatırdı. Təkcə Cavanşirovların 17670 desyatin torpağı var idi. 1911-ci ildə aparılmış hesablamaya görə son bir necə ildə Cəbrayıl, Şuşa, Cavanşir, Zəngəzur və Cavad qəzalarında 21.800 ailə aclıq çəkirdi. Cəbrayıl qəzasında 19 kənd tamamilə var-yoxdan çıxmışdı. Kəndlilərin bir hissəsi çörək qazanmaq üçün axışıb şəhərlərə gedirdi. 1911-ci ildə kəndlilərin 18.644 nəfəri dövlət, 196 nəfəri sahibkar torpaqlarında işləyirdilər. Sahibkar kəndlilərinin vəziyyəti daha ağır idi. Onlar vergilərin ağırlığından təngə gəlmişdilər. 1913-cü ildə kəndlilər aldıqları torpaq əvəzində xəzinəyə-dövlətə 20.775.576 manat borclu idilər. Senator İ. Seqalın verdiyi məlumata görə 1910-12-ci illərdə Cəbrayıl qəzasında məhsulsuzluq o dərəcəyə çatmışdı ki, vaxtı ilə Zəngəzur, Cavad qəzalarını və Qarabağın çox əhalisini, hətta İranın Arazboyu əhalisini taxıl ilə təmin edən bu qəzanın öz əhalisini güclə dolandırmağa da imkanı yox idi. Əsas istehsalçı olan kəndlilərin torpaqsızlıq və aztorpaqlılıq məngənəsində boğulmalarına baxmayaraq çar hökuməti yerlərdə özünə dayaq yaratmaq məqsədi ilə Rusiyadan əhalini ucqarlara, o cümlədən Cəbrayıl qəzasına köçürürdü.

1913-14-cü illərdə torpaq üstündə kəndlilərlə mülkədarlar arasında mübarizə daha da güclənmişdi. Kəndlilərin haqlı tələblərinə baxıb onların qanuni hüquqlarını müdafiə edən yox idi. Arxiv sənədlərindən məlum olur ki, Sirik kənd camaatının onların torpaq, meşə və örüşlərini zəbt edən mülkədar Şükür ağadan şikayətləri Yelizavetpol quberniyası məhkəməsində baxılaraq onların tələbi nəinki rədd edilmiş, hətta qərara alınmışdır ki, Sirik meşəsi Şükür ağanındır və kənd camaatı da ona vergi verməlidir. Siriklilərin quberniya məhkəməsinin qərarından Tiflisə, Qafqaz canişininə verdikləri şikayət hətta Peterburq senatına çatdısa da baxılmamış qaldı. Onların ikinci dəfə şikayəti senat tərəfindən rədd edildi.

Birinci dünya müharibəsi illərindəAzərbaycan çar ordusunun arxa cəbhəsi olsa

da xalq kütlələri imperialist müharibəsinin qəti əleyhinə idi. Müharibə Azərbaycan əhalisinə də ağır zərbə vurmuşdu. 1914-cü ildə torpaq vergisi 50 faiz artırılmışdı. Bütün kəndli təsərrüfatlarında əvvəllər cəmisi 19.710 desyatin torpaq əkilmişdisə, 1915-ci ildə bu rəqəm 18.915 desyatinə enmişdi. Mülkədar təsərrüfatlarında da əkin sahələri azalmışdı. Bunlarda 1914-cü ildə 11.940 desyatin, 1915-ci ildə 11.310 desyatin, yəni 630 desyatin az torpaq sahəsi əkilmişdi. Bunun bir səbəbi də əhalinin 60 faizinin iş heyvanının catışmaması, 22 kəndin isə iş heyvanının heç olmaması idi. Bundan istifadə edənbəylər kəndlilərin torpaqlarını əllərindən alırdılar. Taxıldan əldə edilənməhsul yaxşı gəldikdə də əhalinin ehtiyacı bütün il boyu yaxşı ödənilmirdi. Qəzanı aclıq bürümüşdü. Xalq əsasən Şimali Qafqazdan gətirilən taxıl ilə dolanırdı. Ona görə də kəndlilər mülkədar torpaqlarını tutur, öz mal-qaralarını onların biçənəklərində otarır, vergi verməkdən imtina edirdilər. Bu bəzən toqquşmalara səbəb olurdu. Maralyan, Soltanlı və s. kəndlərdə ölüm halları olmuşdu.

XX əsrin əvvəllərində qəzada maarif, mədəniyyət və səhiyyənin səviyyəsi aşağı idi. Cəbrayılda ancaq bir normal rus məktəbi fəaliyyət göstərirdi. Çox süründürməçilikdən sonra 1910-cu ildə Maralyan kəndində bir sinifli məktəb, 1912-ci ildə Cəbrayılda qız məktəbi açıldı. 1907-1919-cu illərdə normal rus məktəbində müəllimlik edən N.R. Rüstəmzadə. A. M. Şərifov, T. I. Quliyev. P. A. Kostrikov, P. Y. Xromov Maralyan kənd məktəbinin müəllimləri Əbdül bəy Şərifov və Əlikərəm Xankişiyevin addarı Cəbrayılda xalq maarifinin inkişafı tarixində xususi yer tutur. 1910-cu ildə qəzada cəmisi 3 həkim, 6 feldşer. 2 mama və 1 əczaçı işləyirdi. Əhali sanitariya tələblərinə uyğun olmayan ağır şəraitdə yaşayırdı. 1910-11-ci illərdə Cəbrayıl qəzasının kəndlərini gəzmiş A.İ. Nazaroviç yazır:

«Kəndlilər qazmalarda heyvanlarla bir yerdə yaşayır. Bu qazmalar yaxşı vəziyyətdə deyil. Qapısız, pəncərəsiz və çirkli idi. Qışda bu qazmalarda ocaq qalayır və onu heç vaxt söndürmürdülər. İcəridə insanlar tüstüdən boğulurdular. Ancaq ocağın ətrafı isti olurdu. Damlarda insanlarla bir yerdə yaşayan mal-qaranın olması xəstəliklər üçün şərait yaradırdı. Yatacaq paltarlarını quru torpağa sərib soyunmadan yatırdılar.

Azərbaycanın görkəmli maarifpərvər yazıçısı C. Məmmədquluzadənin nəşr etdirdiyi «Molla Nəsrəddin» jurnalı da qəzada demokratik ideyaların yayılmasına kömək edirdi. Jurnalın 1904-cü ildə çıxan 24-cü nömrəsində göstərilir ki, Cəbrayıl mahalında rus kazaklarının etdikləri zülm barəsində bu yerlərin müsəlman vəkilləri carın Daxili İşlər Naziri Durnova ərzhal göndəriblər. Nazir Cəbrayıl vəkillərinə

gözəl cavab verib demişdi ki, kəndlərdə kəndxudaları və polis strajniklərini qoyub nahaq yerə məni narahat etməyin. C. Məmmədquluzadə Cəbrayıl kəndlərinin adət-ənənlərinə yaxşı bələd idi. O, hətta Mərcanlı kəndində çox bəd itlər saxlandığını da bilirdi. Ona görə bir məqaləsində [Molla Nəsrəddin 1907, 29 fevral] Dövlət Dumasında çarın siyasətini bəyənməyən deputatlara qarşı mübarizə aparan qaraguruhcuları Mərcanlı itlərinə bənzədərək yazır ki, Stolıpin qəpabları Mərcanlı kəndindən bir necə sərt köpək aparmışdı ki, fevralın 21-də açılan dumaya gələn üzvlərdən monarxist firqəsindən olmayanların üstünə buraxıb qapdırsın. Cəbrayılda «Molla Nəsrəddin»in daimi oxucuları və tərəfdarları var idi. Onlardan Cəbrayıl hakimi Hüseyn ağa Cavanşir, Hüseynbəyli kəndindən Əhməd bəy Hüseynbəyov, Maralyan kəndindən Xəlilov qardaşları, Mərcanlı kəndindən Hacı Göyüş, qəzanın Zəngilan nayihəsindən Əbdülsəməd bəy Cavanşir [o, şair Məmmədbəy Aşiq Zəngilaninin oğludur], Qulamrza bəy Qasımbəyov, Molla Cavad, Əlibəy Şərifov [o, görkəmli ədəbiyyatşünas professor Əziz Şərifin əmisidir] və başqalarını göstərmək olar. Cəlil Məmmədquluzadə bu şəxslərlə dostluq edirdi. Əhməd bəy və Hüseyn ağa böyük ədibə daha yaxın adamlar idi. Hüseyn ağa C. Məmməquluzadənin həyat yoldaşı həmidə xanımla qohum idi. 1920-ci ildə C. Məmmədquluzadə Hüseynbəyli kəndində Əhməd bəyin evinə gələrkən başqalarının təhriki ilə doğma yurdunu tərk edib İrana getmək istəyəndə Hüseyn ağa onunla görüşüb İrana getmək fikrindən daşınmağı məsləhət görmüşdü. Lakin C. Məmmədquluzadə və onun qardaşı məsləhətə baxmayıb İrana getdilərsə də az sonra yenə də vətənə döndülər.

Hüseyn ağanın eşqə, məhəbbətə dair gözəl şerləri vardır. [bax: «Poetik məclislər» B. 1987] Hüseyn ağa 1921-ci ildə vəfat etmişdir. Hacı Göyüş «Molla Nəsrəddin» jurnalına pul yardımı edirdi. Cəbrayılda jurnalın düşmənləri də var idi. Daşkəsən kəndindən Mirzə Mehdi dinsizləri «kafir» hesab edərək deyirdi ki, «Molla Nəsrəddin»i oxuyanların hamısı Cəlili məzhəbdir». Bu kimi şər-böhtanlara baxmayaraq qəzanın qabaqcıl adamları «Molla Nəsrəddin» jurnalını sevir, onun yaydığı demokratik ideyalara tərəfdar çıxırdılar.

1917-ci ilin fevralın 27-də Petroqrad fəhlə və əsgərləri car mütləqiyyətini devirdilər. Azərbaycanda da bolşeviklər gizli işdən açıq fəaliyyətə keçib Bakı, Şamaxı və s. şəhərlərdə fəhlə və əsgər deputatları sovetləri yaratdılar. Cəbrayıl qəzasında kəndli deputatları sovetində Sovetin təklifi ilə qəza rəisi Kipiani, çar məmuru Muxtar bəy və başqa keçmiş çinovniklər vəzifələrindən kənar edildilər. Qəzanın Zəngilan nahiyəsində işləyən çar çinovnikləri də işdən qovuldular. Hərbi qarnizonun çar mütləqiyyətinin devrilməsi haqqında teleqramı gizlədən bir neçə

zabiti vəzifələrindən uzaqlaşdırdılar, sıravi əsgərlərin tələbi ilə rotmistr Yanko polk komandiri seçildi. Polk əsgər komitəsinin sədri vəzifəsinə inqilaba rəğbət bəsləyən praporşik N. Qorsayev təyin edildi. Əskər komitəsinin 29 üzvündən 25-i sıravi əsgər, ancaq 3-ü zabit idi. Komitənin təhqiqat komissiyasının üç üzvü yerli əhalidən seçilmişdi. Cəbrayıllılardan müstəqil Azərbaycan dövləti yaratmağa calışan Müsavat partiyasının üzvləri M. Yusifov, M. Səfərov, N. Məmmədov , İ. Məmmədov, Minbaşıyev və başqaları da təbliğat işini gücləndirdilər.

# AZƏRBAYCAN DEMOKRATİK RESPUBLIKASI VƏ SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ

## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLIKASI

1918-ci il mayın 28-də Gəncədə Azərbaycan Milli Şurası [parlamanı] Demokratik Respublikası yaradılmasını elan etdi. Bu yeni quruluş bütün islam aləmində xalqın ilk respublika üsul idarəsinə qədəm qoyan, Azərbaycanın Rusiyadan və başqa ölkələrdən asılı olmayan müstəqil hakimiyyəti idi.

Cəbrayıllılar Azərbaycan Demokratik Respublikasının yaradılması xəbərini böyük sevinclə qarşıladılar. Müsavatçılar Balyand, Süleymanlı, Soltanlı, Cəbrayıl və s. kəndlərdə iclaslar keçirib yeni hökumətin məqsəd və vəzifələrini xalqa izah edirdilər. Gənclərdən bir çoxu Azərbaycan Demokratik Respublikasının yeni yaratmağa başladığı milli orduda könüllü xidmətə getməyə başladılar . 1918-ci ilin dekabrında Azərbaycan Demokratik hökumətinin qərarı ilə çarizm müstəmləkə siyasətinin rəmzi olan Qaryagin qəzasının adı dəyişdirilib əvvəlki kimi yenə də Cəbrayıl qəzası, Qaryagin kəndinin adı Qarabulaq adlandırıldı 1918-ci ildə Cəbrayıl qəzası 12 Azərbaycan, 3 erməni icmasından [indiki mənada kənd sovetindən] ibarət idi. Bütün icmalar arasında sıx əlaqə yaradıldı. Azərbaycan milli hökuməti təşkilatı tədbirlər görməyə başladığı bir zamanda 1918-ci ilin axırlarında erməni millətçiləri onu yıxmaq, Qarabağı ələ keçirmək məqsədilə fitnəkarlığa başladılar. Daşnaq Andronikin əmri ilə Qarabağa, o cümlədən Cəbrayıla qoşun yeridildi. Erməni millətçiləri azərbaycanlılara öz yurdlarını tərk edib başqa yerə getməyi təklif etdilər, əks halda məhv ediləcəkləri ilə hədələdilər. Azərbaycanlılar bu təklifi rədd etdilər. Bu zaman Andronikin əmri ilə erməni millətçiləri azərbaycanlıları kütləvi surətdə qırmağa başladılar. Cəbrayıl-Qarabulaq yolu, Cəbrayıl, Xudafərin və Maralyan gömrükxanaları bağlandı. Cəbrayılın dağ kəndlərinin əhalisinin bir hissəsi - qocalar, cavanlar, qadınlar, uşaqlar Arazboyu kəndlərə qaçmağa başladılar. Bu zaman Azərbaycan Demokratik Respublikasına köməyə gəlmiş türk qoşunu hissələri Cəbrayıla daxil oldu. Andronikin dəstələri sıxışdırılıb qəzadan çıxarıldı. Qarabağda asayişi qaydaya salmaq məqsədilə yığıncaqlar, mitinqlər qadağan edildi. Cəbrayıl-Qarabulaq yolu və gömrükxanalar açıldı. Cəbrayılda olan türk zabitləri Haşım bəy, Kərim bəy və İsmayıl Fəxri bəy daha sərt qaydalar qoymuşdular. Onların əmri ilə daşnaqlara rəğbət bəsləyən iki

nəfər [onlardan biri erməni idi] camaatın gözü qabağında dar ağacından asıldı. Birinci dünya müharibəsində məğlubiyyətlə əlaqədar olaraq 1918-ci il noyabr ayında Türkiyə öz qoşunları Azərbaycandan çıxarıb apardıqdan sonra Qarabağda vəziyyət mürəkkəbləşdi. Belə ki, bu dəfə ingilislər Azərbaycana soxuldular. Qarabağda tüğyan edən ingilis generalı Devin belə bir əmr vermişdi ki, fərqinə varmadan hər kəsin mənimsədiyi bütün torpaqlar öz keçmiş sahiblərinə qaytarılmalıdır. Kim bu tələbi icra etməsə, istər türk olsun, istər erməni, edam ediləcək, müqavimət göstərən kəndlilər atəşə tutulacaq və qılıncdan keçiriləcək. İngilislərin gəlişindən sonra erməni millətçilərinin əl-qolu açıldı, onların qəzanın dağ kəndlərinə basqını daha da şiddətləndi. Dolanlar, Cilan, Ağcakəndə, Mülkədərə, Cirakuz, Koxa, Hərəkül, Ağbulaq, Düdükçü, Hoğa, Axilli və s. erməni kəndlərindən təşkil edilmiş quldur dəstələrin Cəbrayıl kəndlərinə hücumları ara vermirdi. Qarvənd, Zərkər, Qaradağlı, Arış, Qarakollu, Balyand, Tatar, Şıxlar, Xələfli, Şahvələdli, Məzrə, Əfəndilər, Doşulu, Aşıq Məlikli və s. kəndlərin əhalisi məhv edilir, mal-qaraları sürülüb aparılırdı. Ermənilər Sirik, Şıxlar, Xələfli, Tatar, Nüsüs, Məzrə, Əfəndilər kəndlərini tamamilə yandırdılar. Onların vəhşiliklərini təsəvvür etmək üçün arxiv sənədlərinə baxmaq kifayətdir. Balyand kəndindən Cəfər Ələkbər oğlu, Nəsir Məhərrəm oğlunun qarət edilib öldürülmüş meyitləri bir neçə gündən sonra çılpaq halda tapılmışdı. Mirzə kəndindən naxırçı İsmayıl Mustafa oğlunu bədəni süngü ilə dəlik-deşik edilmiş, camaatın mal-qarası sürülüb aparılmışdı. Təkcə Məzrə kəndinə yüz min manatlıqdan çox ziyan vurulmuşdu. Azərbaycan milli ordusunun Xankənddə olan hissəsində xidmət edən Yarəhmədli kənd sakini İsmayıl Məmmədovun evi qarət edildi. Bunlardan xəbər tutan Azərbaycan Milli Ordusunun Qarabulaqda dayanmış hissələri təcili olaraq Cəbrayıla gəlib daşnak dəstələrini əzişdirdilər. Bu əməliyyatda Arazboyu kəndlərindən gəlmiş silahlı dəstələr xüsusi ilə fəal iştirak edirdilər. Bundan sonra Azərbaycan Milli Ordusunun birinci Cavanşir polku Cəbrayılda yerləşdirildi. Gəncə qubernatorunun 1918-ci il 8 dekabr tarixli təqdimatında göstərilir ki, Cəbrayıl kəndləri dağıdılır, erməni millətçiləri günahsız adamları rəhmsizcəsinə qırırlar. Zəngəzur qəza rəisi Namazəliyevin Cəbrayıldan verdiyi teleqramda deyilir ki, Andronik hətta azərbaycanlıları qırmaqdan boyun qaçıran erməniləri də asdırır. Cəbrayıl qəza rəisinin Azərbaycan Demokratik Respublikası hökumətinin Daxili işlər nazirinə teleqramında Andronikin Britaniya nümayəndəliyinin tapşırığı ilə hərəkət etməsi göstərilir və qeyd edilir ki, bütün münaqişələrdə səbəbkar daşnaqlardır, azərbaycanlılar ancaq müdafiə olunurlar. O dövrdə Hüseyn Hüseynov adlı bir şəxs yazırdı ki, vəziyyət gündən-günə pisləşir. Məscidlər və

küçələr dul qalmış qadın və yetimlərlə doludur. Hər gün soyuqdan və acından onlarla adam tələf olur. Səyyari həyat keçiririk, gecə-gündüz keşikdəyik, düşmənin həmləsini gözləyirik. Biz ölümdən qorxmuruq, ölüm qorxulu deyil, ancaq heyif ki, bu quldurların qarşısını almaq üçün bir tədbir görülmür. Doğrudanmı bu rayonların bütün müsəlmanları quldurların əlində qalacaq? Siz qəzetlərə yazın, hamıya bildirin ki, bu qədər xalq qırılır. Məhv ediləndə susmaq olmaz. Axırıncı dəfə əlinizi sıxıram, ola bilsin ki, bir də görüşmək qismət olmadı... Məzrə, Əfəndilər, Şahvələdli kənd camaatının adından Gəncə qubernatoruna yazılmış məktubda deyilir: «Bizə təcili kömək edin, qüvvə verin, özümüzü müdafiə edək, biz də erməni millətçilərinin üstünə gedək. Nə vaxta qədər müdafiədə dayanacağıq?» Məktublardan göründüyü kimi azərbaycanlılar ancaq müdafiə mövqeyi tuturdular.

Cəbrayılı özlərinə qərargah düzəltmiş ingilislər erməniləri azərbaycanlılar üzərinə hücuma təhrik etməkdən əlavə həm də qəzanın bütün daxili işlərini də öz əllərinə almışdılar. Onlar qəza xalq məktəbləri inspektoru Teymur Quliyevi məcburi olaraq Şuşaya gətirdib tələb etdilər ki, o, qəzada olan erməni müəllimlərinə zəhmət haqqı verilməsini təşkil etsin. Çünki daşnak basqınları ilə əlaqədar olaraq Azərbaycan Milli hökuməti onlara zəhmət haqqı verilməsini dayandırmışdı. Qəzada vəziyyəti çətinləşdirən bir də o idi ki, Zənkəzur qəzasından didərkin salınıb Cəbrayıla gəlmiş yüzlərlə azərbaycanlını ərzaq və yaşayış yeri ilə təmin etmək lazım idi. Onlara əsasən Arazboyu kəndlərdə sığınacaq verildi, yerli əhali onları ərzaqla təmin edirdi. Bu işdə musavat partiyasının fəalları və başqa nüfuzlu şəxslərin böyük rolu oldu. Onlar qaçqınlara qayğı göstərir, erməni millətçilərinin basqınlarına ara verildikdə də doğma yurdlarına qayıtmalarını təşkil edirdilər. Musavatçılar millət qırğınına son qoymaq üçün geniş izahat işləri aparırdılar. Bu sahədə bolşeviklər də müəyyən iş görürdülər. İlk vaxtlarda qəzada partiya işinə RK[b]FP Bakı komitəsinin köməkliyi ilə hələ 1917-ci ildə yaradılmış Şuşa komitəsi rəhbərlik edirdi. 1919-cu ilin yazında Qarabağ mahal komitəsi, Şuşada və Cəbrayılda qəza partiya komitələri təşkil edildi. Cəbrayıl qəza partiya komitəsinə Məmmədxan Məmmədxanov [sədr], Əbdül Məmmədov, Dadaş Xankişiyev və Şmavon Davidov rəhbərlik edirdilər. Az sonra Qoçəhmədli, Xatınbulaq, Pirəhmədli, Horadiz, Babı, Qarabulaq, Quycaq, Balyand, Cəbrayıl, Süleymanlı və s. kəndlərdə ilk partiya özəkləri yaradıldı. 1919-cu ilin payızında qəzanın Qaryagin hissəsində 18, hadrut hissəsində 20, Cəbrayıl hissəsində 6 partiya özəyi var idi. İlk vaxtlar qəza partiya komitəsi Qaryagin və Hadrut nahiyələrində müstəqil fəaliyyət göstərirdi. Beynəlmiləl işi möhkəmləndirmək məqsədi ilə onları birləşdirmək lazım idi. Bu məsələdə qəza partiya komitəsinin

1919-cu il noyabrın 18-də Arış və Bulutan kəndləri arasındakı meşəlikdə gizli şəraitdə keçirilən konfransının böyük əhəmiyyəti oldu. Konfransda 60 nümayəndə və Bakı partiya təşkilatından Kamran Ağazadə iştirak edirdi. Konfransda M. Məmmədxanov mahal partiya komitəsinin qarşısında duran təxirəsalınmaz vəzifələr haqqında məruzə etdi. Konfrans milli qırğına tezliklə son qoymaq üçün 70 nəfərdən ibarət beynəlmiləlçi silahlı dəstə yaratmağı qərara aldı. Konfransda M. Məmmədxanov qəza partiya komitəsinin sədri, Şmavon Davidov katib, Molla Mirzəli, Qriqori Bədəlov və Qriqori Kafiyev komitənin üzvləri seçildilər. Görülən tədbirlər nəticəsində azərbaycanlılarla ermənilər arasında əlaqələr tədricən qaydaya düşür, hətta gecələr onların yaşadıqları qonşu kəndlərin əhalisi bir-biri ilə görüşür, ərzaq, neft və s. mübadiləsi edirdilər.

1920-ci il fevralın 11-də Bakıda gizli şəraitdə Azərbaycan Kommunist partiyasının birinci [təsis] qurultayı çağırıldı. Qurultay silahlı üsyana hazırlaşmaq haqqında qərar qəbul etdi. Qurultayda Cəbrayıl qəza partiya təşkilatından M. Məmmədxanov geniş məruzə ilə çıxış edib qəzada torpaq məsələsi, kəndlilərin acınacaqlı vəziyyəti, Qarabağ partiya komitəsinin fəaliyyəti ətrafında danışıb daşnaqların milli qırğını qızışdırmalarını ifşa etdi. Qurultayda M. Məmmədxanov Azərbaycan K[b]P Mərkəzi Komitəsinin tərkibinə seçildi. Bu zaman Azərbaycan xalqının cəlladları Andronikin əlaltıları Dro və Nijdenin qoşunları Qarabulaq, Hadrut və Cəbrayıla soxuldular. 1920-ci il fevralın 22-dən 23-nə keçən gecə Xankənddə başlanan milli qırğın Qarabağın hər yerinə yayıldı. Şuşa, Gəncə, Əskəran, Zəngəzur və Cəbrayılda musavat və daşnaq qoşunları arasında şiddətli toqquşmalar baş verdi. Qarabağ mahal partiya komitəsi dağıdıldı.

1920-ci il aprelin 27-dən 28-ə keçən gecə XI Qızıl Ordu Bakıya soxuldu. Xalqın suveren dövləti - Azərbaycan Demokratik Respublikası bu qəfil hücumun qarşısını ala bilməyib süqut etdi.

# SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ

Müstəqil Azərbaycan Demokratik Respublikası ləğv olunan kimi 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. Aprelin 29-da Cəbrayıl qəza inqilab komitəsi yaradıldı. Əvvələr qəza partiya komitəsinə rəhbərlik edən Məmmədxan Məmmədxanov inqilab komitəsinin sədri təyin edildi. İnqilab komitəsi qəzada bütün hakimiyyəti ələ alıb aldadılmış xalqı inqilabı müdafiə etməyə çağırırdı. Bu zaman işğalçı XI Qızıl Ordunun Yevlax stansiyasında cəmləşən hissələri Qarabağın içərilərinə doğru sürətlə irəliləyirdi. Xankənddə Milli Ordu tərkibində hərbi qulluqda olan cəbrayıllılardan İsmayıl Məmmədov, Məhəmməd Xankişi oğlu, Ərdəşil Allahverdiyev, Ağamurad Əliyev, ağdamlı Həmid İsmayılov, Bahadur Rzayev, və başqaları məcburiyyət qarşısında qalıb XI Ordu hissələrinə qoşuldular. Ağdamda o vaxtlar «görkəmli inqilabçı» kimi tanınmış Çingiz İldırım xalq qarşısında çıxış edərək kəndli kütlələrini Sovet hakimiyyətini qorumaq uğrunda mübarizəni davam etdirməyə çağırdı. XI Ordunun Krişkov, Orlov və hərbi komissar Sviridovun başçılıq etdikləri 18-ci diviziyası Ağdam-Qaryagin-Cəbrayıl və Qarabulaq-Hadrut istiqamətlərində hücuma keçərək yerli silahlı birləşmələri və partizan dəstələrinin köməyi ilə daşnaq qoşun hissələrini darmadağın etdilər. 1920-ci il mayın 13-də divizayının ön hissələri Qarabulaqdan Cəbrayıla doğru hərəkətə başladı. Bunu bilən və Sovet hakimiyyəti ilə barışmaq istəməyən xalqın hörmətini qazanmış bir sıra görkəmli adamlar canlarını qurtarmaq üçün Arazın o tayına keçdilər. Ordu hissələri Cəbrayıla daxil olduqda Bazarbaşı meydanında mitinq keçirildi. M. Məmmədxanov çıxış edərək Cəbrayılda Sovet hakimiyyətinin qurulmasını elan etdi və camaatı yeni hakimiyyəti müdafiə etməyə çağırdı. Mitinqdən sonra ordu hissələri cəbrayıllılardan Mürşüd Ağayev, Xanlar Həsənov, Mürsəl Rüstəmov və başqalarının bələdçiliyi ilə Zəngilan və Qubadlı istiqamətlərində hərəkət edib bu ərazilərdə olan və Sovet hakimiyyəti ilə razılaşmayan silahlı dəstələri amansızcasına məhv etdilər. Zəngilan və Qubadlıda da guya xalqı ağ günə çıxarda biləcək Sovet hakimiyyəti quruldu. Artıq aldadılmış, ümidi hər yerdən üzülmüş xalq kütləsi naəlac qalıb məcburiyyət qarşısında yeni hakimiyyətə rəğbət bəsləyirdi. İran tərəfdən baş verən basqınların qırşısını almaq və Qarabağın dağlıq hissəsində hələ də gizlənib qalmış daşnaq dəstələrinin baş qaldırmasına yol verməmək üçün, əslində isə Sovet hakimiyyətinə qarşı baş verə biləcək üsyanların qarşısını almaq üçün, ordu hissələrindən bir diviziya Cəbrayılda saxlanıldı.

Diviziyanın qərargahı hələ XIX əsrin əvvəllərində çar qoşun dəstələri üçün

salınmış hərbi şəhərcikdə yerləşdirildi. Bütün hakimiyyət qəza inqilab komitəsinin əlində toplandı. Xalq milisi, maliyyə, ərzaq və s. üzrə şöbələr yaradıldı. İnqilabdan əvvəl Cəbrayılda normal rus məktəbini bitirən və rus dilini yaxşı bilən Mürsəl Rüstəmov, Mirkişi Mirkişiyev, Bəşir Məmmədov, Balağa Şahmuradov, Muxtar Yusifov və bir çox başqaları milis idarəsində və təsərrüfat orqanlarında işə cəlb olundular. Azərbaycan inqilab komitəsinin mülkədar torpaq sahibliyinin ləğv edilməsi və torpaqların kəndlilər arasında bölüşdürülməsi haqqında 1920-ci il 5 may tarixli dekreti qəzada mayın 14-də elan edildi. Dekreti həyata keçirmək üçün mayın 16-da qəza komitəsi təşkil olundu. Komitənin nəzdində 8-12 nəfərdən ibarət «zərbə dəstələri» yaradıldı. Həmin dəstələr torpaqları ölçüb siyahıya alır və ilk növbədə yoxsul kəndlilər arasında bölüşdürürü. 1920-ci il mayın əvvələrində Cəbrayıl qəza inqilab komitəsinin sədri M. Məmmədxanov Azərbaycan inqilab komitəsinin köməyi ilə qəza inqilab komitəsini yenidən təşkil etdi. M. Məmmədxanov komitənin sədri, Ş. Davidov katib, M. Səfərəliyev komitənin üzvləri təyin olundular. Sonralar Əsəd Qarayev, Zülfüqar Hüseynov, Gəncəli Səfərəliyev inqilab komitəsinin tərkibinə daxil edildilər. Cəbrayılda Yusif İbrahimov, Qarakolluda Dadaş Xankişiyev, Horadizdə Əbdül Məmmədov nahiyə inqilab komitələrinə rəhbərlik edirdilər.

Bu zaman Hələ 1918-ci ildə Zaqafqaziyada türk qoşunlarının baş komandanı olmuş və sonralar Qarabağda qalmış Nuru paşa qiyam qaldırdı. O, Şuşanı tutub özünü Qarabağın hakimi elan etdi. Polkovnik Sofiyevin komandanlıq etdiyi polk Cəbrayıla yeridildi. Müsavatçılar Qaryagində türk zabiti Haşım bəyin iştirakı ilə təcili müşavirə ke,irib Cəbrayılda dayanan süvari polkun hissələrinin Qaryaginə köndərilməsi və qəza inqilab komitəsinin həbs edilməsi haqqında qərar qəbul etdilər. Mayın 29-da Qaryagin nəzarət altına aldındı. Qoçəhmədli, Arış və Xatınbulaqdan başqa bütün kəndlər tutuldu. Vəziyyətin təhlükəli olduğunu görən qəza inqilab komitəsi mayın 29-da gecə Qoçəhmədli kəndinə keçməyə məcbur oldu. Müsavatçı Həmidbəy bolşeviklərə ultimatum verərək kəndin təslim olunmasını tələb etdi. Lakin ultimatum rədd edildi. Bu zaman müsavatçıların silahlı dəstələri artilleriyanın köməyi ilə Qoçəhmədli kəndinin üstünə yeridildi. Səhərdən axşama qədər müdafiə olunsa da Hadrut kəndi istiqamətində geri çəkilib Ərgünəş meşəsində yerləşməyə məcbur oldular. Müsavatçıların silahlı dəstəsi Qoçəhmədli kəndinə girdi. Onlar bolşeviklərdən Əbdül Məmmədovu, Dadaş Xankişiyevi, İbrahim Ağakişiyevi, İbrahim Yusifovu və başqa cəmisi 20 nəfəri həbs edərək ertəsi gün dar ağacından asaçaqları ilə hədələdilər. Bu zaman Qoçəhmədli kədindən Gəncalı Səfərəliyevin başcılıq etdiyi silahlı dəstə gecə vaxtı

həbsxana nəzarətcisinin köməyi ilə onları həbsdən azad etdi. Lakin Sovet hakimiyyətinə qarşı üsyan hələ də davam edirdi. Ona görə də S.M. Kirov və Q.K. Orconikidze Qafqaz cəbhəsi inqilab komitəsi və XI Ordu adından «Qarabağın müsəlman və erməni xalqlarına müraciətnamə» göndərib onları Sovet hakimiyyətini müdafiə etməyə çağırdılar. 1920-ci il iyul ayında XI Ordu hissələri yerli inqilab komitələrinin köməyi ilə Şuşa, Qaryagin, Cəbrayıl, Hadrut, Zəngəzur və s. yerlərdə qiyamı yatırdıb musavat hökumətinin hələ də fəaliyyət göstərən yerli orqanlarını ləğv etdilər. 1920-ci ilin sentyabrında qəzanın bütün kəndlərində yoxsul komitələri təşkil edilməyə başlandı. Yoxsul komitələri guya Sovet hakimiyyətinin düşmənlərini üzə çıxarıb ifşa edirdi. Mülkədarların artıq torpaq sahələrini, taxılını, mal-qarasını, kənd təsərrüfatı alətlərini alıb yoxsullara paylamaq adı altında xalqın üzdə olan tanınmış adamları müflisləşdirilir, «qolomaq», «sinfi düşmən» damğası vurularaq yurd-yuvasından didərgin salınır, öldürülür, küllənirdi. 1920-ci il oktyabrın 16-da Bakıda Azərbaycan K [6] p-nın II qurultayı açıldı. Həmin ilin noyabrında qəzanın 19 kəndinin nümayəndələrinin iştirakı ilə kəndli qurultayı çağırıldı. Qurultay torpaq islahatının keçirilməsini sürətləndirmək üçün 30 nəfərdən ibarət müvəqtəti «çevik dəstə» yaratmağı qərara aldı. 1920-ci ilin payızında keçmiş çar zabiti daşnak Tevan və Nijde Zəngəzurdan Qarabağa soxuldular. Tezliklə yerli əhalidən silahlı dəstələr düzəldildi. Ziyarat dağında bir necə gün davam edən döyüşdə Tevanın qüvvələri əzişdirildi. Amma Tevan tezliklə yeni qüvvə toplayıb Domu, Cilan, Bünyadlı, Hərəkül və s. kəndləri ələ keçirtdi, Hadrut kəndini mühasirəyə aldı. Buna baxmayaraq Cəbrayıl və Qaryakin qırmızı partizan dəstələrinin köməyi ilə düşmən hissələri sıxışdırıldı, Hadrutun mühasirəsi ləğv edildi. Qəzada torpaq islahatının həyata keçirilməsinə kömək etmək üçün Bakıdan göndərilmiş M. Qavrilov, Qaryagindən İbrahim Ağakişiyev, Cəbrayıldan Mürsəl Rüstəmov, Muxtar Səfərov, Xanlar Həsənov və başqalarından ibarət silahlı dəstə Tevanın quldur dəstəsini Ziyarat dağı və Hadrut kəndi istiqamətlərindən Zəngəzur qəzasına tərəf sıxışdırdılar. Onlardan bir çoxu İrana qaçmaq üçün Araz boyuna çəkilib sıx qamışlıqlarda, Diridağında, Xudafərin və Mincivan məntəqələrində gizlənmişdilər. Tezliklə onlar da tapılıb məhv edildi. Bu əməliyyatda Lacından gəlmiş Sultan bəyin dəstəsi və Zilanlı kürdləri daha fəal iştirak etdilər. Az sonra D. Xankişiyev Xıdırın dəstəsini məhv etdi. Bu zaman Əhmədalılar kəndindən Əbdüləli güclü dəstə ilə Cəbrayıla soxulub əhaliyə hədə-qorxu gəlməyə başladı. D. Xankişiyev öz dəstəsi ilə onlara qarşı çıxdı. Cəbrayılda çinar kəhrizi ətrafında baş verən şiddətli döyüşdə Əbdüləlinin dəstəsi darmadağın edildi.

1921-ci ilin yazında inqilab komitələri demokratik seçkilər əsasında təşkil edilən kəndli deputatları sovetləri ilə əvəz edildi. Qəza inqilab komitəsinin sədri M. Məmmədxanov Cəbrayıl qəza kəndli deputatları soveti icraiyyə komitəsinin sədri seçildi. Elə bu vaxt Andronikin əlaltısı Tevan yenə də Cəbrayılın yaxınlığında, Ziyarat dağı tərəflərdə görünməyə başladı. Ona görə də Tevanın bandasını tamamilə məhv etmək vəzifəsi qarşıya qoyuldu. Bu zaman Əsəd Qarayev Cəbrayıla gələrək yeni partizan dəstələri təşkil etməyə başladı. Cəbrayıllılardan Mürsəl Rüstəmov, Məhəmməd Rüstəmov, Xanlar Həsənov, Muxtar Səfərov, Məmmədxan Bünyadzadə, Cəmil Abasquliyev, Qaraş Əliyev, Kərim Əliyev, Alı Əliyev, İsmayıl Məmmədov və b. Əsəd Qarayevin yaxın silahdaşları idilər və onlar da xüsusi dəstə təşkil etmişdilər. 1922-ci ilin yazında yağışlı, palçıqlı bir gündə Tevana qarşı döyüş əməliyyatı başlandı. Qırmızı partizan dəstələri Hərəkül kəndi istiqamətində hücuma keçdilər. Kəndin ətrafında şiddətli döyüşdə taqətdən salınan daşnak qüvvələri Tey və Ziyarat dağlarına tərəf sıxışdırıldılar. Burada üç gün davam edən şiddətli döyüşdə Tevanın bandası tamamilə darmadağın edildi. Tevanın müavini Ayrıq qaçmaq istədikdə qadınlar tərəfindən tutulub öldürüldü. Az sonra Zəngilan və Qubaddı ərazilərində də əksinqilabçı dəstələr baş qaldırdılar. Onlar kəndlilərin var yoxunu talan edir, mal-qarasını aparır, evləri yandırırdılar. Əlyanlı kəndindən olan quldurlar daha təhlükəli idilər. Üç günün ərzində Zəngilan və Qubadlı ərazilərində quldur dəstələri, o cümlədən daha qorxulu olan Əlyanlı dəstələri darmadağın edildi.

Qəzada kəskin iqtisadi-siyasi böhran baş verdiyindən əhalinin həyat səviyyəsi çox ağır idi. Yeni islahatlar çətin şəraitdə həyata keçirilirdi. 1923-cü ilin məhsul yığımı dövründə çəyirtkə basqını təsərrüfatlara böyük ziyan vurmuşdu. Ziyanvericilərə qarşı mübarizə üçün fövqəladə komissiya yaradıldı. Əkinin 75 faizi tələf olan kəndlilər vergidən azad olundular. Onlara toxum ssudası da verildi. 1922-ci il dekabrın əvvəllərində Zaqafqaziya diyar partiya komitəsinin qərarı ilə Azərbaycan SSR XKS yanında Dağlıq Qarabağ işləri üzrə komitə yaradıldı. Cəbrayıl qəzasında erməni kəndləri də olduğundan həmin komitəyə Cəbrayıl qəza icraiyyə komitəsindən də bir nümayəndə daxil edilmişdi. Nümayəndə qəzanın erməni kəndləri ilə əlaqədar məsələlərlə məşğul olurdu. 1923-cü il iyulun 7-də Azərbaycan SSR MİK-nın dekreti ilə Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti [DQMV] yaradıldı. Cəbrayıl qəzasına daxil olan Bünyadlı, Hərəkül, Zamzur, Dolanlar, Hadrut, Edilli, Vənk və s, erməni kəndləri Cəbrayıl qəzasından alınıb DQMV-nin tabeliyinə verildi.

1921-24-cü illərdə yeni iqtisadi siyasət dövründə kəndlərdə ictimai təbəqələşmə

prosesi gedirdi. Yoxsul kəndlilərin çoxu ortabablaşmış və əsas qüvvəyə çevrilmişdi. Yeni iqtisadi siyasətlə əlaqədar olaraq ticarət də genişləndirilmişdi. Ticarətdə əsas yeri xüsusi alverçilər tuturdu. Onlar dükanlar açaraq İrandan mal gətirib satmaqla məşğul olurdular.

1929-cu ildə qəzanın ayrı-ayrı kəndləri elliklə kollektiv təsərrüfatlara keçirdilər. Əkin sahələri genişləndirilərək 1928-ci ildə 700 hektardan 1929-cu ildə 1927 hektara çatdırıldı. Bütün bunlar qolçomaqların «bir sinif kimi» ləğv edilməsi üçün şərait yaratdı.

# CƏBRAYIL RAYONU

1929-cu ildə Cəbrayıl qəzası ləğv olunub ərazisi yeni yaradılmış Qarabağ mahalının tərkibinə verildi. 1930-cu il avqustun 8-də mərkəzi Cəbrayıl kəndi olmaqla Cəbrayıl rayonu təşkil edildi. Rayonun ərazisi indiki hüdudlar daxilində [sahəsi 1050kv.km, əhalisi 24.300 nəfər] müəyyən olundu. Bu zaman kənd təsərrüfatının kollektivləşdirilməsinin qızğın çağı idi. 1932-ci ildə kolxozların sayı 47-yə çatmışdı. Lakin onların qoşqu heyvanı, kənd təsərrüfat texnikası, əkin suyu, mal-qara üçün ictimai binaları yox idi. 1931-32-ci illərdə bərk quraqlıq nəticəsində taxıl əkinlərindən xeyli az məhsul götürüldüyündən aclıq hökm sürürdü. Respublika hökuməti tərəfindən maddi yardım göstərilmirdi. Belə bir ağır şəraitə baxmayaraq 1931-ci ildə iməcilik yolu ilə Maralyan kəndi yaxınlığında Araz çayından kanal çəkildi. Arazboyu torpaqların bol su ilə təmin olunması aran ərazilərində təsərrüfatın dircəlməsi üçün şərait yaratdı. Əkin sahələri genişləndirildi , pambığın məhsuldarlığı artırıldı. Rayon icraiyyə komitəsinin sədri Ə. Novruzov və rayon partiya Komitəsinin katibi C. Hacıyevin Azərbaycan K [6] P MK və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinə göndərdikləri raportda deyilir ki, Cəbrayıl rayonu pambığın yığılıb dövlətə təhvil verilməsini yaxşı təşkil edib. Ölkəyə 739.361 kq məhsul verərək öhdəliyi dekabrın 11-də artıqlaması ilə ödəmişdir. Rayon əməkçiləri dekabrın 13-də Mil sovxozuna [Beyləqan rayonu] köməyə gedəcəklər. Bu nailiyyətə görə Azərbaycan K[B]P MK-nin 1-932-ci il 11 dekabr tarixli qərarı ilə Cəbrayıl rayonunun adı respublikanın Qırmızı lövhəsinə yazıldı. 1933- 34-cü illərdə təsərrüfatların çoxundan yüksək məhsul götürüldü. Əhalinin güzəranı nisbətən yaxşılaşmağa başlamışdı. Xalq heç cürə əsarətlə barışmır yeri düşdükcə xalqa yad rejimə qarşı çıxırdı. Rayonun Sirik, Alıkeyxalı, Maşanlı, Dağmatumas kəndləri hərakatın önündə gedirdi. Onlar qonşu Zəngilan və Qubadlı rayonlarının ərazilərindəki həmfikirləri ilə əlaqə yaratmışdılar. Vaxtı ilə İran ərazilərinə qaçmış ünsürlər də onlara köməklik göstərdilər. Onlar gizli fəaliyyətdən açıq silahlı mübarizəyə keçmişdilər. Onlar əhalini yerli sovet orqanlarına tabe olmamağa, kolxozları dağıtmağa çağırırdılar. Soltanlı kənd şurasının sədri Mirzə İbrahimin evini yandırıb özünü öldürdülər. Horovlu, Minbaşılı, Süleymanlı kəndlərində fəal sovet işçiləri Musa Yadigar oğlu, Həsən Kazımov, Allahverdi Mehdiyevi qətlə yetirdilər, Piriş Əliyevi ölümçül yaraladılar. Beləliklə, rayonda Sovet hakimiyyətinə qarşı hərəkat güclənmişdi. Ona görə də Azərbaycan K [6] P MK-nın göstərişi ilə Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarında silahlı dəstələr yaradıldı. İki günlük şiddətli vuruşmada Sobu

meşəsində bandit dəstələri tamamilə darmadağın edildi. Üsyançı bu döyüşdə həlak oldu. Ordu hissələrininköməkliyi ilə onlar da darmadağın edildi. Cəbrayıl rayon siyasi şöbəsinin rəisi Mürsəl Rüstəmovun başçılıq etdiyi əməliyyat qrupu Kor Abdullanın dəstəsini məhv etdi, özü öldürüldü. Bu igidliyə görə M. Rüstəmov Cəbrayıl rayon icraiyyə komitəsi tərəfindən üzərində xatirə sözlər yazılmış gümüş cib saatı ilə mükafatlandırıldı. Həmin saat rayon tarix diyarşünaslıq muzeyində saxlanılır. Sirik—Əhmədli əməliyyatından az sonra Maşanlı, Alıkeyxalı, Keçəlməmmədli, Usubbəyli və Əliyanlı kəndlərində olan dəstələr də məhv edildi. Soltanlı kəndindən Mövlüşün dəstəsi İrana qaçdığı yerdə yaxalanıb darmadağın edildi. Gələcəkdə belə çıxışlara yol verməmək üçün rayon siyasi idarəsinin M. Rüstəmov, M. Səfərov və M. Məmmədovdan ibarət xüsusi dəstəsi əhalidə olan silahların yığılmasını təşkil etdi. 1935—37-ci illərdə MTS-in köməkliyi ilə Şükürbəyli kəndində elektrik stansiyası, səkkiz otaqlı məktəb və baytarlıq məntəqəsi üçün binalar, MTS işçiləri üçün yaşayış binası inşa edildi, həmin binalarda 3 kilometr uzunluğunda su kəməri çəkildi, kənaf zavodu genişləndirildi, 1934-cü ildə 500 hektar sahədə kənaf əkilirdisə 1935-ci ildə əkin sahəsi 800 hektara çatdırıldı.

1935-ci ildə staxanovçuluq Cəbrayıl rayonunda da geniş yayılmağa başladı. Staxanov hərəkatının pionerlərindən Mahnisə Əmiraslanova, Qıcılı Süleymanova, Qaragöz Quliyeva, Məmməd Əliyev, Murtuza Mehdiyev və başqaları əməkdə daha yüksək nailiyyətlər qazanırdılar. 1935-ci ildə dövlətə barama satışında fərqləndiklərinə görə Horovlu, Minbaşılı, Maralyan, Quycaq, Süleymanlı və Papı kəndlərindən 21 nəfər ÜIKTNS-nin iştirakçısı oldu.

1936-37-ci illərdə kolxozların çoxu iqtisadi cəhətdən hələ zəif olduğundan rayonda olan 49 kolxoz 20 kolxozda birləşdirildi. Bu, geridə qalmış təsərrüfatların canlanması üçün şərait yaratdı. Sarıcalı kəndi yaxınlığında Araz çayından kanal çəkildi, suvarma sistemi qaydaya salındı, pambıq əkin sahələri genişləndirildi. Maldarlıq da inkişaf etdirildi. Ayrı-ayrı təsərrüfatlarda qazanılmış nailiyyətlərə görə Məhərrəm Əliyev [Soltanlı kəndi], Islam Balayev [Maralyan kəndi], Surxay Şirinov [Süleymanlı kəndi] Yaqub Gülməmmədov [Horovlu kəndi], Sadıq Rəhimov [Karxulu kəndi], İbrahim Əliyev [Çərəkən kəndi], Məhid Rüstəmov [Mirzəcanlı kəndi] ÜIKTNS-nin iştirakçısı oldular. 1934-cü ildə rayonda xalçaçılıq arteli yaradıldı. Artelin 554 üzvü var idi.

20—30-cu illərin ağır şəraitində Cəbrayılda Yəhya Ağakişiyev, Əyyub Murtuzəliyev, Bəkir Abbasov, Həsənalı Baxşəliyev, Xıdır Əliyev, Göyüş İsmayılov, Musa Məmmədov, Ziyad Tarverdiyev, Maşallah Babaşov, Cəlal

Hüseynov, Firudin Qasımov, Həmid İsmayılov, Cəmil Nəcəfov, Misir Baxşəliyev, Alıhüseyn Hüseynov, Umla Qasımova, Şanxanım Quliyeva, Küləbətin Əliyeva, Dilarə Əliyeva və başqaları fəal mədəniyyət və təsərrüfat kadrları kimi formalaşmışdılar.

Maarif, mədəniyyət və əhaliyə tibbi xidmət sahələri də inkişaf etdirilirdi. 1930-cu ildə səkkiz yaşdan yuxarı bütün uşaqlar siyahıya alınıb məktəblərə cəlb olundu. 1935-ci ildə Cəbrayıl kəndli-gənclər məktəbi əsasında rayonda ilk orta məktəb təşkil edildi. Şagirdlərin əmək və musiqi tərbiyəsinə xüsusi fikir verilirdi. Cəbrayıl kənd orta məktəbində şagirdlərə nəfəsli orkestrdə çalmaq bir fənn kimi tədris edilirdi. 1940-cı ildə məktəblərin sayı 46-ya [6 orta, 17 natamam, 23 ibtidai] çatmışdı. 30-cu illərdə təlim prosesinin təşkilində Muxtar Yusifov, Qafar Əliyev, Hüseyn Həsənov, Şirin Zeynalov, Məmməd Verdiyev, Xanlar İsmayılov, Zəkəriyyə Mehdizadə, Əminə Əbilova, Bilal Əhmədov, Lətif Əhmədov və başqa müəllimlərin zəhməti xüsusilə qeyd edilməlidir.

30-cu illərdə istedadlı tarzən Bilal və Nəriman Vəliyev qardaşları, Ədil Mirzəyev, qarmonçalan Baxış, xanəndələr Cümşüd Dərgahov, Məhəmməd Əliyev, Ağalar Əliyev, Vedan İsmayılov müntəzəm olaraq camaat qarşısında çıxış edir, konsertlər verirdilər. 1939-cu ildə rayonda ilk dəfə olaraq bədii özfəaliyyət olimpiadası keçirildi. Tarzən Bilal Vəliyevin muğam və mahnı ansamblı [bədii rəhbər Mahmud Məmmədov] olimpiadanın qalibi oldu və respublika olimpiadasında iştirak etmək hüququ qazandı. Aşıq Mustafanın rəhbərliyi altında zurnaçılar dəstəsi xüsusilə ad qazanmışdı. Bu yerlərin camaatının zurnanın yaratdığı zövqü çılğınlıqla ifadə edən məşhur «İçində ölüm, a qara zurna» «İçaa girim, a qara zurna» ifadələri də elə bu dövrlərdə yaranmışdı. 1930-cu illərdə həvəskar artistlərin iştirakı ilə «Əsli və Kərəm, «Leyli və Məcnun», «Arşın mal alan» və başqa əsərlər tamaşaya qoyulurdu. Maraqlıdır ki, bu tamaşalarda Cəbrayıl İsmayılov Telli, Cəfər Məmmədov Gülçöhrərollarında çıxış edirdilər. Sonralar Mədinə Əliyeva, SayalıMiriyeva, Bilqeyis Həsənova, Simuzər Hüseynova kimi fəal qadınlar teatr tamaşalarında çıxış etməyə başladılar. 1920—1930-cu illərdə Məşədi Cəlilin oynaya-oynaya, qaşgözünü oynada-oynada göstərdiyi məzəli səhnələr hamının böyük marağına səbəb olurdu.

Cəbrayılın istedadlı el sənətkarları Aşıq Humay, şair Bədəl, Aşıq Surxay, Aşıq İsmayıl, Aşıq Məlik, Aşıq İbiş, Aşıq Abdulla, Aşıq Mustafa müntəzəm olaraq camaat qarşısında çıxış edir, maraqlı nağıl gecələri təşkil edirdilər. Aşıq Humay bütün Qarabağda tanınmış ustad sənətkar idi. O, əvvələr öz kəndindəki məktəbdə təhsil almış, sonralar bir müddət Rusiyanın müxtəlif şəhərlərində işləmiş,

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Cəbrayıla qayıdaraq ömrünü əbədilik sədəfli tara bağlamışdı. Aşıq Humay el havalarını tarda və qarmonda eyni məharətlə çalıb oxuyurdu. Ustad aşıq sinədəftər idi, tarı əlinə alarkən şer qoşmaq üçün fikirləşməyə, kağız-qələmə ehtiyacı yox idi. Aşıq Humay 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında fəal iştirak etmiş, orada verilən konsertlərdə ifa etdiyi bir neçə qoşması rus dilinə tərcümə olunmuşdur. Böyük Vətən müharibəsi illərində Aşıq Humay şerlərinin çoxunu vətən məhəbbətinə həsr etmişdir. Müharibə illərində aşığın yazdığı bir neçə şerlərinə bəstəkarlarımız musiqi bəstələmişdi. Bu şerlər o illərin ən çox sevilən nəğmələrindən idi. Aşıq Humay həm də on iki xalq dastanının özünəməxsus variantlarını işləyib hazırlamışdır.

Aşıq Surxay ruhani məktəbində təhsil almış, inqilabdan sonra sovet məktəblərində oxumuşdu. Uşaq yaşlarından o, musiqiyə, xüsusilə aşıq sənətinə böyük maraq göstərmiş, saz, tar, zurna, tütək və nağara çalmağı mükəmməl öyrənmişdi. Gözəl və məlahətli səsi, təsirli şerlər yazması onu ömürlük aşıq sənətinə bağlamışdı. 30-cu illərdə Cəbrayıldа və qonşu rayonlarda elə bir toy məclisi, konsert olmazdı ki, Aşıq Surxay orada çalıb oxumasın. O, 1939-cu ildə Bakıda keçirilən «Gənc istedadlar» festivalında birinci dərəcəli diploma layiq görülmüşdür. Aşıq Surxay 1942-ci ildə öz xahişi ilə cəbhəyə getmiş, sazını da özü ilə aparmış, Krım əməliyyatında həlak olmuşdur. Ustad aşıq qoşma, təcnis, gəraylı və s. şerlərində vətənə, xalqa məhəbbəti, təmiz və insani hissləri böyük məharətlə tərənnüm etmişdir:

Mizrabını vur tellərdən,
Sözüm çoxdur bu ellərdən,
Könüllərdən, ürəklərdən
Selə dönüb ax meydana

deyən sənətkarın qənirsiz el gözəllərini tərənnüm etdiyi şer indi də dillər əzbəridir.

Horovlu kəndindən Şair Bədəlin duzlu-məzəli şerləri hələ 30-cu illərdə xalq arasında dildən-dilə gəzirdi.

Aşıq Abdulla, Mahmud Mahmudov, Babakişi Xankişi oğlu, Heydərqulu Səttar oğlu, Baxşəli Həmzəli oğlu bir çox xalq nağıl və dastanlarını əzbər bilirdilər. Professor M. h. Təhmasib yuxarıda adları göstərilən şəxslərdən topladığı nağıl və dastanları yüksək qiymətləndirmişdir.

Cəbrayıl dadlı-duzlu söhbətlər edən, maraqlı qaravəllilər, lətifələr, atalar sözləri söyləyən sinədəftər ağsaqqallar, ağbirçəklər yurdudur. Onlardan Bəşir Məmmədov,

Əbil Verdiyev, Hüseynalı Fətəliyev, Xasməmməd Alməmmədov, Məşədi Həmid, Tumasqulu Quliyev, Balış Məmmədova, Sərfi Ağayeva və başqalırının duzlu və müdrik söhbətləri indi də dildən-dilə gəzir. Onların maraqlı söz-söhbətləri rayon tarix diyarşünaslıq muzeyinin əməkdaşları tərəfindən toplanılır.



Aşıq humay [1893—1971]
Ашуг Хумай (1893—1971).

Cəbrayılın 20-30-cu illərdə mədəni həyatından danışarkən Azərbaycanın görkəmli müğənnisi Cabbar Qaryağdı oğlunu xatırlamamaq olmaz. Sevimli müğənnimizin o ildərdə Cəbrayılda yaşayıb xırdavat alveri ilə məşğul olan qardaşı Məşədi Qafargilə[o pəsdən gözəl oxuyardı] gəlişi həmişə bayrama çevrilərdi. O, hərdən məhşur kamançaçı Qulunu da özü ilə gətirərdi. C. Qaryağdı özünü bəzən sərxoşluğa vurub dərin mənalı sözlər danışan və buna görə də xalq arasında «Kefli Bəşir» adı ilə tanınan Bəşir Məmmədov, ata-babası Şuşadan olan Məşədi Abış,

Mirmöhsüm Mirimanov, Abbas Şəfiyev və başqa ağsaqqallarla dostluq edir, onların xahişi ilə gecədən xeyli keçənə qədər oxuyar, məlahətli səsi ilə hamını heyran qoyardı. Kefli Bəşir xatırlayırdı: «Cabbar məzəli adam idi. Tar- kamança olmayanda dodağının altında mızıldanıb özü-özünü «xoda» salır, sonra oxumağa başlayardı. Bir dəfə mən Cabbara dedim ki, səni and verirəm allaha, bir də bu Cəbrayıla gəlmə, Çünki hər dəfə sən gələndə mütləq gərək gəlib sənə qulaq asaq, onda da işdən-gücdən qalırıq. Cabbar mənim zarafatcıl olduğumu bildiyindən inciməyib dedi ki, ay bəy, [Bəşirə bəzən bəy də deyirdilər] nə qədər ki, muğam var və cəbrayıllılar da muğamın ölüsüdürlər, vallah-billah gələcəm incimə».

Hələ 1927-ci ildə Cəbrayılda «Qızıl Araz» qəzeti çıxırdı. 1932-ci ildən «Lenin bayrağı» [1962-ci ildən «Kolxozçu», 1990-cı ildən «Xudafərin»] qəzeti nəşr edilməyə başladı. 1934-1936-cı illərdə MTS-nin siyasi şöbəsinin orqanı olan «Kolxoz iskrası» qəzeti buraxılırdı. 1936-cı ildə rayonda yerli radio verilişləri redaksiyası təşkil edildi. 1934-cü ildə rayon mərkəzində olan xəstəxanada çarpayıların sayı ona çatdırıldı, bəzi kəndlərdə feldşer məntəqələri təşkil edildi. Rayonda səhiyyə işinin təşkilində və əhaliyə tibb xidməti göstərilməsində baş həkim Mahmud Əliyevin [O, sonralar Azərbaycan SSR Səhiyyə Naziri, SSRI Xarici İşlər Nazirinin müavini vəzifələrində işləmişdir] böyük rolu olmuşdur. 30-cu illərin repressiyası Cəbrayıllılara da ağır zərbə vurmuşdu. Qəzada Sovet hakimiyyəti uğrunda fəal mübariz M. Məmmədxanov «xalq düşməni» elan edilib güllələndi. Fəal təsərrüfat işçiləri Məhəmməd, Üzeyir və Sadıq Rüstəmov qardaşları həbsə alınıb məhv edildilər. Cəbrayıl kənd inqilab şurasının sədri Mirzə Nəriman Məmmədova böhtan atıldığından intihar etdi. Xanəmir İsmayılov guya atasının varlı olmasını gizlətdiyinə görə həbsə alındı. Yeri gəlmişkən qeyd edək ki, X.İsmayılov görkəmli dramaturqumuz Hüseyn Cavidlə Bakı mərkəzi həbsxanasında bir kamerada saxlanılmışdı. o, Həmin ağır günləri belə xatırlayırdı: «Mən iyirmi gün böyük şair Hüseyn Cavidlə bir kamerada saxlandım. Cavid xəstəhal idi. Yanlarından çiban çıxartmışdı. Mən onun yaralarının üstünə xəmir qoyurdum. Əlimdən gələn köməkliyi edirdim. Mən ona «Cavid əfəndi» deyə müraciət edəndə etiraz edib dedi ki, oğlum, mənə «əfəndi» demə, zalımlar qoymadılar məndə əfəndilik qalsın. Bir dəfə gəzinti yerinə gedəndə qapının ağzında yıxıldı. Mən istədim ki, onu qaldıram, razı olmadı, dedi ki, qoy bir az uzanım, sonra kömək edərsən qalxaram. Həbsxana nəzarətçisi acıqlanıb dedi ki, qalx, yol ver keçək. Cavid eynəyinin üstündən baxıb astadan dedi: «Eybi yoxdur, tapdala keç, indi tapdalamaq zamanıdır...» Bu əhvalatı heç unutmaram. Mənim haqsız tutulduğumu biləndən sonra azad etdilər. Mən rayona qayıdanda Cavidlə bir

kamerada saxlandığımı deyəndə mənə dedilər ki, onun adını tutma. Kənd fəalları Xıdır Əliyev, Abıhəyat Kərimova, Məryəm Quliyeva, Cəlal Hüseynov heç bir əsas olmadan partiya sıralarından xaric edildilər.

Az miqdarda mal-qarası olan hörmətli şəxslər — Əsəd Məmməd oğlu, Calal Həmid oğlu, Həsən Ağakimi oğlu, Əhməd Məmməd oğlu, Qulu Həsir oğlu, Ağayar Ocaqverdi oğlu, Talış Tarverdiyev, Fərzalı Mehdi oğlu, Xanış Rüstəmov, Zeynal Quliyev, Baba İbrahimov, Yolçu Şükür oğlu, Salman Məmmədalı oğlu və onlarca beləlləri «varlı» hesab edilərək həbsə alınıb məhv edildilər. Cəbrayıl qəza inqilab komitəsinin sədri işləmiş Əsəd Qarayev Azərbaycan K [6] P-nın IX qurultayında demişdir: «Biz kənddə iki qoşqu heyvanı olanı qolçomaq adlandırıb Heyvanını əlindən alırıq, özünü də məsuliyyətə çəkirik. Bəs qoşqu heyvanı olmayan kəndli torpağı nə ilə becərsin. Belə vəziyyətdə kəndli təsərrüfatını inkişaf etdirmək olarmı?» Bu kimi haqlı etirazlara baxan yox idi, əksinə onun özünə «xalq düşməni» damğası vuruldu.

«Bolşeviklər islam dinini tanımırlar» təbliğatı min ildən çox bu dinə etiqad edən xalq kütlələri arasında böyük narazılığa səbəb olmuşdu. İş o yerə çatdı ki, keçmişdə Zəngəzur qəzasının baş qazısı işləmiş Bəhlul Əfəndinin başçılığı altında Qubadlı rayonunun bəzi kəndlərində «dini xilas etmək» uğrunda hərəkat başlamışdı. Bəhlul Əfəndi Cəbrayıl rayonunun Çələbilər kəndindən məşhur təriqət başçısı hacı Qasım Çələbinin kürəkəni olduğundan bu rayonun Cələbilər, Sirik, Dağtumas, Qazanzəmi, Dağ Maşanlı kəndlərinin də bəzi dindarları ona qoşulmuşdu. Qaryagindən göndərilən Semyonovun süvari dəstəsi həmin dindarların çoxunu məhv etdi. Bəhlul Əfəndi tutulub güllələndi. Bəhlul Əfəndi Behcət Azərbaycanın görkəmli şairi Nəbatinin həyat və yaradıcılığından bəhs edən əsərin tərtib-müəllifi idi. Cəbrayıllılardan Mirzəli Əliyev, Məşədi Molla Ələkbər, Molla Mustafa Cələbi [o, Müsavat partiyasının üzvü olmuşdu], Molla Möhübəddin, Mir Yusif Əfəndi, Mir Əzim Əfəndi, Molla Mir Paşa, Molla Mir Hüseyn, Molla Həbib, Məhəmməd Çələbi və başqa bir çox hörmətli din xadimləri həbs edilərək sürgünə göndərildilər. Molla Həşim Molla Yahya oğlu, Molla Məhəmməd, Molla Mirağa 10 il müddətinə seçki hüququndan məhrum edildilər. 400-dən çox əhali yaşayan Çələbilər kəndi bütövlükdə amansız repressiyanın qurbanı oldu. .

Böyük Vətən müharibəsi illərində 4242 nəfər cəbrayıllı Sovet ordusu sıralarına səfərbərliyə alındı, onlardan 1672 nəfəri faşist işğalçılarına qarşı döyüşlərdə həlak oldu. Cəbrayılın ən yaxşı oğulları Cəmil Əhmədov, Mahmud İsmayılov, Balay Səfərov, Fərhad Fətəliyev, Bilal Əliyev, Şahı Hüseynov, Gürşad Şərifov,

Dünyamalı Rüstəmov və bir çox başqaları daha böyük fədakarlıqlar göstərib canlarını vətən yolunda qurban verdilər. 20 yaşlı Cəmil Əhmədov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Cəmilin keçdiyi döyüş yolunu olduğu kimi təsəvvür etmək üçün hadisələri öz gözü ilə görmüş polk komandiri, qvardiya polkovniki İ.İ. Belkinin məktubunu oxumaq kifayətdir. İ. Belkin yazır: «Belorusiyada Prujintsa adlı yaşayış məntəqəsində leytenant Cəmil Əhmədov birinci olaraq ayağa qalxıb vzvodunu həmləyə apardı, birinci olaraq düşmənin səngərinə çatdı. Əlbəyaxa vuruşmada örtülü mövqedə olan pulemyot irəliləməyimizə imkan vermirdi. Cəmilin vzvodunun döyüşçüsü Roman sürünüb iri bədəni ilə pulemyotun ambrozurunu qapadı. Bu fədakarlığa görə Romana Sovet İttifaqı Qəhrəmanı adı verildi. Leytenant Əhmədov öz döyüşçülərini belə yetişdirirdi. Onun vzvodu polkun ən fədakar dəstəsi idi. Ən çətin tapşırıqlar onun vzvoduna verilirdi. Cəmilin vzvodu vuruşa-vuruşa Ptic çayını keçərkən o yaralandı. Amma döyüş meydanından çıxmadı. On saat bataqlıqda rəşadətlə döyüşdü, əsas hissələr çatana qədər mövqeyi əldə saxladı. Əsas hissələr çatanda Cəmil vzvodunu yenə də birinci olaraq düşmən üzərinə apardı, atəş aca-aca yaşayış məntəqəsinə girdi. Almanlar zirzəmilərdən, damlardan atəş yağdırırdı. Cəmil burada üçüncü dəfə yaralandı. Ona sanitar məntəqəsinə çəkilməyi əmr etsələr də o, qana boyanmış halda atəş açırdı. Onun döyüşçüləri yaşayış məntəqəsini azad etdilər və Pinski şəhərinə yol açdılar. Ancaq bundan sonra Cəmili qospitala göndərdilər. Bu əməliyyata görə mən leytenant Cəmili Sovet İttifaqı Qəhrəmanı adı almağa təqdim etdim. Cəmil sağalıb 1944-cü il sentyabrın 26-da yenidən polka qayıtdı. Mən onu yüksək mükafat münasibətilə təbrik etdim. O, Polşaya qədər vuruşdu. Düşməni Narev çayına qədər sıxışdırdı. Bu döyüşlərdə üç yerdən yaralandı. Onu döyüş meydanından çıxararkən dördüncü dəfə ağır, ölümcül yaralanmışdı... Ölüm bizim aramızdan ən sədaqətli və ən qorxmaz bir komandiri ayırdı. Onunla yalnız Ordu deyil, Azərbaycan xalqı və vətənimizin bütün xalqları fəxr edirlər. C. Əhmədov «Aleksandr Nevski», «Qırmızı ulduz» ordenləri ilə təltif edilmişdir. SSRİ Ali Soveti Rəyasət heyətinin 1945-ci il 24 mart tarixli fərmanı ilə ona ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Onun cəbhədən ata-anasına yazdığı məktubları həyəcansız oxumaq olmur. «Tezliklə nemesləri qırmağa gedəcəyik», «Doğma torpağı nemeslərdən təmizləməyə gedirik», «Düşmənin məğlubiyyəti uzaq deyil, siz bacardığınız qədər yaxşı işləyin», Sabir [Cəmilin kiçik qardaşıdır—red.] jelayu uspexov v ucebe», «Elə edin ki, mən evə qayıdanda başınızda ağ tük görməyim», «Yenə də hissəmizdəyəm. Komandirimiz məni ata kimi qarşıladı» və s. sətirlər Cəmilin doğma vətənə, valideynlərinə,

qardaş-bacısına hədsiz məhəbbət bəsləyən, ağır döyüşlər zamanı da qonum-qonşularını xatırlayıb, onların qayğısını çəkən, sovet xalqını qələbəsinə böyük inam bəsləyən cəsur bir gənc olmasını göstərir. Qəhrəmanın qardaşı Sabir Əhmədov çox yaxşı deyir: Bütöv bir insan ömrünü ləyaqətlə yaşamaq üçün Cəmildə düşüncə və iradə vardı. Müharibə bu ömrü yarımçıq kəsdi. Hərbin gərgin amansız tələbilə gəncin varlığındakı qəhrəmanlıq bütünlüklə meydana çıxdı, onu ölümündən sonra qələbəyə çatdırdı.» İstedadlı şairimiz Əli Kərimin «heykəlin qardaşı» poemasında Cəmilin keçdiyi qəhrəmanlıq yolu odlu misralarla tərənnüm olunmuşdur. Qəhrəman haqqında S. Əhmədovun ssenarisi ilə «Qayıdacağına inanırdı» sənədli film çəkilmiş, kiçik qardaşı Sabir Əhmədov «Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov» adlı kitabça yazmışdır.

Haşiyə: Zəmanəyə baxın. 20 yaşlı gənc sinəsini faşist gülləsi qabağına verən günlərdə onun atası, peşəsi aşbaz olan zəhmətkeş bir insan Məhəmməd Əhmədov vəzifəsində guya təsərrüfatsızlığa yol verib deyə qanun «keşiyində» dayananlar tərəfindən həbsxanaya salınmışdı. Ona görə də Cəmil evlərinə göndərdiyi məktubları anası Tavadın adına yazırdı.

Müharibə illərində arxa cəbhədə rayon əməkçiləri fədakarlıqla çalışır, cəbhəyə əllərindən gələn köməyi edirdilər. 1941-42-ci illərdə bütün kənd təsərrüfatı planları artıqlaması ilə yerinə yetirildi. Ölkənin müdafiə fonduna 1455 kq yun, 500 ədəd. dəri, 955 cüt corab, 560 cüt əlcək, 668 cüt dolaq göndərilmiş, Cəmil Nəcəfov 115 min, Rizvan Rüstəmov 105 min, Sevdimalı Xanaliyev 100 min, Xanımağa Cəfərquliyeva 100 min, Həmid İsmayılov 25 min manat pul, Nübar Məmmədova qızıl boyunbağı vermişdilər. İşğalçılardan azad edilmiş ərazilərin əhalisinə 222 min manat pul, 8836 kq taxıl, 10 baş iribuynuzlu qaramal, 198 kq yağ, 45 kq pendir, 14 ədəd palaz yardım göndərilmişdi. Müharibədə həlak olanların ailələrinə 5 milyon 751 min manat pul, 53 ton taxıl, 2 941 dəst paltar, 387 cüt ayaqqabı verilmişdi. Müharibə illərində kənd təsərrüfatında nailiyyətlər qazandıqlarına görə 1348 nəfər Cəbrayıllı «1941-45-ci illər Böyük Vətən müharibəsi dövründə rəşadətli əməyə görə» medalı və 171 nəfər döş nişanı ilə təltif edilmişdi.

Rayonun iqtisadiyyatının yüksəldilməsində Lenin ordenlilər — Həzi Həziyev, Mənsumə Məmmədova, Kamılxan Rüstəmova, Məmməd Məmmədov, Nəriman Ağayev və bir çox digər əmək qabaqcıllarının böyük zəhməti olmuşdur.

Müharibədən sonra rayonda maarif, mədəniyyət və səhiyyənin də inkişafına diqqət artırıldı. İnqilabdan əvvəl rayonda bir nəfər də ali təhsilli olmadığı halda sonralar üç mindən çox cəbrayıllı ali təhsil almışdır. Təlim-tərbiyə işini nümunəvi təşkil etdiklərinə görə müəlliflərdən Muxtar Yusifov, Lətif Əhmədov, Əminə

Əbilova Lenin ordeni, Cəbrayıl Hacıyev, Sahib Bayramov Qırmızı Əmək Bayrağı, Fərman Quliyev və Rzaqulu Hacıyev Şərəf nişanı ordenləri, 30 nəfər müxtəlif medallarla təltif olundular. Hüseyn Əliyev, Əli Əlizadə, Bəhlul Həsənov, İslam Məmmədov və Rəşid Məmmədova Azərbaycanın Əməkdar müəllimi adı verildi.

1947-ci ildə rayonda bir mədəniyyət evi, 20 qiraət koması fəaliyyət göstərirdi. 1966-cı ildə kitabxanaların sayı 16-ya, kənd klublarının sayı 8-ə çatdırıldı. Özlərinin gözəl ifaçılıq məharətləri ilə hamını valeh edən Zahid Kazımov [tar], Fərəməz Əliyev [tar], Əli Quliyev [kamança], Xurşud Əliyev [zurna], Nadir Nəsirov [klarnet], Aydın Hüseynovun [nağara] iştirakı ilə güclü bədii özfəaliyyət kollektivi yaradıldı. 1970-ci ildə təşkil edilən «Çinar» mahnı və rəqs ansamblı öz repertuarını daha da zənginləşdirərək 1975-76-cı illərdə Moskva və Vilnüs şəhərlərində uğurlu çıxışlar etdi.

1947-ci ildə rayonda bir xəstəxana, 4 həkim məntəqəsi olduğu halda, 1966-cı ildə xəstəxanaların sayı 7-yə çatdırıldı. 1947-ci ildə rayon üzrə cəmi 14 həkim, 16 feldşer vardısa, 1981-ci ildə 78 həkim, 298 orta tibb işçisi əhalinin sağlamlığı keşiyində dayanırdı. Əhaliyə nümunəvi tibbi xidmət göstərdiklərinə görə həkimlərdən Gərşasib İsmayılov Xalqlar dostluğu, Minə Həmidova, Vahid Hüseynov, Hüseyn Əhmədov Şərəf nişanı ordenləri ilə, 7 nəfər həkim və tibb işçisi müxtəlif medallarla təltif edildilər.

Sosial tərəqqinin ən mühüm sübutu olan insanın uzunömürlü olmasıdır. Hələ 1936-cı ildə Horovlu kənd sakini Mikayıl Qənbər oğlunun 160 yaşı təntənəli qeyd edilmişdi. Hazırda Horovlu kəndində yaşı 90-ı keçmiş 20 nəfərə qədər adam var. Çərəkən kəndindən Şirin Həsənov 154 il ömür sürdü. «Yeni Berlin» illüstrasiyalı jurnalı [1972-ci il may] Şirin babanın şəklini vermiş və Azərbaycanı uzunömürlülər diyarı adlandırmışdır. Mirzəcanlı kəndindən Çiçək Rüstəmovanın 95, Mərcanlı kəndindən Sərfi Ağayevanın 110, Tatar kəndindən İsaq Quliyevin 118, Qalacıq kəndindən Məcid Rəhimovun 95 yaşları olsa da, gümrahdırlar, təsərrüfat işlərində iştirak edirlər. Rayonda belə uzunömürlülərin sayı çoxdur.

Müharibədən sonra bədən tərbiyəsi və idmanın inkişafına da diqqət artırıldı. 1950-ci illərdə müəllim Qabil Hacıyevin təşəbbüsü ilə yaradılmış futbol komandası respublikada güclü idman kollektivlərindən biri idi. Həmin komandanın üzvlərindən Abutalıb Namazov, Bəkir Bağırov, Ənvər və Saşa Kazımov qardaşları, Məsi Məmmədov, Famil Nəcəfov, Nəsib Hacıyev, Niftalı Hümbətovun, dəfələrlə respublika yarışlarının qalibi olmuş təcrübəli boksçu Hüseyn Abbasovun adları rayonun idman salnaməsində fəxri yerləri tutur. 60-70-ci illərdə gənclərdən Akif Vəliyev [yüngül atletika], Məmmədəli Mehdixanov [güləş], Əhməd Allahverdiyev

[güləş] keçmiş SSRİ idman ustaları adına layiq görüldülər.

1960-1970-ci illərdə rayonun sosial -iqtisadi sahələrində nəzərə çarpacaq dərəcədə nailiyyətlər qazanılsa da mənfi meyllərə də yol verilirdi. Planların yerinə yetirilməsi bəzən istehsal və satış tapşırıqlarının azaldılması, yaxud da əkin sahələrinin artırılması hesabına olurdu. Kənd təsərrüfatının inkişaf etdirilməsini sürətləndirmək üçün qəbul edilən qərarlarda çox vaxt əsassız vədlər verilir, qərarlar kağız üzərində qalırdı. 1979-cu ildən başlayaraq pambıqçılıqdan üzümçülüyə keçirilməsi iqtisadi cəhətdən əlverişli olsa da, taxılçılığa və heyvandarlığa böyük zərbə vurdu. Taxıl əkini sahələri və heyvandarlığın yem bazası xeyli azaldı. hələ orta əsrlərdən başlayaraq gözəl xalçaları ilə bütün Şərqdə məşhur olan Cəbrayılda xalçaçılıq arteli əsassız yerə ləğv olundu. Əhaliyə fərdi ev tikmək üçün torpaq sahəsinin verilməsi xeyli məhdudlaşdırılmış və bu işdə bürokratizm kök salmışdı. Mədəniyyət, maarif, səhiyyə, əhaliyə ticarət və məişət xidmətlərində də durğunluq hökm sürürdü. Lenin adına [keçmişdə Stalin adına] Mərkəzi muzeyin Cəbrayıl filialı ləğv olundu. Muzeydə olan sənədlərdə şəxsiyyətə pərəstiş dövründə cinayətlər törətmiş, yaxud da işində nöqsanlara yol vermiş adamların adları olduğundan həmin sənədlər məhv edildi. Halbuki o sənədlərdə Azərbaycanda, eləcə də Cəbrayıl qəzasında inqilabi hərəkat tarixini öyrənmək üçün qiymətli məlumatlar var idi. 1922-ci ildə rayon mərkəzindəki ulu çinarın budaqları arasında səliqə ilə tikilmiş gözəl istirahət guşəsi olan və Cəbrayılın sanki rəmzi kimi tanınan yaraşıqlı talvar «yuxarıların» təkidi ilə söküldü.

Kadrlara münasibətdə də haqsızlığa yol verilirdi. Mərcanlı kəndindən Qaryağdı Həsənov SSRİ-nin Türkiyə səfirliyinin əməkdaşı işləyən zaman əsassız yerə həbs edilib partiya sıralarından xaric edildi. 1920-ci ildən qırmızı partizan, 1924-cü ildən Sov. İKP üzvü Xanlar Həsənov yuxarı vəzifəli şəxsin ünvanına «söz» dediyi üstündə məhkəmə məsuliyyətinə cəlb olundu və partiya sıralarından çıxarıldı. Cəzasını çəkib qurtarandan sonra doğma Mirzəcanlı kəndində yaşamasına icazə verilmədi, Hadrut rayonunun Hərəkül kəndində yaşamağa göndərildi. Rayonun Çərəkən kənd sakini uzun illər Zəngilan, Ağcabədi və Jdanov [Beyləqan] rayon partiya komitələrinin birinci katibi işləmiş Vahid İsmayılov pambığın məhsuldarlığında rəqəmlərin şişirdilməsinə etiraz etdiyinə görə «yuxarı rəhbərlərin» gözündən düşdü, sıxma-boğmaya salındı, haqsızlığa dözməyərək intihar etdi.

Rayonda tikinti-abadlıq işləri geniş vüsət almışdı. Bu dövrdə rayonun mərkəzində 48 və 60 mənzilli iki yaşayış binası, mərkəzi xəstəxana binası, RİK və Statistika idarələri üçün inzibati binalar, Soltanlı və Mahmudlu kəndlərində şərab

zavodları, istehlak cəmiyyəti birliyi və onlar üçün ambar binaları, seysmik stansiya üçün xüsusi bina, 5 min yerlik stadion tikilib istifadəyə verildi. Rayonda üstüörtülü mərkəzi kolxoz bazarı, şəhərin mərkəzində istirahət parkı salındı, bu vaxta qədər olmayan əsaslı suvarma sistemi quruldu. Bunun üçün Özbəkistandan güclü nasoslar alındı. Bakı şəhəri ətraflarında torpağın altında qalmış borular rayona daşıdıldı. Araz və Həkəri çaylarında qurğular yaradılaraq susuzluqdan cadar-cadar olmuş Gəyən düzünə su çıxarıldı, əkin sahələri genişləndirildi. Rayonda olan bütün kəhrizlərdə əsaslı təmir işləri aparıldı. Hüseynağa və Məmmədbəy kəhrizlərinin suyu borularla təsərrüfatlara paylanıldı. Mahmudluya və Cəbrayıla giriş dairələri yaradıldı. Cəbrayıl—Mahmudlu yolu ikitərəfli hərəkət üçün genişləndirildi. Cəbrayıla girişdə göz oxşayan şəlalə bulaq düzəldilib nümunəvi qaydaya salındı, şəhərin mərkəzində bir sıra küçələr genişləndirilib abadlaşdırıldı. Cəbrayılın mərkəzindəki Çaylaq çayından axan sellərin ziyan vurmaması üçün sahilbərkitmə işləri görüldü. Sərhədçilərlə sıx əlaqə yaradılaraq tikanlı məftillər arxasında qalmış xeyli miqdarda torpaq sahələri alınıb kolxozlara paylanıldı. Bütün bunlar rayon partiya komitəsinin keçmiş birinci katibi mərhum Fikrət Vəlixanovun təşəbbüsü, gündəlik rəhbərliyi və yorulmaq bilməyən işgüzarlığı sayəsində həyata keçirildi. Bu yeniliklərə görə də Cəbrayıllılar F. Vəlixanova böyük ehtiram göstərir, onu özlərinin ağsaqqalı hesab edirdilər. Onun zəhməti sayəsində Hüseynağa kəhrizinin suyundan gətirilib düzəldilən şəlalə-bulaq hazırda xalq arasında «Vəlixanov bulağı» adlanır.

Rayonun mərkəzində və bir sıra kəndlərdə avtomat telefon stansiyaları qurulmuşdur. 1966-cı ildə rayonda 50 məktəb, şagirdlərin sayı 7228 olduğu halda 1989-cu ildə onların sayı müvafiq olaraq 62 və 10.958-ə çatdırılmışdır. 1987-1988-ci dərs ilində birinci sinfə qəbul edilmiş şagirdlərin səkkizinci sinfə çatdırılması 98,3 faiz, orta təhsili gətirmə 99,3 faiz olmuşdur. Rayon üzrə 2 nəfər şagird gümüş medala layiq görülmüşdür. Şəhər M. Qorki adına, C. Əhmədov adına, Əmirvarlı, Şükürbəyli kənd orta məktəblərində təlim tərbiyə işi daha yaxşı təşkil olunmuşdur. Soltanlı və Əmirvarlı kənd orta məktəbləri özünümaliyyələşdirmə sistemində işləməyə keçmişdir. Məktəblərdə 44 şagird briqadası [1534 nəfər] 225 hektar sahəni becərir.

Qabaqcıl müəllimlərdən Allahverdi İmanov, Oruc Rzayev, Müzəffər Sadıqov, Sahib Bayramov, Zoya Pankova, Ələskər Əliyev, Ataş İsmayılov, Hüseyn Hüseynov, Əziz Musayev və bir çox başqaları şagirdlərin elmi biliklərə yiyələnməsi üçün var qüvvələri ilə çalışır, öz təcrübələrini böyük həvəslə gənc müəllimlərə öyrədirlər.

Məktəb tikintisində diqqət artırılmışdır. Son üç ildə Cəbrayıl şəhərində Quycaq, Nüzgar, Əmrvarlı, Aşağı Maralyan, Hüseynalılar, Süleymanlı, Şıxılıağalı, Hovuslu, Qarağac, Qalacıq, Böyük Mərcanlı kəndlərində yeni məktəb binaları, texniki peşə məktəbləri üçün bina tikilib istifadəyə verilmişdir. Təqribən 2.100 yerlik yardımçı sinif otağı, Horovlu, Böyük Mərcanlı kəndlərində, rayon mərkəzində körpələr evləri, tikilmişdir.

Rayonda 11 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 268.100 kitab fondu olan 58 kitabxana, 23 daimi, 4 səyyar kino qurğusu fəaliyyət göstərir. Rayonun bədii özfəaliyyət kollektivləri respublika müsabiqələrində, fəal iştirak edir. «Çinar» [1989-cu ildən «Xudafərin»] ansamblının üzvlərindən Xurşud Əliyev, Şamil Əhmədov 1987-ci ildə Moskvada Böyük Oktyabr Sosialist İnqilabının 70 illiyinə həsr olunmuş konsertdə uğurla çıxış edərək Ümumittifaq xalq yaradıcılığı festivalının laureatı adına layiq görüldülər.

Rayonda istedadlı şair İsmayıl İmanzadənin təşəbbüsü ilə yaradılmış şairlərin «Ümid» ədəbi birliyi fəaliyyət göstərir. Əziz Musayev, Kəmalə Həsənzadə, Nəriman Hüseynov, Xərzalı Abbasəli oğlu, Hürriyyat Məmmədov və başqa istedadlı şairlərin yetişməsində həmin məclisin böyük rolu olmuşdur. Həvəskar rəssamlar Elçin Əliyev, Nizami Süleymanov, Elmar Ələkrəmov və başqalarının rəsmləri respublika baxış-müsabiqələrində uğurla nümayiş etdirilmişdir. Tarix-diyarşünaslıq muzeyinin ekspozisiyası xeyli zənginləşmişdir. İndi muzeydə 20 minə yaxın eksponat var. Muzeydə «Abbasovlar» ailə ansamblı yaradılmışdır. Ansambl respublika ailə ansambllarının zona və respublika baxış-müsabiqələrinin qalibi, ümumittifaq xalq yaradıcılığı festivalının laueratı olmuşdur. Muzeydə istedadlı şairə Kəmalə Həsənzadənin rəhbərliyi altında şer həvəskarı olan qızların «Aşıq Pərinin nəvələri» ədəbi birliyi fəaliyyət göstərir. Muzey işçilərinin bir qismi təsərrüfat hesabı ilə işləyir. 1985-ci il mayın 9-da Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun xatirə muzeyi açıldı. Muzeydə 600-dən çox eksponat nümayiş etdirilir. 1988-ci ildə şəhərin görkəmli yerlərindən birində qəhrəmanın heykəltəraş Ömər Eldarov tərəfindən hazırlanmış tunc büstü ucaldıldı. 1987-ci ildə rayon mərkəzində mədəniyyət və istirahət parkı salındı, 180 yerlik xəstəxana, 140 və 90 yerlik uşaq bağçaları, Böyük Mərcanlı, Hovuslu, Sarıcallı kəndlərində xəstəxana və ambulatoriya binaları istifadəyə verilmişdir. Rayonda 93 həkim, 330 orta tibb işçisi əhalinin sağlamlığı keşiyində dayanır. Həkimlərdən Vahid Hüseynov, Məhəmmədəli Heydərov, Cəlal Babaşov, tibb işçilərindən Növrəstə Hümbətova, Seyriş Əliyeva və bir çox başqaları əhaliyə tibbi xidmət göstərilməsində xüsusilə fərqlənirlər. Bədən tərbiyəsi və idmanın kütləviliyini artırmaq üçün 1987-ci ildə 5

min yerlik stadion tikilib idmançıların ixtiyarına verilmiş, idmanın müxtəlif növü üzrə üç uşaq-gənclər idman məktəbi açılmışdır. 1987-ci ildə 12-13 yaşlarından ibarət «Çinar» futbol komandası respublika «Sevinc» klubunun qalibi oldu. Yaşlılardan ibarət futbol komandası isə respublika çempionatının ikinci dəstəsində çıxış etmək hüququ qazandı və hazırda bu dəstədə uğurla çıxış edir.
futbol üzrə yeniyetmələrdən ibarət SSRİ yığma komandasının üzvüdür.
Rayon əhalisinin mədəni səviyyəsi xeyli yüksəlmişdir. 1947-ci ildə rayon üzrə cəmisi 45 radioqəbuledici olduğu halda indi demək olar ki, bütün evlərdə bir neçə kanalla işləyən televizorlar və radioqəbuledicilər var. Əksəriyyət evlərdə mayeqazdan istifadə olunur. Bütün kəndlər elektrikləş- dirilmişdir. Vaxtı ilə içməli suyu ulaq, yaxud da öküzlə uzaqdan gətirən əhali borular vasitəsilə gətirilən bulaq, kəhriz və artezian suyundan istifadə edir. Kəndlərin əksəriyyətinin sosial mənzərəsi dəyişmiş, müasir kəndlər olmuşlar. Bunu Soltanlı kəndinin timsalında görmək olar. Bu kənd keçmişdə Cəbrayıl qəzasının başqa kəndləri kimi köhnə Azərbaycan kəndi idi. Burada 1860-cı ildə 416, 1902-ci ildə 620, 1935-ci ildə 1068 nəfər əhali yaşadığı halda, hazırda əhalinin sayı 2.600-ə çatmışdır. Kənddə olan 480 təsərrüfatın hamısının bir-iki mərtəbəli yaraşıqlı evi, gözəl həyət-bacası, təsərrüfat binası var. Bütün evlərdə gözəl mebel və mətbəx ləvazimatından istifadə olunur. Bütün küçə və həyətlər elektrik işığına qərq olmuş, həyətlərə, evlərə su kanalı çəkilmişdir. 50-dən çox adamın şəxsi minik maşını, 20-dən çoxunun motosikleti və motorolleri var. 150 evə telefon çəkilmiş, bütün evlərdə televizordan istifadə olunur. Kənddə müasir avadanlıqla təchiz olunmuş 908 yerlik orta məktəb, 29 çarpayılıq xəstəxana, kino-klub, iki kitabxana; 50 yerlik uşaq bağçası, radio qovşağı var. Kənddə əhaliyə ticarət, məişət və iaşə xidmət obyektləri — mağazalar, hamam, dəlləkxanalar, dərzi və çəkməçi sexləri, yeməkxana və s. xidmət obyektləri var. Soltanlı kəndindən 4 elmlər doktoru, 28 elmlər namizədi, 230 müəllim, 8 həkim, 10 mühəndis, 50 aqronom, 100-ə qədər orta təhsilli mütəxəssis yetişmişdir. Kənd gündən-günə böyüyür, abadlaşır, mədəniyyəti inkişaf edir.



*Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü Mehdi Mehdizadə. [1903—1983]. Действительный член Академии педагоги ческих наук бывшего СССР Мехди Мехдизаде (1903-1983).*

Cəbrayıllılardan bir çoxları Respublika və ölkə miqyasında tanınmış təsərrüfat qabaqcılı, elm və mədəniyyət xadimləridir. Azərbaycan Elmlər Akademiyasını akademiki Əşrəf Hüseynovun, keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının akademiki Mehdi Mehdizadənin respublikada riyaziyyat və pedaqokika elmlərinin inkişafında və elmi kadrlar hazırlanmasında böyük xidmətləri olmuşdur. Cəbrayıllılardan bir çox elmlər doktoru və namizədləri elmin müxtəlif sahələrində adlı-sanlı alimlərdi. Tanınmış yazıcı və şairlərdən respublikanın əməkdar incəsənət xadimi Sabir Əhmədov, Sabir Süleymanov, Oruc Qüdrətov, Yusif Nəsirli,

Gülhüseyn Kazım, Gürcüstan Nazirlər Sovetinin Mayakovski adına mükafatı laueratı V. Cəbrayılzadəni və b. göstərmək olar. İstedadlı müğənnilər Yaqut Abdullayeva, Zahid Quliyev, rəssamlar Yavər Əsədov, Rafiq Quliyev, Fəxrəddin Məmmədvəliyev, ağac üzərində oymaçı Seyfəddin Məmmədəliyevlə cəbrayıllılar fəxr edirlər. Bütün azərbaycanlılar kimi Cəbrayıllılar da ürəyi təmiz, qəlbi geniş, çörəkli-duzlu, dostluğa möhkəm, bütün millətlərə, həmişə mehriban münasibət bəsləyən mərd adamlardır.



Akademik Əşrəf Hüseynov.
Академик Ашраф Гусейнов

Edilən hörmətləri üzə vurmaq bizim xalqımıza yad sifət olsa da Cəbrayıllılar qonşu olduqları erməni kəndlərinin camaatı ilə keçmiş münasibətlərin tarixçəsində ancaq

bəzi səhifələri bu çətin günlərdə xatırlamağa məcburdurlar. Bunları xüsusilə erməni millətçilərinin bilməsi lazımdır.

Hələ XIX əsrin qırxıncı illərində İrandan köçürülən erməniləri Xudafərin körpüsündə ilk qarşılayıb onlara qayğı göstərən Cəbrayıllılar oldu. Onlar bir dəstə erməniyə əvvəlcə Diri dağının ətəklərində müvəqətti yer verib alacıqlarda yaşamalarına şərait yaratdılar, az sonra Köhnə Tağlar kəndi olan əraziyə köçürüb bu kəndi salmalarına kömək etdilər. Başqa iki dəstə erməni isə Kavdar kəndində və Cilan ətrafında yerləşdirildi. Bir azdan sonra Cəbrayıllılar onlara Şahvələdli və Xubyarlı kəndlərin yaxınlıqlarında öz ata-baba torpaqlarından yer ayırıb Bünyadlı və Hərəkül kəndlərini salmalarına icazə verdilər. Üstəlikdə onlara qoşqu heyvanı və toxum verib əkin əkmələrinə şərait yaratdılar.

Tarixi sənədlər təsdiq edir ki, 1920-1921-ci illərdə Cəbrayıl qəza inqilab komitəsinin üzvü Dadaş Xankişiyev, Cəbrayıl qəza partiya komitəsinin katibi Şmavon Davidov və Hadrut inqilab komitəsinni üzvü Mexok Arakelyan dəfələrlə daşnaqlar tərəfindən ölüm təhlükəsi ilə üzləşdikdə onlar öz dəstələri ilə bir-birinin harayına çatıb birgə vuruşurdular.



Şair Sərdar Əsəd (1936-1977)
Поэт Сардар Асад (1936-1977)

1930-cu ildə rayonlar təşkil ediləndən sonra Cəbrayıllılar qonşuluq xatirinə ermənilərin öz mal-qaralarını Xubyarlı kəndinin yaxınlığında olan qədim azərbaycanlı qəbiristanlığının ətraflarında otarmalarına göz yumdular. Nəticəsi də də belə oldu ki, ermənilər [Bünyadlı kənd sakin Şair Sərdar Əsəd. [1936—1977]. Pozt Sardar Asad (1936—1977). ləri] həmin əraziləri öz kəndlərinin xəritəsinə saldırıb ona sahib durdular. Torpaq, xüsusilə də qəbiristanlıq ciddi, narahat məsələ olsa da cəbrayıllılar sonralar bu barədə heç bir söz-söhbət qaldırmadılar.

1950-1960-cı illərdə əlliyə qədər erməni Cəbrayılın idarə və təşkilatlarında məsul vəzifələrdə işləyirdi. Onlardan bir nəfərinə [adını çəkməyi lazım bilmədik] Azərbaycan SSR Əməkdar müəllimi adı verildi. Bəziləri də Cəbrayıl rayon təşkilatlarının zəmanəti ilə respublikada daha məsul işlərə irəli çəkildilər. Bütün azərbaycanlılar kimi cəbrayıllılar da ötən zamanlarda erməni millətçilərinin törətdikləri qırğınları tez unutdular və qonşuları ilə elə mehriban münasibət yaratdılar ki, bu, sonralar qohumluğa gətirib çıxartdı, erməni qızları Cəbrayıl gəncləri ilə xoşbəxt ailə həyatı qurdular. Biz toy-düyünlərdə birlikdə şənlənir, yaslarda birgə kədərlənirdik, bir-birimizi öz süfrələrimizin başında əyləşdirərdik. Bunları ancaq nankorlar unuda bilər və unutdular da. Öz xalqının da düşməni olan bir qrup erməni millətçiləri dəridən-qabıqdan çıxıb iki xalqın arasına nifaq salmağa nail oldular. Törədilən fitnəkarlıqlar nəticəsində nahaq qanlar axıdılır. Qətlə yetirilənlərin arasında Cəbrayıl gənclərindən Səxavət Quliyev, Şamil Əhmədov, Əskər Hüseynov, Zahid Əhmədov, Vüqar Hüseynov, Fuad Əsədov, Mübariz Qasımov, Çinkiz Qasımov, Zakir Zalov və başqaları da vardır. Bütün bu faciələr Bakıda və rayonlarda Qarabağı müdafiə edən xalq hərəkatının daha da genişlənməsinə təkan verdi. Cəbrayıllılar 1988-ci il noyabrın 20-dən 25-nə qədər rayonun mərkəzində, 26-dan dekabrın 2-nə qədər Xudafərin körpülərinin yanında ümumrayon nümayişi keçirərək erməni millətçilərinin azğınlıqlarına son qoyulması üçün təcili və təsirli tədbirlər görülməsini tələb etdilər: «Xudəfərin nümayişləri» adı ilə tanınan bu xalq izdihamının Azərbaycan xalqına qəbul etdiyi müraciətdə deyilir ki, biz Cəbrayıllılar erməni millətçilərinin qaldırdıqları əssasız ərazi iddialarına cavab olaraq Bakı və bütün respublikanın zəhmətkeşlərinin etiraz səslərinə qoşulur, onlarla həmrəy olduğumuzu bildirir və bütün ictimaiyyəti xalqımızın qanuni haqqını müdafiə etməyə çağırırıq. 1989-cu il sentyabrın 5-də Cəbrayıl ziyalılarından bir qrupu qonşu erməni kəndlərinin ziyalılarına açıq məktubla müraciət edərək onların diqqətini hər iki xalqın arasında keçmişlərdə yaranmış dostluq münasibətlərinə cəlb edib, daşnaq tör- töküntülərinin fitvasına uymamağa çağırdılar.

Təəssüf ki, məktuba cavab verilmədi. Əksinə erməni yaraqlılarından tutulmuş külli miqdarda silah və döyüş sursatı [Ancaq Cəbrayılda tutulmuş silahlar barədə baxmaq olar: «Azərbaycan» qəzetinin 1989-cu il onuncu nömrəsinə], silahları gəzdirənlərin Ermənistandan, hətta uzaq Krasnoyarsk və Stavropoldan gəlmələri, indi isə erməni milli ordusunun yaradılması göstərir ki, erməni millətçiləri açıq-aşkar toqquşmalara hazırlaşırlar. Cəbrayıllılar üzlərini iki qonşu xalqı dəhşətli qırğınlara sürükləyən erməni millət «fədailərinə» tutaraq özlərinin qocaman şairi, mərhum İsmayıl Quliyevin bu ağır günlərdə qələmə aldığı və Hamının da dilinin əzbəri olmuş aşağıdakı misraları ilə cavab verirlər:

Səndən yada Vətən olmaz
Ayaq basıb ötən olmaz,
Ana yurdum, öz torpağım,
Ay müqəddəs Qarabağım,
Ay müqəddəs Qarabağım.

Cəbrayıllılar da tam inanırlar ki, gec-tez haqq qalib gələcək, erməni millətçilərinin alçaq niyyətləri baş tutmayacaq, hər iki xalqın mehriban tarixi qonşuluq münasibətləri bərqərar olacaqdır. Çünki erməni xalqına artıq tam aydındır ki, ingilis diplomatiyasının keçmişdə erməni «strateqlərinin» ağlına saldığı və hər dəfə də minlərlə insan qırğını ilə nəticələnən «Böyük Ermənistan» ideyası bu gün onları yeni, daha dəhşətli faciələrə sürükləyir.

Bütün Azərbaycan xalqı kimi Cəbrayıllılar da gələcəyə böyük ümidlərlə baxır, özlərinin və xalqımızın sosial-iqtisadi tərəqqisi, adamların sülh və əmin-amanlıq şəraitində daha da firavan yaşamaları üçün əllərindən gələni edirlər.

# ДЖЕБРАИЛ
**( резюме)**

Джебраильский район расположен на границе Азербайджанской республики с Иранской Исламской Республикой, по левому беруг реки Араке в одном из прекрасных уголков Карабаха. В трудах иранского историка Хамдуллы Казвини (XIII— XIV) и азербайджанских историков А. Бакиханова, Ахмедбека Джеваншира, Мирзы Адыгезалбека и др., а также в произведениях видных представителей азербайджанской литературы Касумбека Закира и Дж. Мамедкулизаде имеются ценные сведения по истории, культуре нынешнего Джебраильского района. В трудах русских авторов XIX в. И. Сегаля, Г. Уразова, Н. Кокчаева, Д.. Деконского, А. Назаро-вича, Н. Дубровина и др. имеются материалы о происходящих на территории Джебраила политических и военных событиях, о земельных отношениях, положении крестьян и культуре населения Джебраильского уезда, об участии местных ворруженных отрядов в русско-персидских войнах в 1806—1812 и 1826—1828 годах. Г. Уразов, Н. Кокчаев и Д. Деконский посвятили Джебтильскому уезду отдельные очерки. В исследованиях азербайджанских историков так же име ются многие сведения по крестьянскому движению в Джебраильском уезде в конце XIX в. и начале XX веков, о борьбе крестьян против колониальной политики русского царизма. На территории Джеораильского района найдены многие предметы древней материальной культуры, которые хранятся в районном историко-краеведческом музее. На территории Джебраила имеются многие архитектурные памятники —« мосты, башни, крепостные сооружения и т. д.

Название Джебраильского района взято от названия селения Джебраил — нынешнего районного центра, которое основано одним из авторитетных лиц по имени Джебраил. Предполагается, что он жил в XIII—XV вв. и похоронен на вершине горы Алыпашы, в так называемом памятнике «Джебраил-ата». Как видно из произведений А. Бакиханова, Мирзы Гасан Эфенди, а также из исследований академика А. Сумбатзаде и доктора исторических наук (?. Онуллахи население Карабаха состояло в основном из племени Джеваншир, Каджар, Отузикиляр, Шахсеванлы, Джебраиллу. Племя Джебраиллу в начальных периодах состояло в основном из потомков Джебраила. Но в образовании племенного союза Джебраиллу принимали участие и другие тюркские племена, которые в древние времена из разных стран Ближнего и

Среднего Востока переселились на эти территории. Из них следует указать племена Чакар (Чахырлы), Сирак (Сирик), Чул (Чуллу), Татары (Татар), Ахмедлу (Ахмедлы), Садлу (Сади), Газан (Газанчы, Газанземи), Гум (Гумлаг), Тин (Тинли), Караджаллу (Караджаллар), Шыхляр (Шыхлар) и других, которые обосновались на этой территории и жили в отдельных селених, носящих названия своих племен.

В XVIII в. и начале XIX в. племя Джебраиллу, ставшее еще сильным, сыграло значительную роль в образовании и укреплении Карабахского ханства в борьбе против нападений персидских феодалов и в русско-персидских войнах. Поэтому русские генералы и персидский принц Аббас Мирза приложили много усилий для того, чтобы вовлечь племя Джебраиллу на свою сторону. Ибрагимхалил хан Карабахский женился на дочери одного из Джебраильских беков, у которой родились два сына. Из них Джавад ага умер еще в малолетнем возрасте, а Мамедга- сан ага со своим сыном Джафаркули ага принимали активное участие в политической жизни Карабахского ханства.

Как указано в камеральном списке, составленном в 1823 году по указанию Кавказского наместника генерала Ермолова, племя Джебраиллу в то время состояло из 17-ти оймаков (443 дома, 2200 человек). Каждый оймак имел своих аксакалов (старшин), которые возглавляли своих подчиненных, собирали подати, при надобности формировали вооруженные отряды. Из этих аксакалов особо выделялись Якуб ага, Наби ага, Фатали бек, Мехрали бек и др. Якуб ага был Джебраильским юзбаши (сотник). Его имя упоминается во многих письменных источниках XIX века. Якуб ага проявил мужество особенно в деле организации возвращения многих карабахцев, насильно изгнанных из своих родных мест, отправленных на территории Ирана. Поэтому по представлению генерала Ртищева от 1 января 1813 года Якуб аге присвоено звание капитана и ему выдано денежное вознаграждение. Во главе племени Джебраиллу в начале XIX в. стоял внук Ибрагимхалил хана Джафар-Кули ага. Следует отметить, что Джафаркули ага, организовав вооруженные отряды, лично проявил мужество и храбрость в борьбе с персидскими феодалами и на фронтах русско- персидских войн. Об этом много говорится в военных рапортах и донесениях, изданных по распоряжению кавказского наместника. Несмотря на это царские генералы, основываясь на ложных донесениях, обвинили Джафаркули ага в том, что он, якобы, имеет ориентации на Иранское государство и его арестовали.

Джафаркули ага, совершив побег из тюрьмы, вынужден был перейти на ту сторону Аракса, на территорию Ирана, где персидский принц Аббас Мирза назначил его наместником Карадаг- ской провинции. Но Джафаркули ага отказался от этой должности и скоро вернулся на родную землю — в Карабах, где его в 1822 г. арестовали и выслали в город Симбирск. Как пишет русский кавказовед Н. Дубровин племя Джебраиллу было недовольно этими действиями царского правительства и выражало свой протест против незаконной высылки Джафаркули аги. В 1829 г. царское правительство, принимая во внимание заслуги Джафаркули аги в русско-персидских войнах, а также ложность донесений, разрешило ему жить в г. Петербурге. В 1848 году Джафаркули аге разрешено вернуться в Карабах и ему было присвоено звание генерал-майора русской армии. Награжденный Орденом Священной Анны второй степени. Джафаркули ага опять был назначен главой племени Джебраиллу. От селения Горадиза до Джебраи- ла все территории непосредственно подчинялись ему. Как видно из многих документов историков, а также из сборника, напечатанного в 1878 году в Лондоне на турецком языке, племя Джебраиллу в разные исторические времена входило в состав еще больших и сильных племенных объединений Азербайджана Афшар, Джаваншир и Шахсеванлы, которые сыграли большую роль в истории Азербайджана, в особенности Карабаха.

Территория нынешнего Джебраильского района находится в центре формирования и развития Кура-Араксинской культуры и влияния восточной культуры на весь Кавказ. На его территории имеются многие следы первобытного человека — пещеры и укрепления для проживания древних людей. Из них представляет особый научный интерес пещера «Дивляр Сарайы» (Дворец дивов), находящаяся вблизи селения Дагтумас в ущелье Нэфэсли-дэре. Эту пещеру можно сравнить со знаменитой Азых- ской пещерой, вблизи гор. Физули и с пещерами на территории соседнего Кубатлин- ского района, в которых по мнению ученых еще миллионы лет тому назад жили первобытные люди. Вокруг этой пещеры и сейчас имеются всякие условия (разные фруктовые деревья, воды и т. д.) для проживания человека. По левому берегу р. Аракса на территории Джебраила, на подступах горы Дири имеются следы материальной культуры — развалины древних жилищ, изготовленные руками древних людей, каменные ванны для получения соков разных фруктов, а также хранения воды на несколько дней. На территории района имеются развалины древних жилищ и кладбищ с

надгробными памятниками скульптуры барана и коня, которые у тюркских народов считались тотемами. Из таких кладбищ особо выделяется так называемое среди населения «тюркское кладбище» вблизи сел. Хубярлы. Как видно из надписей на надгробных памятниках, это кладбище относится к периоду азербайджанских государств Каракоюнлы и Аккоюнлы. Вблизи сел. Аразмашанлы, Шыхляр, Галаджык имеются многие развалины древних поселений, относящихся к первому тысячелетию до нашей эры. Вблизи сел. Гышлаг обнаружены развалины поселения, где имелось около 700 жилищ. Около сел. Шыхляр имеется место металлообработки, которое местные жители называют «Дулусхана». В XIX веке в этом селении русский полеоботаник В. Петров обнаружил кувшин для хранения масла. В. Петров подробно описывал технологию изготовления таких глинянных кувшинов. Как известно в эпоху неолита и энеолита на могилах умерших устанавливали курганы. К числу таких курганов можно отнести так называемые «Месчид-тепеси» (сел. Галаджык), «Джан- кулу» и «Гумтепе» (сел. Махмудлы). Эти курганы относятся к эпохе неолита или началу энеолита. Вблизи сел. Дагтумас, Кархулу и др. также имеются остатки свыше 50-ти таких курганов. Глинянные трубы, найденные в местности Сирли тепе, расположенной между сел. Аразмашанлы и ст. Халафли свидетельствуют о том, что на этих территориях еще в I веке до н. э. пользовались кягризной (колодезной) системой.

На территории Джебраильского района имеются монументальные архи тектурные памятники, сооруженные в древности и средних веках руками местных мастеров. Из них особое место занимают знаменитые Худаферинские мосты на реке Араке, расположенные между селениями Гумлаг и Худаферин. Длина одиннадцатипролетного моста (среди народа носит название также и «Главный худаферинский мост») 130 метров, высота 12 метров, ширина 6 м. А длина пятнадцатипролетного моста 200 м, ширина 4,5, высота 10 метров. Расстояние между этими мостами составляет всего 800 метров. Даты сооружения этих мостов, к сожалению, до сих пор точно не установлены. Есть мнение о том, что одиннадцатипролетный мост сооружен в период империи Ахаменидов (VI—III в. до н. э.), пятнадцатипролетный в период царствования персидского шаха Великого Кира (VI в. до н. э.) Есть и другие мнения. Например, известный иранский историк Хамдулла Казвини пишет, что этот мост сооружен ближайшим соратником пророка Мухаммеда Бикром ибн-Абдулла- хом в 15 году Хиджры (636 году). Есть еще такие

мнения о том, что худаферинский мост построен Александром Македонским или римским полководцем Помпеем. По мнению некоторых историков мост сооружен 1-физлом — главой Государства Шед- дадидов в 1027 году. Следует отметить, что в произведениях римского поэта Вергилия есть намеки о том, что Худаферинский мост существовал еще в I веке до нашей эры. Привлекает особое,внимание то, что фундаменты обоих мостов воздвигнуты на крупных естественных каменных плитах в глубине воды р. Араке. Азербайджанские ученые считают, что в технике строительства худаферинских мостов имеется влияние древней римской архитектуры. Вместе с тем эти мосты являются лучшими образцами не только азербайджанского и восточного архитектурного искусства. Худафе- ринские мосты сыграли большую роль в установлении и расширении торговых связей Азербайджана со странами Ближнего и Среднего Востока. Крепость на вершине горы Тея (сел. Сирик) относится к V—VI вв. и служила надежным укреплением для защиты и наблюдательным пунктом. С этой целью в XVI—XVII веках на вершине горы Дири построена «Гыз Каласы» (Девичья башня). В сел. Гуйджах, Папы, Сулей- манлы, Дашкесан, Мазра, Солтанлы и др. имеются мечиды, которые построены в период XVI—XIX веков. Все эти вышеуказанные памятники свидетельствуют о том, что на территории нынешнего Джебраильского района с древнейших времен жили тюркоязычные племена, в том числе азербайджанцы, предки ныне живущих на этих территориях.

Как видно из произведений древних историков и современных исследователей территория Карабаха, в т. ч. Джебраила в VII в. до н. э. входила в состав царства, которое существовало от севера озера Урмия до Мильской равнины на левом берегу р. Драке, в VII—IV вв. в состав Мидийского государства и Ахеменидской империи, а в IV—III вв. до н. э. государства Кавказской Албании, затем Сасанидской империи. В результате народных волнений Сасанидское государство вынуждено было предоставить кавказской Албании самостоятельность, после чего началось оживление хозяйственной жизни. В хлебопашестве применялось искусственное орошение. Начало развиваться животноводство. Вблизи сел. Маралан на Ап- шеронском полуострове ручным способом Добывалась черная нефть. Это го- сударство Аккоюнлу.

В 1502 г. территория Карабаха входила в состав Азербайджанского Сефевид- ского Государства, основанного видным государственным и

политическим деятелем азербайджанского народа Шахом Исмаила I. В это время территория Джебраила входила в состав новообразованной административной единицы — Карабахского беклярбекства, центром которого стал гор. Гянджа. Шах Тахмасиб. сын шаха Исмаила I, назначил жителя гор. Гянджи Зияд хана первым беклярбеком. После него беклярбеками стали Зиядханогуллары (сыновья Зиядхана). Вся земля от гор. Гянджи до Худаферинских мостов находилась в руках Зиядханогуллары.

Во время правления Шах Исмаила в сел. Дири (на подступах гор. Дири) нынешнего Джебраильского района жил и творил видный представитель азербайджанской ашугской поэзии Ашуг Курбани. Великий мастер художественного слова Ашуг Курбани в своих гошмах (стихотворениях) воспел красоты природы, любви, верность родной земле, призывал всех к справедливости. Он был близким другом Шах Исмаила I, будучи талантливым поэтом, принимал участие в его поэтических меджлисах. АшугКурбани в рядах кызылбашев (красноголовых) — сторонников Шах Исмаила I — принимал непосредственное участие в известной Чалдыранской битве, попал в плен и увезен в Турцию, через некоторое время вернулся в свою родную деревню, где умер и похоронен на вершине горы Дири. В стихотворениях Курбани есть многие интересные сведения для изучения этнографии джебраильцев того времени.

В VII веке территории Азербайджана, в том числе Карабаха, были завоеваны арабами и включены в состав третьего Эмирата (центр г. Барда). В IX в, территория Карабаха стала ареной борьбы населения во главе славного сына азербайджанского народа Бабека против арабского халифата. После длительной борьбы Бабек освободил от арабов Арранские провинции, куда входил и Карабах. По мнению ученых жители сел Хоровлу, Хурама (Джебраил), Сабу (Занилан) являются потомками сторонников Бабека — хурремитов. Так как, во-первых, корни первых двух слов хор (хур — по фарсидски радость) взято от слова хуррамит. Что касается слова «собу» это происходит от фарсидкого слова «себилу» (усатый). Как известно, все мужчины-хурремиты держали длинные усы. Во-вторых, многие обычаи хурремитов, как например, выпивка вина (несмотря на запреты ислама), отказ от курения, держать длинные усы, в году один раз проводить торжества сопровождаемые исполнением на древнем национальном музыкальном инструменте — Кара Зурна разных мелодий танцов и т. д. имеются и у жителей вышеуказанных сел. Найденные на территории района монеты

чеканные в Тебризе и Урмии в XII—XIV вв. на имя Абака хана, Шейха Увейса и Абу Саида Багатура свидетельствуют о том, что в карванной торговой связи Азербайджана*со странами Востока в период татаро-монгольского государства значительную роль сыграла и территория Джебраила, особенно Худаферинские мосты.

В 1412 г. Карабах вошел в состав тюркоязычного Каракоюнлинского государства, а во второй половине XV века в состав из племени Ахмедлу (жители сел. Шахвел- ли, Галаджыг, Дамшалак, Гушучулар, Гаджи Исмаиллы и др. на территории Джебраила не подчинились приказу Шах Аббаса и не хотели покинуть свои родные земли. Жители сел. Чахаулы оказали вооруженное сопротивление. По приказу Шаха многие из них были истреблены, а остальные вынуждены перейти на сторону Шахсеван- цев — сторонников Шах Аббаса I.

После убийства в 1747 г. Надир Шаха на территории Азербайджана — в Нахичевани, Карабахе, Шеки, Ширване и др. возникли самостоятельные феодальные государства — ханства. Из них самым сильным было Карабахское ханство с центром гор. Шуша, основанного мужественным сыном азербайджанского народа Панах ханом. В состав Карабахского ханства вошли все территории от Нахичевани до реки Кура и Тертерчая; часть Зангезурского и Сисианского магалов (областей) тоже подчинялись карабахскому хану. Территория Джебраила входила в состав этого ханства. Территория Карабахского ханства разделена на 22 административных единицы—магалов |областей]. Худаферинский магал охватывал территории от сел. Дагтумас и Сирик до горы Дири, а Човундарский магал — территорию от горы Дири до реки Охчичай. Каждым магалом (вилаятом) управляли влиятельные люди — беки, назначенные Карабахским ханом. В Карабахском ханстве стало развиваться хлебопашество, животноводство, коконоводство. Этому способствовало и возвращение многих местных жителей, насильно угнанных в разные времена на территорию Ирана.

